Duzlarda $2A_r(Y) = A_r(Z)$ olarsa, X-in nisbi atom kütləsini müəyyən edin. $A_r(O)=16$

A) 56 B) 23 C) 24 D) 40 E) 39

49.

Maddə	Atomların sayı	Kütlə, q
F_2	*a*	*b*
OF_2	*a*	*c*

b : *c* nisbətini hesablayın. $M_r(F_2)=38$, $M_r(OF_2)=54$

A) 19:36 B) 12:11 C) 19:18 D) 9:18 E) 2:3

50. reaksiyanın sürəti



$Mg + H_2SO_4 \longrightarrow MgSO_4 + H_2$ qapalı qabda gedən reaksiyada

1. Reaksiya gedən qabda təzyiq artırılır.
2. H_2SO_4-ün qatılığı azaldılır.
3. Mg parçası xırdalanır.

Qrafikdəki sürət dəyişmələrini verilmiş ifadələrlə uyğunlaşdırın.

	I	II	III
A)	2	3	1
B)	2	1	3
C)	3	2	1
D)	1	2	3
E)	3	1	2

51. Hansı halda təzyiqin artırılması tarazlığı reaksiya məhsulları istiqamətinə yönəldər?

1. $N_{2(q)} + 3H_{2(q)} \leftrightarrow 2NH_{3(q)}$
2. $H_{2(q)} + Cl_{2(q)} \leftrightarrow 2HCl_{(q)}$
3. $CH_{4(q)} + CO_{2(q)} \leftrightarrow 2CO_{(q)} + 2H_{2(q)}$
4. $4HCl_{(q)} + O_{2(q)} \leftrightarrow 2Cl_{2(q)} + 2H_2O_{(buxar)}$
5. $C_{(b)} + O_{2(q)} \leftrightarrow CO_{2(q)}$

A) 1, 4, 5 B) yalnız 1, 4 C) 2, 3, 5
D) yalnız 4, 5 E) 1, 2, 3

52. $2NO + O_2 \xrightarrow{\downarrow} 2NO_2$ reaksiyasında, NO -nun sürəti 4 $\frac{mol}{l \cdot san}$-dir. O_2 -nin ilkin qatılığı 16 $\frac{mol}{l}$ olarsa, neçə saniyədən sonra onun qatılığı 6 $\frac{mol}{l}$ olar?

A) 5 B) 10 C) 3 D) 4 E) 10

53. $_{16}X$ atomunun yalnız oksidləşdirici ola bildiyi birləşmələri müəyyən edin.

1. Na_2XO_4 2. $MgXO_3$ 3. H_2X
4. H_2XO_4 5. XS 6. XO_3

54. $CrCl_3 + NaOH + NaClO \longrightarrow NaCl + Na_2Cr_2O_7 + H_2O$

Reaksiya tənliyində NaOH əmsalını müəyyən edin.

55.

Qarışıq	Kütləsi, q	Mol sayı
H_2 və O_2	160	20

Qarışığın reaksiyasından sonra artıq qalan qazın mol miqdarını hesablayın. $A_r(H)=1$, $A_r(O)=16$

56. *su buxarı* $\xrightarrow{1}$ *su* $\xrightarrow{2}$ *oksigen* $\xrightarrow{3}$ *su* $\xrightarrow{4}$ *buz*

Hansı mərhələlərdə kimyəvi hadisə baş verir?

57. $CH \equiv CH + 2H_2 \xrightarrow{t,\ kat} CH_3 - CH_3$ reaksiyası üçün uyğunluğu müəyyən edin.

Mürəkkəb maddə molekulunda

1. Artan
2. Azalan
3. Dəyişməyən

a. karbonun kütlə payı
b. hibrid orbitalların sayı
c. qeyri-polyar kovalent rabitələrin sayı
d. rabitələrin əmələ gəlməsində iştirak edən qeyri-hibrid orbitalların sayı
e. σ (siqma)-rabitələrin sayı

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.



$H_2SO_4 + X \longrightarrow XSO_4 + S + H_2O$ reaksiyasının məhsullarının zamandan asılılıq qrafiki yuxarıda göstərildiyi kimidir. Reaksiya bitdikdən sonra, qarışıqdan təmizlənmiş 322 q XSO_4-ün suda məhluluna salınmış maqnezium lövhənin kütləsi, proses tam başa çatdıqda 82 qram artmışdır. (X – metaldır) $A_r(O)=16$, $A_r(H)=1$, $A_r(S)=32$, $A_r(Mg)=24$

58. A, B və C-yə uyğun gələn maddələri yazın.

59. XSO_4 məhluluna salınmış maqnezium lövhəsinin kütləsinin artması ilə gedən reaksiyanın tənliyini yazın (1) və X elementinin nisbi atom kütləsini hesablayın (2).

60. Reaksiya nəticəsində 64 qram A maddəsi əmələ gəldikdə, reaksiyaya daxil olmuş X maddəsinin kütləsini q (1) və neçə qram C maddəsinin (2) alındığını hesablayın.

FİZİKA

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

61. Düzxətli bərabərtəcilli hərəkət edən cismin 2-ci saniyənin sonunda sürəti 18 m/san, 5-ci saniyənin sonunda isə 6 m/san olmuşdur. Başlanğıc zaman anında bu cismin sürətini (ϑ_0) hesablayın.

A) 21 m/san B) 22 m/san C) 24 m/san
D) 26 m/san E) 30 m/san

62. İki cisim radiusu 30 m olan çevrə üzrə bərabərsürətli hərəkət edir. Birinci cisim $\vartheta_1 = 10$ m/san sürətlə K nöqtəsindən keçən anda, ikinci cisim $\vartheta_2 = 6$ m/san sürətlə M nöqtəsindən keçir. Bu cisimlərin ilk dəfə hansı zaman müddətində görüşdüyünü hesablayın ($\pi=3$).



A) 3 san B) 5 san C) 7,5 san
D) 8 san E) 15 san

63. Çevrə üzrə bərabərsürətli hərəkət edən K və L cisimlərinin xətti sürətləri eynidir ($\vartheta_1=\vartheta_2$). K cisminin bucaq sürəti 15 rad/san olarsa, L cisminin bucaq sürətini hesablayın.



A) 0,2 rad/san B) 5 rad/san C) 15 rad/san
D) 18 rad/san E) 45 rad/san

64. Cismə bir düz xətt boyunca yönələn, modulları $F_1 = 5$ N, $F_2 = 6$ N və $F_3 = 9$ N olan üç qüvvə tətbiq olunmuşdur. Bu qüvvələrin əvəzləyicisinin ən kiçik qiymətini hesablayın.

A) 0 B) 1 N C) 2 N D) 3 N E) 4 N

65. 8 kq kü
düşür.
(P) və
tini (F

A)
B)
C)
D)
E)

66. Cis
mu
yu
(hə
A
D

67. S
t

68.

6

65. 8 kq kütləli cisim müəyyən hündürlükdən sərbəst düşür. Sərbəst düşmə zamanı bu cismin çəkisini (P) və cismə təsir edən ağırlıq qüvvəsinin qiymətini ($F_{ağ}$) hesablayın ($g = 10\,m/san^2$).

	P	$F_{ağ}$
A)	0	0
B)	0	80 N
C)	40 N	40 N
D)	80 N	40 N
E)	80 N	80 N

66. Cisim Yer səthindən ϑ_0 sürətlə şaquli yuxarı atılmışdır. Bu cisim Yer səthindən $4\vartheta_0$ sürətlə şaquli yuxarı atıldıqda onun uçuş müddəti necə dəyişər (havanın müqaviməti nəzərə alınmır)?

A) 4 dəfə artar B) 4 dəfə azalar C) dəyişməz
D) 2 dəfə artar E) 2 dəfə azalar

67. Sıxılmış yaya bərkidilmiş cisim üfüqi səth üzərində sükunətdədir. Cismə təsir edən sükunət sürtünmə qüvvəsi hansı istiqamətdə yönəlir?

A) ↘ B) ↙ C) → D) ← E) ↓

68. Sürtünmə qüvvəsinin dayağın reaksiya qüvvəsindən asılılıq qrafikləri verilmişdir. 1, 2 və 3 nöqtələrinə uyğun sürtünmə əmsalları arasında hansı münasibət doğrudur?



A) $\mu_2 < \mu_1 < \mu_3$ B) $\mu_2 > \mu_1 > \mu_3$ C) $\mu_1 = \mu_2 < \mu_3$
D) $\mu_2 = \mu_3 > \mu_1$ E) $\mu_2 = \mu_3 < \mu_1$

69. Elastiki deformasiya olunmuş verilmiş yayın sərtliyinin onun uclarına təsir edən qüvvənin qiymətindən asılılıq qrafiki hansıdır?



70. 30 N dartı qüvvəsinin təsiri altında düzxətli hərəkət edən 10 kq kütləli cismin sürətinin modulunun zamandan asılılıq qrafiki verilmişdir. Cismə təsir edən sürtünmə qüvvəsinin modulunu hesablayın.



A) 20 N B) 30 N C) 40 N D) 50 N E) 80 N

71. Çəkisiz yaydan asılmış 4 kq kütləli cisim şaquli aşağı istiqamətdə yönəlmiş F = 10 N qüvvə ilə dartılır. Tarazlıq halında yayda yaranan elastiklik qüvvəsinin modulunu hesablayın ($g = 10\,m/san^2$).



A) 10 N B) 25 N C) 50 N
D) 30 N E) 40 N

72. Şaquli aşağı istiqamətdə 2 m/san sürətlə bərabərsürətli hərəkət edən liftin döşəməsindəki cismin çəkisi 48 N-dur. Bu cismin kütləsini hesablayın ($g = 10\,N/kq$).

A) 4 kq B) 4,8 kq C) 5 kq
D) 6 kq E) 12 kq

73. Üfüqi səth üzrə yalnız sabit sürtünmə qüvvəsinin təsiri altında hərəkət edən verilmiş cismin tormozlanma müddətinin onun başlanğıc impulsundan asılılıq qrafiki hansıdır (m=const)?



74. 8 kq kütləli cismi kütləsi 6 kq olan bircins lingin hansı nöqtəsindən asmaq lazımdır ki, ling tarazlıqda qalsın (bölgülər bərabərdir, $g = 10\,m/san^2$)?



A) 1 B) 2 C) 3 D) 4 E) 5

75. Qüvvə momentinin sabit qiymətində qüvvənin modulunun qüvvə qolundan asılılıq qrafiki hansıdır?



76. Verilmiş kütləli cisim blokların köməyi ilə hamar mail müstəvi boyunca bərabər sürətlə qaldırılır. Sistem qüvvədə neçə dəfə qazanc verir (blokların çəkisi və blokların oxunda sürtünmə nəzərə alınmır)?



A) 2,5 dəfə B) 5 dəfə C) 6 dəfə
D) 10 dəfə E) 15 dəfə

77. O nöqtəsinə nəzərən F qüvvəsinin qolu hansıdır?



A) OC B) BC
C) OA D) AC
E) OB

78. Kütləsi 10 kq olan cisim bloklar sistemi vasitəsilə 2 m/san² sabit təcillə qaldırılır. İpin sərbəst ucuna təsir edən F qüvvəsinin qiymətini hesablayın (g = 10 N/kq, blokların çəkisi və blokların oxunda sürtünmə nəzərə alınmır).



A) 40 N B) 50 N C) 60 N
D) 80 N E) 120 N

79. Hansı cihazlardan istifadə edərək cismin kinetik enerjisini təyin etmək olar?

1. spidometr 2. tərəzi 3. dinamometr

A) yalnız 1 B) 1 və 2 C) 2 və 3
D) yalnız 3 E) 1 və 3

80. $\frac{2E_p}{x}$ ifadəsi ilə hansı fiziki kəmiyyət təyin olunur (E–yayın potensial enerjisi, x–yayın uzanması)?

A) elastiklik qüvvəsi B) yayın sərtliyi
C) cismin kütləsi D) cismin impulsu
E) kinetik enerji

81. Cismin kinetik enerjisinin onun impulsunun modulundan asılılıq qrafiki hansıdır (m=const)?



82. Təcil və impuls üçün Eyler-Venn diaqramında uyğun ifadələri müəyyən edin.



1. vektorial fiziki kəmiyyətdir
2. sürət istiqamətində yönəlir
3. əvəzləyici qüvvə istiqamətində yönəlir
4. düzxətli bərabərsürətli hərəkətdə sıfıra bərabərdir

	I	II	III
A)	3	2	1, 4
B)	2	3	1, 4
C)	2	1, 4	3
D)	1	2, 3	4
E)	3, 4	2	1

83. Açar sözlərdən müəyyən ardıcıllıqla istifadə edərək, mətni tamamlayın.

Açar sözlər: *1 – fərqsiz tarazlıq, 2 – dayanıqlı tarazlıq, 3 – dayanıqsız tarazlıq, 4– maksimum, 5– minimum*

Tarazlıq vəziyyətindən çıxarılmış cisim öz-özünə (ağırlıq qüvvəsinin qüvvə momentinin təsiri ilə) əvvəlki vəziyyətə qayıdarsa, bu növ tarazlıq _____ adlanır. Tarazlıq vəziyyətindən çıxarılmış cisim öz-özünə əvvəlki vəziyyətə qayıda bilmirsə, bu növ tarazlıq _____ adlanır. _____ halında olan cismin ixtiyari vəziyyətində ona təsir edən qüvvələrin əvəzləyicisi sıfıra bərabər olur. Dayanıqlı tarazlıq vəziyyətində olan cisim _____ potensial enerjiyə malik olur. Dayanıqsız tarazlıq vəziyyətində olan cisim _____ potensial enerjiyə malik olur.

84. Günəş ətrafında orta sürəti 30 km/san olan Yerin 5 dəq ərzində getdiyi yolu km ilə hesablayın.

85. Uzanmayan çəkisiz ipdən asılmış yüklər sabit təcillə hərəkət edir. T=30 N olarsa, F gərilmə qüvvəsini N ilə hesab-layın (blokun oxunda sürtünmə nəzərə alınmır, g = 10 m/san²).



86. Tarazlıq halındakı çəkisiz yaylardan asılmış cisimlərin kütlələri və yayların sərtlikləri uyğun olaraq $m_1 = 2m_2$ və $k_2 = k_1$ olarsa, yaylarda yaranan elastiklik qüvvələri (F) və yayların potensial enerjiləri (E_p) arasındakı doğru münasibətləri müəyyən edin.



1. $F_1 = F_2$ 2. $F_1 = 2F_2$ 3. $F_1 = 4F_2$
4. $E_{p1} = E_{p2}$ 5. $E_{p1} = 2E_{p2}$ 6. $E_{p1} = 4E_{p2}$

87. Fiziki kəmiyyətlər və onların vahidləri arasındakı uyğunluğu müəyyən edin.

1. çəki *2. impuls* *3. enerji*

a. $\frac{kq \cdot m}{san^2}$ b. $\frac{kq \cdot m^2}{san^2}$ c. $\frac{kq \cdot m}{san}$ d. C e. N

Sizə təqdim olunan situasiyanı diqqətlə oxuyun. Burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Üfüqi səth üzərinə qoyulmuş m_1 = 4 kq və m_2 = 6 kq kütləli iki tata parçası iplə bir-birinə bağlanmışdır. Cisimlər sabit F = 20 N qüvvənin təsiri ilə 6 m/san sürətlə düzxətli bərabərsürətli hərəkət edir. Bir müddət sonra cisimləri bağlayan ip qırılır (hər iki cisim ilə üfüqi səth arasındakı sürtünmə əmsalı eynidir, ipin çəkisi nəzərə alınmır, g = 10 m/san²).



88. Cisimlərlə səth arasındakı sürtünmə əmsalını hesablayın.

89. İp qırıldıqdan sonra hər bir cismin necə hərəkət etdiyini yazın (cavabınızı əsaslandırın).

90. İp qırıldıqdan sonra ilk 3 san ərzində m_2 cisminin getdiyi yolun zamandan asılılıq qrafikini çəkin. Qrafiki asılılıqda ilk 3 saniyə ərzinə gedilən yolun qiymətini yazın (qrafiki asılılıqda yolu m, zamanı san ilə ifadə edin).

19. Cədvələ əsasən uyğunluğu müəyyən edin.

Sümüklər	Növləri		
	Yastı	*Uzun borulu*	*Qısa*
1	–	+	–
2	+	–	–
3	–	–	+

a. çanaq sümüyü
b. barmaq falanqası
c. boyun fəqərəsi
d. bud sümüyü
e. əl darağı sümüyü

A) 1-e; 2-c; 3-a, b
B) 1-d; 2-a; 3-b, e
C) 1-d, e; 2-a; 3-b, c
D) 1-d, e; 2-a, c; 3-b
E) 1-d; 2-a; 3-c, e

20. Göl qurbağasının fərdi inkişafı zamanı ürəkdə mədəcik sayının artdığını söyləmək olarmı?

A) olar, çünki onun sürfəsində ürək ikikameralıdır
B) olmaz, çünki onun sürfəsi və yetkin fərdində ürək kameraları eyni saydadır
C) olmaz, çünki onun sürfəsində ürək üçkameralıdır
D) olar, çünki onun yetkin fərdində ürək ikikameralıdır
E) olmaz, çünki onun həm sürfəsi, həm də yetkin fərdinin ürəyində bir mədəcik olur

21. Əgər dilin uc hissəsindəki dad reseptorları zədələnərsə, insan dili vasitəsilə hansı dadı hiss etməkdə çətinlik çəkər?

A) turş
B) şirin
C) acı
D) duzlu və turş
E) acı və duzlu

22. Yalnız bitki mənşəli qidalarla qidalanan insanın həzm kanalında ola ***bilməz***:

A) sellüloza
B) C vitamini
C) qlikogen
D) yağ turşusu
E) qlükoza

23. Cədvələ əsasən a + b + c ifadəsinin cəmini tapın.

Müəyyən sayda may böcəyindəki	
yerimə ayaqlarının ümumi sayı	48
qanadların sayı	a
bığcıqların sayı	b
çənələrin sayı	c

24. Eyler-Venn diaqramında sual işarəsinin yerinə yazılan ***bilməz***:



1. suda həll olmuş oksigenlə tənəffüs edir
2. lamisə çıxıntıları var
3. manti boşluğu olur
4. qanı bədən boşluğu mayesi ilə qarışır
5. ürək boşluğunda yalnız bir növ qan olur
6. inkişafı dolayı yolla baş verir

25. Verilmiş canlılardan hansılarının şəkildəki hüceyrəsində Y cinsiyyət xromosomu ola ***bilməz***?

1. xoruz
2. pişik
3. kərtənkələ
4. meymun
5. ilan
6. kəpənək

26. İnsanın sinir sistemi ilə bağlı mülahizələrdən düzgün olanları seçin.

1. Neyronlar çıxıntılara malik sinir hüceyrələridir.
2. Sinir impulsları hissi neyronlardan bilavasitə əzələlərə ötürülə bilər.
3. Ara neyronların aksonları boz maddənin əmələ gəlməsində iştirak edir.
4. Sinirlər onları əmələ gətirən neyronlardan uzundur.
5. Ürəyin işini idarə edən parasimpatik sinirlər onurğa beyninin döş şöbəsindən çıxır.

27. Uyğunluğu müəyyən edin.

Aybaşı tsiklinin fazaları:

1. aybaşı fazası
2. aybaşıdan sonrakı faza
3. sarı cisim fazası

a. yeni follikullar yetişməyə başlayır
b. uşaqlığın selikli qişası bərpa olunmağa başlayır
c. ovulyasiyadan sonra başlayır
d. uşaqlıq divarının qalınlığı maksimal olur
e. uşaqlığın selikli qişası qopmağa başlayır

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Tədqiqatçı insanın leykosit hüceyrəsinin mitoz bölünməsini mikroskopla müşahidə edərək bölünmənin müxtəlif fazalarında baş verən prosesləri qeyd etdi.

Fazalar	Proseslər
X	xromatidlər bir-birindən ayrılaraq hüceyrənin qütblərinə tərəf çəkilir
Y	bölünmə vətərlərinin əmələ gəlməsi başa çatır
Z	nüvəciklər itir

28. X, Y və Z müvafiq olaraq mitozun hansı fazalarıdır?

29. Z fazasında baş verən digər proseslərdən üçünü yazın.

30. X fazasının sonunda autosom xromosomların sayının cinsiyyət xromosomlarının sayından neçə ədəd çox olduğunu hesablayın. (həlli göstərilməklə)

KİMYA

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

31.

Reaksiyalar	Reaksiya sürətinin temperatur əmsalı	60°C-də sürəti, mol/(*l*·san)
I	2	*a*
II	4	*a*

90°C-də II reaksiyanın sürəti (mol/(*l*·san)), I reaksiyanın sürətindən (mol/(*l*·san)) neçə dəfə çox olar?

A) 4 B) 8 C) 6 D) 10 E) 9

32. Hansı əsas əsasi duz əmələ ***gətirmir***?

A) sink-hidroksid B) barium-hidroksid
C) mis (II)-hidroksid D) kalium-hidroksid
E) alüminium-hidroksid

33.

Maddə	Həcmi (n.ş.), *l*	Elektronların sayı
A	11,2	$11{,}5N_A$

A-nı müəyyən edin. $_7N$, $_8O$ (N_A-Avoqadro ədədidir)

A) N_2O B) NO C) O_2 D) N_2 E) NO_2

34.



İlk anda qabların hər üçündə 180 q 20%-li məhlul var. Maddələr qablara tam əlavə olunduqdan sonra 1-ci qabda 28%-li məhlul alınır. X-in nisbi atom kütləsini və məhlulların son qatılıqları arasındakı münasibəti (a) müəyyən edin. A_r(O)=16, A_r(H)=1

	$A_r(X)$	a
A)	40	2 < 3 < 1
B)	56	3 < 2 < 1
C)	23	2 < 3 < 1
D)	40	1 < 2 < 3
E)	23	3 < 2 < 1

35. $X_2(q) + 3Y_2(q) \rightleftharpoons 2XY_3(q) + Q$

Tarazlıq halında olan reaksiyada dəyişiklik aparılan zaman, X_2-nin qatılığının (C) zamandan (τ) asılılıq qrafiki verilmişdir. Hansı dəyişiklik aparılmışdır?



A) Qaba X_2 əlavə olunub
B) Katalizator əlavə olunub
C) Temperatur artırılıb
D) Təzyiq artırılıb
E) Qabdan XY_3 çıxarılıb

36.

Məhlulun kütləsi, q	Məhlulda həll olan maddənin kütləsi, q	Məhlulun qatılığı, %
4a	a	b

b-ni hesablayın.
A) 25 B) 40 C) 30 D) 20 E) 10

37.

Reaksiyaya daxil olan maddələr	Mol sayı	Əmələ gələn duzun tipi
Ammonyak	2	"turş duz"
Turşu	1	

Turşunu müəyyən edin.
A) metafosfat turşusu B) perxlorat turşusu
C) ortofosfat turşusu D) sulfat turşusu
E) xlorid turşusu

38.

Qarışığın tərkibi	Qarışığın kütləsi, q	Qarışığın tam yanmasına sərf olunan oksigenin miqdarı, mol	Qarışıqda maddələrin ümumi mol sayı
C_2H_4	52	6	n
CH_4			

Tam yanmasından karbon qazı və su alınırsa, n-i hesablayın. $A_r(C)=12$, $A_r(H)=1$
A) 3 B) 2,5 C) 5 D) 4 E) 6

39.

Reaksiyanın aparıldığı temperatur	Reaksiyanın sürəti, mol/(l·san)	Reaksiya sürətinin temperatur əmsalı
a_1	0,02	2
a_2	0,08	

$a_2 - a_1$ fərqini hesablayın.
A) 10 B) 15 C) 30 D) 25 E) 20

40. Doymuş məhlulda *a* maddəsinin kütlə payı 20% olarsa, həmin temperaturda *a* maddəsinin həllolma əmsalını (q/l) hesablayın.
A) 250 B) 500 C) 400 D) 1200 E) 200

41.

Metal	Reaksiyaya daxil olduğu maddə	Alınan normal duzun mol sayı	Ayrılan qazın həcmi
Ba	$H_2SO_{4(duru)}$	a	x
K		a	y
Al		a	z

x, y və z-i müqayisə edin.
A) y = x > z B) z > x = y C) x > y > z
D) y > z > x E) x = z > y

42. $Si + O_2 \longrightarrow SiO_2$ reaksiyası üçün doğrudur:
I. Silisium reduksiya olunur
II. Oksigen oksidləşdiricidir
III. Birləşmə reaksiyasıdır
IV. Homogen reaksiyadır
A) III, IV B) I, IV C) II, III
D) I, II E) II, IV

43. $K_2S + NaClO + H_2SO_4 \longrightarrow S + NaCl + K_2SO_4 + H_2O$

Reaksiya tənliyi üzrə, n mol su alınarsa oksidləşdiricinin aldığı elektronların sayını hesablayın.
A) 2n mol B) 8n mol C) 3n mol
D) 5n mol E) 4n mol

44.

Atom	*s*-elektronlarının sayı	*d*-elektronlarının sayı
X	7	5

X-in dövri sistem cədvəlində mövqeyini müəyyən edin.

	Dövr	*Yarımqrup*
A)	III	VIA
B)	IV	IVA
C)	IV	VIA
D)	IV	VIB
E)	III	VIB

45. Uyğunluğu müəyyən edin.

Reaksiyaya daxil olan maddələr	Oksidlər		
	I	II	III
H_2SO_4	+	+	–
KOH	–	+	+

a. CO_2 b. BaO c. ZnO d. Na_2O
A) I-b,d; II-a; III-c B) I-c; II-b,d; III-a
C) I-a; II-d,c; III-b D) I-d; II-c; III-a,b
E) I-b,d; II-c; III-a

46. Temperaturu artırdıqda hansı maddələrin suda həll olması artır?
1. H_2 2. $CuSO_4$ 3. O_2
A) yalnız 3 B) yalnız 2 C) yalnız 1
D) 1, 3 E) 2, 3

47. Oksidləşmə-reduksiya reaksiyasını göstərin.
A) $K_2O + H_2O \longrightarrow$
B) $Al_2O_3 + HCl \longrightarrow$
C) $Ca(OH)_2 + CO_2 \longrightarrow$
D) $NaOH + HCl \longrightarrow$
E) $Na + H_2O \longrightarrow$

48. $Duz \cdot xH_2O$ kristalhidratının közərdilməsi zamanı bərk nümunənin kütləsinin zamandan asılılıq qrafiki verilmişdir. x-i müəyyən edin.
$M_r(Duz)=120$,
$M_r(H_2O)=18$



A) 7 B) 6 C) 2 D) 8 E) 5

49.

$_aX$			$_bY$
		$_{14}Z$	
$_cT$			

Dövri sistem cədvəlinin verilmiş hissəsindəki əsas yarımqrup elementləri üçün hansı ifadə doğru ***deyil***?
A) Y-in elektromənfiliyi ən böyükdür
B) X-in oksigenlə əmələ gətirdiyi oksidin formulu XO-dur
C) T və Z, TH_2 və $ZH_{4\ tipli}$ hidrogenli birləşmə əmələ gətirir
D) X-nin qısa elektron formulu ...$3s^2$-dir
E) b + c = 27-yə bərabərdir

50. Həcmi 1 *l* olan qabda 1,5 mol azot və 2,5 mol hidrogen arasında reaksiya baş verir və 30 saniyə sonra tarazlıq yaranır. Tarazlıq anına kimi hidrogenə görə orta sürət 0,05 mol/(*l*·san) olarsa, reaksiyanın tarazlıq sabitini müəyyən edin.
A) 0,25 B) 0,5 C) 1 D) 0,2 E) 2

51. 1 mol A $\xrightarrow{+H_2O}$ 1 mol B $\xrightarrow{+H_2SO_4}$ normal duz + + su
A-nı müəyyən edin.
A) xrom(II) oksid B) natrium-oksid
C) dəmir(II) oksid D) mis(II) oksid
E) kalsium-oksid

52. Hansı maddə bərk halda molekul kristal qəfəsi əmələ ***gətirmir***?
A) H_2O B) CH_4 C) CO_2
D) SiC E) H_2

53. $CH_4 + 2O_2 \longrightarrow CO_2 + 2H_2O + Q$
8 q oksigen sərf olunduqda 120 kC istilik ayrılarsa, reaksiyanın istilik effektini (kC) müəyyən edin. $A_r(O)=16$

54.

Qarışıq	Ayrılma üsulu
a + b	Süzmə
a + c	Distillə

Doğru ifadələri müəyyən edin.
1. b → adi şəraitdə mayedir
2. a + c → eynicinsli qarışıqdır
3. a → adi şəraitdə bərkdir
4. a + b → müxtəlifcinsli qarışıqdır

55. Hansı reaksiyalar aşağıdakı kimi baş verə bilər?
1. $Fe(OH)_2 + H_2SO_4 \longrightarrow FeSO_4 + 2H_2O$
2. $Cu(OH)_2 + Zn(NO_3)_2 \longrightarrow Cu(NO_3)_2 + Zn(OH)_2$
3. $2NaOH + Zn(OH)_2 \longrightarrow Na_2ZnO_2 + 2H_2O$
4. $2KOH \xrightarrow{t} K_2O + H_2O$

56. 20%-li H_2SO_4 məhlulunun qatılığı azalar:
1. H_2SO_4 əlavə etdikdə
2. 15%-li H_2SO_4 məhlulu əlavə etdikdə
3. Su əlavə etdikdə
4. 30%-li H_2SO_4 məhlulu əlavə etdikdə

57. Uyğunluğu müəyyən edin.

Oksidlərin xassəsi	*Oksidlər*
1. Suda həll olduqda turşu alınır	a. CO
2. Suda həll olduqda əsas alınır	b. N_2O_5
3. Suda həll olmur	c. BaO
	d. Na_2O
	e. CuO

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Üç müxtəlif sınaq şüşəsinin birində mis (II) nitratın, birində xlorid turşusunun, digərində isə natrium-hidroksidin su ilə əmələ gətirdiyi məhlul var. Məhlullardan nümunə götürüb dəmir (II) hidroksid ilə təsir etdikdə yalnız III sınaq şüşəsində reaksiya baş verir. Kalium-karbonat məhlulu ilə təsir etdikdə isə I sınaq şüşəsində reaksiya baş ***vermir***.

58. Hər bir sınaq şüşəsində (I, II, III sınaq şüşələrində) olan maddələrin formullarını uyğun olaraq yazın.

59. II sınaq şüşəsində baş verən reaksiyanın tənliyini (1) yazın və əmsallaşdırın (2).

60. *III* sınaq şüşəsindən götürülmüş 200 ml nümunənin tam reaksiyaya daxil olmasına 230 q 30%-li kalium-karbonat məhlulu sərf olunur. Baş verən reaksiyanın tənliyini (1) yazın və III sınaq şüşəsindəki məhlulun reaksiyadan əvvəlki molyar qatılığını (mol/l) (2) hesablayın. $M_r(K_2CO_3)=138$

FİZİKA

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

61. Düzxətli hərəkət edən cismin koordinatının zamandan asılılıq qrafiki (parabola) verilmişdir. Koordinat başlanğıcından keçən anda bu cismin sürətinin x oxu üzrə proyeksiyasını hesablayın ($\vartheta_{0x}=6$ m/san).



A) 32 m/san B) 26 m/san C) 24 m/san
D) 22 m/san E) 16 m/san

62. Eskalator 0,3 m/san sürətlə bərabərsürətli hərəkət edir. Bu eskaltor üzərindəki sərnişin onun hərəkəti istiqamətində eskaltora nəzərən 0,5 m/san sürətlə bərabərsürətli hərəkət edir. Sərnişinin Yerlə bağlı hesablama sistemində sürətinin modulunu hesablayın.

A) 0,2 m/san B) 0,3 m/san C) 0,4 m/san
D) 0,5 m/san E) 0,8 m/san

63. Yerin öz oxu ətrafında fırlanma periodunun zamandan asılılıq qrafiki hansıdır?



64. Çevrə üzrə bərabərsürətli hərəkət edən cismin xətti sürəti 2 m/san, mərkəzəqaçma təcili isə 8 m/san² olarsa, bucaq sürətini hesablayın.

A) 0,25 rad/san B) 0,5 rad/san C) 2 rad/san
D) 4 rad/san E) 16 rad/san

65. Mayenin kütləsinin həcmindən asılılıq qrafiki verilmişdir. Bu mayenin sıxlığını hesablayın.



A) 0,8 q/sm³
B) 1,25 q/sm³
C) 4 q/sm³
D) 10 q/sm³ E) 20 q/sm³

66. F_3 qüvvəsinin hansı qiymətində 5 kq kütləli cisim 1 m/san² təcillə düzxətli bərabəryavaşıyan hərəkət edər (sürtünmə nəzərə alınmır)?



A) 5 N B) 10 N C) 15 N D) 20 N E) 25 N

67. Yer səthindən şaquli yuxarı atılmış cismin ilk 2 san ərzində yerdəyişməsi 80 m olmuşdur. Bu cismin maksimal qalxma hündürlüyünü hesablayın (havanın müqaviməti nəzərə alınmır, g = 10 m/san²).

A) 60 m B) 100 m C) 120 m
D) 125 m E) 165 m

68. Yer səthində cismə təsir edən ağırlıq qüvvəsi 180 N-dur. Yer səthindən $h=2R_y$ hündürlükdə bu cismə təsir edən ağırlıq qüvvəsinin qiymətini hesablayın (R_y–Yerin radiusudur).

A) 20 N B) 36 N C) 45 N D) 90 N E) 180 N

69. Cisimlər arasındakı və cisim ilə üfüqi səth arasındakı sürtünmə əmsalı μ olarsa, aşağıdakı cismi dartıb çıxarmaq üçün tətbiq olunan minimal qüvvə nəyə bərabərdir?



A) 2 μmg B) 3 μmg C) 5 μmg
D) 7 μmg E) 8 μmg

70. Sərtliyi 400 N/m olan çəkisiz yaydan asılmış 2 kq kütləli cisim 2 m/san² təcillə şaquli yuxarı istiqamətdə qaldırılır. Yayın uzanmasını hesablayın (g = 10 N/kq).

A) 2 sm B) 4 sm C) 6 sm
D) 5 sm E) 8 sm

71. Sürüşmə sürtünmə qüvvəsinin modulu cismin səthə göstərdiyi təzyiq qüvvəsinin modulundan 5 dəfə az olarsa, sürtünmə əmsalını hesablayın.

A) 0,1 B) 0,2 C) 0,25 D) 0,3 E) 0,5

72. Şaquli istiqamətdə aşağı hərəkət edən liftin sürətinin modulunun zamandan asılılıq qrafiki verilmişdir. Bu liftdəki sərnişinin çəkisinin zamandan asılılıq qrafiki hansıdır?



A)


B)


C)


D)


E)


73. Üfüqi səth üzrə düzxətli hərəkət etdirilən 10 kq kütləli cismin təcilinin ona təsir edən üfüqi istiqamətdə yönəlmiş dartı qüvvəsindən asılılıq qrafiki verilmişdir. Qrafikdə K nöqtəsinə uyğun dartı qüvvəsinin modulunu hesablayın (g= 10 m/san²).



A) 40 N B) 50 N C) 60 N D) 80 N E) 90 N

74. Çəkisiz ling tarazlıqdadır. T=60 N olarsa, F_2 qüvvəsinin qiymətini hesablayın (bölgülər bərabərdir).



A) 10 N B) 15 N
C) 20 N D) 40 N
E) 50 N

75. Hansı kürəcik dayanıqlı tarazlıq halındadır?

A) yalnız 1 B) 1 və 2 C) 2 və 3
D) yalnız 3 E) 1 və 3

76. Qüvvə impulsunun vahidinin BS-də əsas vahidlərlə ifadəsi hansıdır?

A) $\frac{kq \cdot m^2}{san^3}$ B) $\frac{kq \cdot m^2}{san^2}$ C) $\frac{kq \cdot m}{san^3}$
D) $\frac{kq \cdot m}{san^2}$ E) $\frac{kq \cdot m}{san}$

77. Cismin sürət və təcil vektorları təsvir edilmişdir. Bu cismin impulsu ($\vec{p}$) və cismə təsir edən qüvvələrin əvəzləyicisi ($\vec{F}$) hansı istiqamətdə yönəlir?





78. Cismin impulsunun modulunun zamandan asılılıq qrafiki verilmişdir. 1, 2 və 3 nöqtələrinə uyğun əvəzləyici qüvvənin modulları arasındakı hansı münasibət doğrudur?



A) $F_1<F_2<F_3$ B) $F_1>F_2>F_3$ C) $F_1=F_2=F_3$
D) $F_1<F_2=F_3$ E) $F_1>F_2=F_3$

79. $\frac{N \cdot t}{s}$ ifadəsi ilə hansı fiziki kəmiyyət təyin olunur (N–güc, t–zaman, s–yerdəyişmənin moduludur)?

A) qüvvə B) sürət C) təcil
D) impuls E) enerji

80. Hansı cihazlardan istifadə edərək ağırlıq qüvvəsinin işini təyin etmək olar?

1. ölçü lenti *2. menzurka* *3. dinamometr*

A) 1 və 2 B) 1 və 3 C) yalnız 1
D) 2 və 3 E) yalnız 3

81. Yalnız sabit sürtünmə qüvvəsinin təsiri ilə düzxətli hərəkət edən cismin kinetik enerjisinin sürtünmə qüvvəsinin işindən asılılıq qrafiki hansıdır?

A) 

B) 

C)

D) 

E) 

82. x oxu boyunca hərəkət edən iki cismin sürət-zaman tənliklərinə əsasən Eyler-Venn diaqramında uyğun ifadələri müəyyən edin.

$\vartheta_{1x}=20-5t$ (m/san) $\vartheta_{2x}=-20+5t$ (m/san)



1. ilk 4 san ərzində cisim bərabəryavaşıyan hərəkət edir
2. təsir edən əvəzləyici qüvvə x oxu istiqamətində yönəlir
3. təsir edən əvəzləyici qüvvə x oxunun əksi istiqamətdə yönəlir
4. cismin sürəti hər saniyədə 5 m/san qədər dəyişir

	I	II	III
A)	3	2	1, 4
B)	2	3	1, 4
C)	2	1, 4	3
D)	1	2, 3	4
E)	3, 4	2	1

83. Açar sözlərdən müəyyən ardıcıllıqla istifadə edərək, mətni tamamlayın.

Açarsözlər: *1–sıfıra bərabərdir; 2–artır; 3–dəyişmir; 4–müsbətdir; 5–mənfidir; 6–azalır.*

Ağırlıq qüvvəsinin gördüyü iş müsbət olduqda cismin potensial enerjisi _____, mənfi olduqda cismin potensial enerjisi _____, sıfıra bərabər olduqda isə _____. Yerdəyişmə vektoru ilə iti bucaq əmələ gətirən qüvvənin gördüyü iş _____. Yerdəyişmə vektoru ilə kor bucaq əmələ gətirən qüvvənin gördüyü iş _____. Yerdəyişmə vektoruna perpendikulyar olan qüvvənin gördüyü iş _____.

84. Qatar 60 km yolu 1 saat, sonrakı 240 km yolu isə 3 saat ərzində getmişdir. Bütün yolda qatarın orta sürətini km/saat ilə hesablayın.

GÜVƏN

85. x oxu boyunca hərəkət edən 4 kq kütləli cismin koordinat-zaman tənliyi $x = 8 + 5t$ (m) şəklindədir. Bu cismin kinetik enerjisini C ilə hesablayın.

86. Hansı ifadələr doğrudur?
Mail müstəvi səth üzrə sabit sürətlə sürüşən cismin Yer səthinə çatana qədər:



Yer səthi

1. potensial enerjisi azalır
2. potensial enerjisi dəyişmir
3. kinetik enerjisi artır
4. kinetik enerjisi dəyişmir
5. tam mexaniki enerjisi azalır
6. tam mexaniki enerjisi dəyişmir

87. Uyğunluğu müəyyən edin.
Cisim sabit F qüvvəsinin təsiri ilə üfüqi səth üzrə düzxətli bərabərsürətli hərəkət edir (μ=const).



1. F qüvvəsinin
2. ağırlıq qüvvəsinin
3. sürtünmə qüvvəsinin
gördüyü işin zamandan asılılığına uyğun qrafiki müəyyən edin.



Sizə təqdim olunan situasiyanı diqqətlə oxuyun. Burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Uzanmayan çəkisiz iplər vasitəsilə bloklardan asılmış iki cisim tarazlıqdadır (şəkil 1). Bir müddət sonra dayaq kənar-laşdırılaraq cisimlər sərbəst buraxılır (şəkil 2) (blokların çəkisi və blokların oxunda sürtünmə nəzərə alınmır, $g = 10$ m/san^2, $m_1 = m_2 = 4$ kq).



Yer səthi
şəkil 1



Yer səthi
şəkil 2

88. Dayaq kənarlaşdırıldıqdan sonra m_1 cisminin necə hərəkət etdiyini yazın (cavabınızı əsaslandırın).

89. Dayaq kənarlaşdırıldıqdan sonra ilk 2 san ərzində m_1 cisminin getdiyi yolu hesablayın (cavabınızı əsaslandırın).

90. Dayaq kənarlaşdırıldıqdan sonra ilk 2 san ərzində m_2 cisminin kinetik enerjisinin zamandan asılılıq qrafikini çəkin. Qrafiki asılılıqda 2-ci saniyənin sonuna uyğun kinetik enerjinin qiymətini yazın (qrafiki asılılıqda kinetik enerjini C, zamanı san ilə ifadə edin).

SINAQ 9

BİOLOGİYA

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

1. Sarı cisim və cift haqqında ortaq mülahizəni müəyyən edin.
A) qadın cinsiyyət hormonları hazırlayır
B) partlamış follikulun yerində yaranır
C) göbək ciyəsi vasitəsilə dölə birləşir
D) uşaqlıq borusunda əmələ gəlir
E) aybaşı tsiklinin sarı cisim fazasında yaranır

2. Cədvələ əsasən söyləmək olar:

Canlı	İnkişafında	
	sürfə mərhələsi	*pup mərhələsi*
X	olur	olmur
Y	olur	olur
Z	olmur	olmur

A) X düzünə inkişaf tipinə malik canlıdır.
B) Y tor vəzilərinə malik canlı ola bilər.
C) Z canlısının inkişafı tam çevrilmə ilə gedir.
D) X qanadsız həşərat ola bilər.
E) Y canlısının inkişafı qeyri-tam çevrilmə ilə gedir.

3. Cədvəldə X-in yerinə yazıla bilər:

Canlı	Döş qəfəsi	Göz qapağı	Qəlsəmə qapağı
X	+	+	–

A) göl qurbağası B) zolaqlı kərtənkələ
C) xanı balığı D) boz akula
E) suilanı

4. İnsanın öd kisəsindəki öd ilk olaraq həzm kanalının hansı hissəsində olur?
A) onikibarmaq bağırsaqda B) qida borusunda
C) ağız boşluğunda D) acı bağırsaqda
E) qaraciyərdə

5. Xaçlı hörümçəyin qarıncığında ***yerləşmir***.
1. pedipalp 2. zəhər vəzisi 3. ürək
4. ağciyər 5. traxeya 6. xelisер
A) 2, 3, 5 B) 3, 4, 5 C) 2, 3, 6
D) 1, 4, 6 E) 1, 2, 6

6. İnsanın ürək tsiklinin şəkildə verilmiş fazası haqqında ***səhv*** mülahizələri seçin.

1. qan arteriya damarlarına qovulur
2. aypara qapaqlar açıq olur
3. mədəciklərin diastolası baş verir
4. qan mədəciklərdən qulaqcıqlara keçir
5. taylı qapaqlar bağlı olur
6. qulaqcıqların sistolası baş verir
A) 1, 4, 6 B) 3, 4, 6 C) 2, 3, 5
D) 3, 5, 6 E) 1, 2, 4

7. Paleozoy erasının daş kömür dövrünə aid su ekosistemlərində ola ***bilməzdi***:
A) qığırdaqlı balıqlar B) molyusklar
C) trilobitlər D) pəncəüzgəcli balıqlar
E) əsl sümüklü balıqlar

8. Göl qurbağasının üzmə pərdələrinin sayını n, barmaqlarının sayını m qəbul etsək, hansı ifadəni düzgün hesab etmək olar?
A) n = m B) n > m C) 2n > m
D) 2n < m E) n = m/2

9. Şəkildəki görmə qüsuru olan:



A) insanda əşyanın xəyalı torlu qişadan arxada alınır
B) insan uzağı yaxşı görmür
C) insanda anadangəlmə göz alması qısa olur
D) insanda büllurun qabarıqlığı zəifləmiş olur
E) insanda büllurun bulanması ilə əlaqədar olaraq görmə zəifləyir

10. İnsanın 5 litr qanındakı nüvəli rəngsiz hüceyrələrin minimal sayını hesablayın.
A) 4 milyard B) 10 milyard
C) 50 milyard D) 750 milyard
E) 20 milyard

11. Atomların ikinci növ biogen miqrasiyasını həyata keçirən canlıların heç birində baş verə ***bilməz***:
A) fotosintez B) translyasiya C) xemosintez
D) transkripsiya E) sitokinez

12. İnsan orqanizmində hansının sayı daha çoxdur?
A) ağciyərlərdəki alveolların
B) 1 mm^3 qandakı trombositlərin
C) böyrəklərdəki nefronların
D) 1 mm^3 qandakı eritrositlərin
E) baş beyin yarımkürələri qabığındakı neyronların

13. Uyğunluğu müəyyən edin.



a. ağciyərlərin həyat tutumu b. əlavə hava
c. qalıq hava d. ehtiyat hava
A) 1-d, 2-c, 3-a, 4-b B) 1-b, 2-d, 3-c, 4-a
C) 1-b, 2-c, 3-d, 4-a D) 1-a, 2-b, 3-d, 4-c
E) 1-d, 2-b, 3-c, 4-a

14. Müdafiə reflekslərinə aid ***deyil***:
A) qusma B) asqırma C) çeynəmə
D) öskürmə E) göz qırpma

15. İnsan skeletində onurğa sütununun boyun şöbəsi neçə sümüklə bilavasitə birləşmə əmələ gətirir?
A) 2 B) 3 C) 4 D) 7 E) 1

16. Cədvəldəki ***uyğunsuzluğu*** müəyyən edin.

A)	Uşaqlıq boynu uşaqlıqla uşaqlıq yolu arasında yerləşir.	*doğru*
B)	Yumurta hüceyrə yumurtalıqdan bilavasitə uşaqlıq yoluna düşür.	*yanlış*
C)	Rüşeymin ilkin inkişafı uşaqlıq borusunda baş verir.	*doğru*
D)	Follikula ovulyasiyadan sonra əmələ gələn xarici sekresiya vəzisidir.	*yanlış*
E)	Yumurta hüceyrə uşaqlıq yolu ilə uşaqlığa tərəf hərəkət edir.	*doğru*

17. Əgər mitoz bölünmənin ilk fazasında hüceyrədəki xromosom sayı n-dirsə, metafazada bu xromosomlarda cəmi neçə DNT zənciri olar?
A) 2n B) 4n C) 8n D) n E) 16n

18. Sifoid meduzaları sinfinə aid bentos canlı:
A) aktiniya B) stavromeduza C) aureliya
D) hidra E) anadonta

19. Bir ailədə ata sağlam, ana hemofiliya daşıyıcısıdır. Onların üç uşağından ikisi sağlam, biri hemofiliyalıdır.
Verilənlərə əsasən ***səhv*** fikirləri seçin.
1. sağlam uşaqlardan biri qız, biri isə oğlan ola bilər
2. hemofiliyalı uşaq qız ola bilər
3. bu ailədə hemofiliya daşıyıcısı olan qız uşağı doğula bilər
4. sağlam uşaqlar oğlan ola bilməz
5. bu ailədə hemofiliya daşıyıcısı olan oğlan uşağı doğula bilməz
A) 2, 4 B) 3, 5 C) 1, 2, 3 D) 1, 4 E) 2, 5

20. İnsan orqanizmində yaranan bəzi bioloji fəal maddələrin məlumatın daha yaxşı yadda saxlanılmasına səbəb olduğu, hislər yaddaşı da adlandırılan yaddaş növü hansıdır?
A) hərəkət yaddaşı B) emosional yaddaş
C) ani yaddaş D) söz yaddaşı
E) obrazlı yaddaş

21. Eyler-Venn diaqramına əsasən düzgün bəndi müəyyən edin.



1. arahiq sahibinə yumurta mərhələsində daxil olur
2. biohelmintdir
3. dəri-əzələ kisəsinə sahibdir
4. geohelmintdir
5. əsas sahibinə sista mərhələsində daxil olur

	X	Y	Z
A)	1, 2	3	4, 5
B)	2	1, 3	4
C)	1	2, 3	5
D)	3, 4	1	2, 5
E)	1	3, 4	5

22. Homo sapiensə aid bütün sağlam fərdlərdə eyni olur:
A) somatik hüceyrələrin bir nüvəsindəki X cinsiyyət xromosom sayı
B) qandakı ağ qan hüceyrələrinin sayı
C) bədən kütləsi və ölçüsü
D) ürəkdəki kameraların sayı
E) gözün qüzehli qişasındakı piqmentlərin miqdarı

23. Nöqtələrin yerinə uyğun gələn ifadələrin düzgün ardıcıllığını müəyyən edin.
İnsanın ağciyərlərində qazlar mübadiləsi getdikdən sonra ..... qan ürəyin ..... qayıdır.
1. venoz
2. sağ qulaqcığına
3. sol qulaqcığına
4. arterial
5. sağ mədəciyinə
6. sol mədəciyinə

24. Zolaqlı kərtənkələdə olur:
1. qabırğaarası əzələlər
2. bir-birinə qovuşmuş şəffaf göz qapaqları
3. dişlər
4. haçalanmış əzələli dil
5. sümük pulcuqlarla örtülmüş dəri
6. quyruq fəqərələri

25. Cədvələ əsasən X + Y + Z cəmini hesablayın.

Xanı balığında	
fəqərələrin maksimal sayı	X
üzgəclərin sayı	Y
quyruq fəqərələrinin sayı	12
qabırğaların maksimal sayı	Z

26. Düzgün fikirləri seçin.
Ribosomlarının fəaliyyəti artmış heyvan hüceyrəsində:
1. ATF miqdarı azalar
2. aminturşuların sintezi artar
3. fermentlərin miqdarı azalar
4. polipeptid zəncirlərin sayı artar
5. sərbəst aminturşuların miqdarı azalar

27. Uyğunluğu müəyyən edin.



a. inkişafında sürfə mərhələsi olmur
b. ağzı yoxdur
c. sürfələri balıqların dərisinə yapışaraq parazitlik edir
d. mantiya boşluğuna malikdir
e. ürək boşluğunda arterial qan olur

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Cədvəldə 22 yaşlı insanın ağız boşluğundakı fərqli növ dişlər və onların sayı verilmişdir.

Dişlər			
K	L	M	N
4 ədəd	*x*	*8 ədəd*	*y*

28. K, L, M və N hərfləri ilə müvafiq olaraq hansı növ dişlər qeyd olunmuşdur?

29. Bu diş növlərini (K, L, M, N) aşağıdakı cədvəldə verilmiş rəqəmlərlə uyğunlaşdırın.

I	fərdi inkişaf zamanı yalnız bir dəfə çıxır
II	üst yarım çənədə sayı iki ədəddir
III	öz diş növü ilə qonşu ola bilməz
IV	hər iki tərəfdən öz diş növü ilə qonşu ola bilər

30. Alt çənədəki K və L dişlərinin sayının cəmi ağız boşluğundakı dişlərin ümumi sayının neçə faizini təşkil edir? (həllini yazın)

KİMYA

Mövzular üçün *Video həlli üçün* *Cavablar üçün*

31. 50 q mis kuporosunu 238 ml suda tam həll etdikdən müəyyən müddət sonra məhluldakı suyun yarısı buxarlandırılmışdır. Alınan məhlulda mis(II) sulfatın kütlə payını (%) hesablayın.
$M_r(CuSO_4)=160$, $M_r(CuSO_4 \cdot 5H_2O)=250$
A) 25 B) 10 C) 35 D) 20 E) 40

32.

Məhlul	Həll olan maddə	Cl^- ionlarının mol sayı
400 ml 0,5 M	$FeCl_3$	n
300 ml a M	$FeCl_2$	n

a-nı müəyyən edin. $\alpha(FeCl_3, FeCl_2)=100\%$
A) 1 B) 2 C) 3 D) 0,5 E) 0,4

33.

Duz	Hidrolizin tipi
X	Kationa görə
Y	Aniona görə
Z	

X, Y və Z-i müəyyən edin.

	X	Y	Z
A)	$AgNO_3$	Na_3PO_4	$(NH_4)_2CO_3$
B)	$CuSO_4$	$(NH_4)_2CO_3$	$AgNO_3$
C)	Na_3PO_4	$AgNO_3$	K_2CO_3
D)	$CuCl_2$	$(NH_4)_2S$	Na_3PO_4
E)	$CaCO_3$	K_2CO_3	$CuSO_4$

34.

Element	Nisbi atom kütləsi	Proton sayı
X	64	29
Y	65	30

X və Y elementləri üçün eyni olan nədir?
1. Tək elektronların sayı 2. Neytronların sayı
3. d-elektronların sayı 4. p-elektronların sayı
5. s-elektronların sayı
A) 1, 2, 4 B) yalnız 3, 4 C) 2, 3, 4
D) 1, 3, 5 E) yalnız 4, 5

35.



Müəyyən şəraitdə hansı reaksiyalar gedir?
A) yalnız I B) yalnız II C) I, II
D) I, III E) II, III

36.

Karbohidrogen	Molekulunda C–C s-rabitələrin sayı	1 molunun tam yanmasına sərf olunan O_2-nin kütləsi, q
Tsikloalkan	$n+1$	a

a-nı müəyyən edin. $A_r(O)=16$
A) $\frac{3n+2}{2}$ B) $\frac{3n}{2}$ C) $48n+48$
D) $32n+32$ E) $\frac{3n+3}{2}$

37.

Karbon turşusu	Molekulunda	
	karbon atomlarının sayı	karbon atomlarında hibrid orbitallarının sayı
X	a	n
Y	a	$n-4$
Z	a	$n-2$

X, Y və Z müəyyən edin.

	X	Y	Z
A)	palmitin	stearin	linol
B)	stearin	linol	olein
C)	stearin	olein	linol
D)	olein	stearin	linolen
E)	palmitin	linol	olein

38. Dəyişmə reaksiyasının tənliyini göstərin.
A) $Cu(OH)_2 \xrightarrow{t} CuO + H_2O$
B) $2NaI + Cl_2 \longrightarrow 2NaCl + I_2$
C) $2Mg + SiO_2 \xrightarrow{t} 2MgO + Si$
D) $K_2O + 2HCl \longrightarrow 2KCl + H_2O$
E) $CaCO_3 + SiO_2 \xrightarrow{t} CaSiO_3 + CO_2$

39. Hansı birləşmənin molekulunda σ (siqma)-rabitələrin sayı π (pi)-rabitələrin sayından 3 dəfə çoxdur?

A) C_2H_4 B) CO_2 C) CH_2O
D) C_2H_2 E) N_2

40.

Maddə	Aminturşunun molekulunda olan atomların ümumi sayı	Aminturşudan əmələ gələn tripeptid molekulunda olan atomların ümumi sayı
Monoamin-monokarbon turşusu	10	*a*

a-nı hesablayın.

A) 24 B) 30 C) 39 D) 33 E) 17

41.

Maddə	Mol miqdarı	Reaksiyaya daxil olduğu hidrogenin mol miqdarı	Alınan maddənin daxil olduğu sinfin ümumi formulu
Metanal	1	1	a
Vinilasetilen	1	2	b
Benzol	1	3	c

a, b və c-ni müəyyən edin.

	a	b	c
A)	$C_nH_{2n+1}OH$	C_nH_{2n}	C_nH_{2n-6}
B)	$C_nH_{2n}O_2$	C_nH_{2n}	C_nH_{2n}
C)	$C_nH_{2n+1}OH$	C_nH_{2n-2}	C_nH_{2n+2}
D)	$C_nH_{2n}O_2$	C_nH_{2n+2}	C_nH_{2n-6}
E)	$C_nH_{2n+1}OH$	C_nH_{2n}	C_nH_{2n}

42. Doymuş birəsaslı karbon turşusunun əmələ gətirdiyi və ümumi formulu $C_nH_{2n+1}COONa$ olan duzda $n=2$ olarsa, duzun nisbi molekul kütləsini hesablayın.

$A_r(C)=12, A_r(O)=16, A_r(H)=1, A_r(Na)=23$

A) 96 B) 74 C) 68 D) 54 E) 82

43.



X, Y və Z maddələrinin molekullarında ikili karbon atomlarının ümumi sayını hesablayın.

A) 8 B) 3 C) 4 D) 6 E) 10

44. *1. Suda həll olur*
2. Hidrolizə uğrayır
3. "Gümüş-güzgü" reaksiyasına daxil olmur

Verilmiş xassələrə uyğun gələn karbohidratı müəyyən edin.

A) nişasta B) sellüloza C) qlükoza
D) dezoksiriboza E) saxaroza

45.

Doymuş aldehidin kütləsi, q	Artıq miqdarda H_2 ilə tam reaksiyasından alınan spirtin kütləsi, q
108	111

Alınan spirti müəyyən edin. $A_r(C)=12, A_r(O)=16$, $A_r(H)=1$

A) $CH_3-\underset{\underset{OH}{|}}{CH}-CH_3$

B) $CH_3-\underset{\underset{CH_3}{|}}{CH}-CH_2-OH$

C) $CH_3-CH_2-CH_2-OH$

D) $CH_3-\underset{\underset{OH}{|}}{CH}-CH_2-CH_3$

E) $CH_3-CH_2-CH_2-CH_2-CH_2-OH$

46.

Maddələr	Molekulunda hidroksil qruplarının sayı
Fruktoza	*n*
Riboza	x

x-i müəyyən edin.

A) $n+1$ B) $n+2$ C) n
D) $n-1$ E) $n-2$

47.



Həcmi 2 *l* olan qabda baş verən reaksiya zamanı maddələrin mol sayının (ν) zamandan (τ) asılılıq qrafiki verilmişdir. Qrafikəəsasən, tarazlıqsabitinin qiymətini müəyyən edin.

A) 4 B) 2 C) 1 D) 0,8 E) 0,5

48. Hansı maddəyə uyğun xassə ***yanlış*** verilmişdir?

	Maddə	Xassə
A)	Qliserin	Şirin dada malikdir
B)	Etilenqlikol	$Cu(OH)_2$ ilə reaksiyasından göy rəngli məhlul əmələ gəlir
C)	Metil spirti	$Cu(OH)_2$ ilə reaksiyaya daxil olur
D)	Natrium-asetat	NaOH ilə qızdırdıqda metan alınır
E)	Natrium-formiat	$Ag_{2O\text{-in}}$ ammonyakdakı məhlulu ilə reaksiyasından turş duz əmələ gəlir

49.

1. $H-C(=O)-O-H + CH_3O^{18}H \longrightarrow X + su$
2. $H-C(=O)-O^{18}-H + CH_3OH \longrightarrow Y + su$
3. $H-C(=O^{18})-O-H + CH_3OH \longrightarrow Z + su$

Reaksiyalardan alınan mürəkkəb efirlərin nisbi molekul kütlələrini müqayisə eləyin. $^{12}_{6}C$, $^{16}_{8}O$, $^{18}_{8}O$, $^{1}_{1}H$

A) X=Z<Y B) X=Z>Y C) Y>X>Z
D) Y=Z>X E) X>Z>Y

50. İzobutil spirti üçün hansı ifadələr doğrudur?
I. Üçlü spirtdir
II. Dietil efirinin izomeridir
III. Molekulunda asimmetrik karbon atomu var
A) yalnız III B) I, II C) yalnız II
D) I, III E) II, III

51.

Karbohidrat	Tərkibinə daxil olan monosaxarid qrupu	Makromolekulunun tam efirləşməsinə sərf olunan HNO_3-ün molekul sayı
Sellüloza	A	15000

Sellülozanın tam hidrolizindən əmələ gələn monosaxarid qrupunu (A) və onların sayını (n) müəyyən edin.

	A	n
A)	α-qlükoza	5000
B)	β-qlükoza	1500
C)	α-qlükoza	3000
D)	β-fruktoza	1500
E)	β-qlükoza	5000

52.

Alkan	Monoxlorlu törəmələrinin maksimum sayı
X	4

X-i müəyyən edin.
A) C_2H_6 B) C_3H_8 C) C_4H_{10}
D) C_5H_{12} E) C_6H_{14}

53. İzoprenin izomerlərini müəyyən edin.
1. pentin-1
2. 3-metilpentin-2
3. pentadien-1,3
4. heksadien-2,4
5. 2,3-dimetilbutadien-1,3

54.

Maddə	R_1	R_2	Maddənin adı	
$R_1-C(=O)-R_2$	CH_3	CH_3	dimetilketon	1
	CH_3	H	sirkə turşusu	2
	C_2H_5	C_2H_5	butanon	3
	H	H	formaldehid	4

Hansı hallarda maddələrin adları doğru verilmişdir?

55. Molyar kütləsi 75 q/mol olan aminturşusundan x q su ayrıldıqda 41 qram tetrapeptid alınır. x-i hesablayın. $M_r(H_2O)=18$

56.

Maddə	Molekulunda ümumi atom sayı	Reaksiyadan alınan üzvi maddə molekulunda ümumi atom sayı
Benzol	*a*	*a*

Cədvələ uyğun gələn reaksiyaları müəyyən edin.

1. $C_6H_6 + 3H_2 \xrightarrow{kat}$
2. $C_6H_6 + 6Cl_2 \xrightarrow{t,\ AlCl_3}$
3. $C_6H_6 + 3Cl_2 \xrightarrow{h\nu}$
4. $C_6H_6 + Br_2 \xrightarrow{t,\ FeBr_3}$
5. $C_6H_6 + HNO_3 \xrightarrow{t,\ H_2SO_{4(qatı)}}$

GÜVƏN

57. Uyğunluğu müəyyən edin.

Mürəkkəb efir molekulunda: $CH_3-\underset{\underset{CH_3}{|}}{CH}-CH_2-C(=O)-O-\underset{\underset{CH_3}{|}}{CH}-CH_3$	
1. Birli karbon atomlarının sayı	a. 1 b. 2 c. 3 d. 4 e. 5
2. İkili karbon atomlarının sayı	
3. Üçlü karbon atomlarının sayı	

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Laboratoriyada müəllim şəkildə göstərilmiş qablardakı məhlullardan müəyyən müddət ərzində sabit elektrik cərəyanı keçirdikdən sonra I qabdakı məhlulun kütləsinin 72 q azaldığını, II qabdakı məhlulun kütləsinin isə 135 q azaldığını şagirdlərə bildirdi. Şagirdlər elektroliz zamanı elektrodlardan qaz qabarcıqlarının ayrılmasını da müşahidə etdilər. Ən sonda I qabda olan məhlulun qatılığının II qabda olan məhlulun qatılğından 1,25 dəfə çox olduğu məlum oldu.



58. Hər iki qabdan ayrılan qazların formullarını yazın.

59. Hər iki qabda elektroliz edilmiş duzlar üçün reaksiyaların tənliklərini yazın və əmsallaşdırın.

60.

Məhlullar	Elektroliz-dən əvvəl	Elektroliz-dən sonra
I qabda olan məhlulun qatılığı (%)	16	x
II qabda olan məhlulun qatılığı (%)	a	b

a, *b* və x-in qiymətlərini (%) hesablayın. $A_r(H)=1$, $A_r(O)=16$, $A_r(Cl)=35,5$, $M_r(CuCl_2)=135$
(Hesablama prosesini cavab kağızında aydın şəkildə yazın)

FİZİKA

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

61. Düzxətli hərəkət edən iki cismin hərəkət tənliyi uyğun olaraq $x_1 = 60 - 4t$ (m) və $x_2 = 9_2t + 10$ (m) şəklindədir. Görüşənə qədər birinci cisim 20 m yol gedərsə, ikinci cismin sürətinin x oxu üzrə proyeksiyasını hesablayın.
A) 4 m/san B) 5 m/san C) 6 m/san
D) 8 m/san E) 12 m/san

62. Saatın saniyə əqrəbinin dövrlər sayının zamandan asılılıq qrafiki hansıdır?

A) 

B) 

C) 

D) 

E) 

63. Kütlələri m_1=30 q və m_2=150 q olan iki cismin qarşılıqlı təsiri zamanı aldıqları təcillər arasındakı fərq 8 m/san² olarsa, ikinci cismin təcilinin qiymətini hesablayın.
A) 1,6 m/san² B) 2 m/san² C) 4 m/san²
D) 9,6 m/san² E) 10 m/san²

64. Ay radiusundan böyük məsafədən sərbəst düşən cisim Ayın səthinə çatana qədər necə hərəkət edir?
A) düzxətli bərabərsürətli
B) düzxətli bərabərtəcilli
C) azalan təcillə yeyinləşən
D) artan təcillə yeyinləşən
E) əvvəlcə bərabəryeyinləşən, sonra bərabərsürətli

65. Qiymətləri $F_1 = 6$ N və $F_2 = 10$ N olan iki qüvvənin təsiri ilə üfüqi istiqamətdə dartılan 5 kq kütləli cisim sükunətdədir. Cismə təsir edən sükunət sürtünmə qüvvəsinin modulunu hesablayın.



A) 34 N B) 16 N C) 10 N D) 4 N E) 0

66. Tarazlıqda olan çəkisiz ling qüvvədə 3 dəfə qazanc verir. F qüvvəsinin modulunu hesablayın.
A) 6 N B) 8 N
C) 9 N D) 12 N
E) 18 N



67. Rezin çubuğun deformasiya olunmamış və elastiki deformasiya olunmuş vəziyyətləri təsvir olunmuşdur. F=200 N olarsa, elastiki deformasiya olunmuş rezin çubuğun potensial enerjisini hesablayın (rezin çubuğun çəkisi nəzərə alınmır).

A) 1C B) 2C C) 4C D) 8C E) 9C

68. Rəqs amplitudu 6 sm, rəqs periodu 3 san olan rəqqasın sürətinin amplitud qiymətini hesablayın (π=3).
A) 0,5 sm/san B) 2 sm/san C) 9 sm/san
D) 12 sm/san E) 18 sm/san

69. Suda üzən taxta parçasının suyun üzərində qalan hissəsinin həcmi 4 dm³ olarsa, taxta parçasına təsir edən Arximed qüvvəsinin modulunu hesablayın (ρ_{taxta} = 800 kq/m³, ρ_{su} = 1000 kq/m³, g = 10 N/kq).
A) 40 N B) 120 N C) 160 N
D) 200 N E) 320 N

70. Verilmiş kütləli ideal qaz üzərində gedən hansı proses izoxor qızmaya uyğundur (p – qazın təzyiqi, n – qaz molekullarının konsentrasiyasıdır)?



A) 1–2 B) 1–3
C) 1–4 D) 1–5 E) 1–6

71. İdeal qazın izobar genişlənməsi zamanı daxili enerjisinin dəyişməsi hansı ifadə ilə təyin olunur (p – qazın təzyiqi, V – qazın həcmidir)?
A) $\frac{5}{2}p\Delta V$ B) $\frac{5}{2}V\Delta p$ C) $p\Delta V$
D) $\frac{3}{2}V\Delta p$ E) $\frac{3}{2}p\Delta V$

72. İstilik mühərrikinin soyuducuya verdiyi istilik miqdarı gördüyü faydalı işdən 1,5 dəfə çoxdur. Bu mühərrikin FİƏ-ni faizlə hesablayın.

A) 20% B) 40% C) $33\frac{1}{3}$%

D) 30% E) $66\frac{2}{3}$%

73. Müsbət yüklü zərrəcik intensivlik xətləri istiqamətində bircins elektrik sahəsinə daxil olur. Elektrik sahəsinin bu zərrəcik üzərində gördüyü işin zamandan asılılıq qrafiki hansıdır (digər təsirləri nəzərə almayın)?



74. Şərti işarələrlə göstərilmiş hansı cihaz elektrik yükünü toplamaq üçün istifadə olunur?



75. Verilmiş müstəvi kondensatorun lövhələri arasındakı gərginliyi 2 dəfə azaltdıqda onun elektrik sahəsinin enerjisi necə dəyişər?

A) 4 dəfə azalar B) 2 dəfə azalar
C) dəyişməz D) 4 dəfə artar
E) 2 dəfə artar

76. Verilmiş elektrik sxemində K açarını qapadıqda hansı lampalar işıqlanar?



A) 1 və 3 B) 1 və 4 C) 2 və 3
D) 2 və 4 E) heç biri

77. Gərginliyin sabit qiymətində verilmiş metal naqildən keçən cərəyan şiddətinin temperaturdan asılılıq qrafiki hansıdır?



78. Voltmetrin göstəricisi 18 V olarsa, mənbəyin EHQ-ni hesablayın.

A) 12 V B) 18 V
C) 24 V D) 30 V
E) 36 V



79. Bircins maqnit sahəsi tərəfindən cərəyanlı naqilə təsir edən Amper qüvvəsi hansı istiqamətdə yönəlir?

A) → B) ←
C) ↙ D) ↑ E) ↓

80. Konturla hüdudlanmış səthdən keçən maqnit seli $\Phi=20-3t^2$ (Vb) qanunu ilə dəyişir. İkinci saniyənin sonunda konturda yaranan induksiya EHQ-ni hesablayın.

A) 4 V B) 6 V C) 8 V D) 12 V E) 20 V

81. $\frac{Vt}{m^2}$ ifadəsi hansı fiziki kəmiyyətin vahidinə uyğundur?

A) elektrik sahəsinin intensivliyinin
B) maqnit sahəsinin induksiyasının
C) şüalanmanın gücü
D) enerji sıxlığının
E) şüalanma seli sıxlığının

82. Ampermetr və voltmetr üçün Eyler-Venn diaqramında uyğun ifadələri müəyyən edin.



1. işlədiciyə ardıcıl qoşulur
2. işlədiciyə paralel qoşulur
3. iş prinsipi maqnit sahəsinin cərəyanlı naqilə təsirinə əsaslanır
4. müqaviməti işlədicinin müqavimətindən çox kiçik olduğundan birbaşa cərəyan mənbəyinin qütblərinə qoşmaq olmaz

	I	II	III
A)	1	4	2, 3
B)	1, 4	2	3
C)	2, 3	4	1
D)	1	3	2, 4
E)	2, 4	1	3

83. Açar sözlərdən uyğun ardıcıllıqla istifadə edərək, mətni tamamlayın.

Açar sözlər: 1 – Rəqs periodu, 2 – Rəqs amplitudu, 3 – Rəqqasın yerdəyişməsi, 4 – Rəqs tezliyi, 5 – Dalğa uzunluğu

_____ – onun tarazlıq vəziyyətindən ixtiyari uzaqlaşdığı məsafədir. _____ – onun tarazlıq vəziyyətindən ən çox (maksimum) uzaqlaşdığı məsafədir. _____ – bir rəqs periodu müddətində dalğanın yayıldığı məsafədir. _____ – bir tam rəqsə sərf olunan zamandır. _____ – bir saniyədə baş verən rəqslərin sayıdır.

84. q_1 və q_2 yüklərindən müxtəlif məsafələrdə olan nöqtələrdə hər bir yükün yaratdığı elektrik sahəsinin intensivlik vektorları təsvir olunmuşdur ($E_1 = E_2$). Bu yüklərin işarələri və ədədi qiymətləri üçün hansı münasibətlər doğrudur?



1. $q_1 > 0$ 2. $q_1 < 0$ 3. $q_2 > 0$
4. $q_2 < 0$ 5. $|q_1| < |q_2|$ 6. $|q_1| > |q_2|$

85. Yerdən göndərilən radiosiqnal təyyarədən əks olunaraq 12 mksan sonra radiolokatora qayıdır. Radiolokatordan təyyarəyə qədər olan məsafəni m ilə hesablayın ($c = 3 \cdot 10^8$ m/san).

86. İnduksiyası 4 Tl olan bircins maqnit sahəsində qüvvə xətləri ilə 53° bucaq altında yerləşən 50 sm uzunluqlu naqildən axan cərəyan şiddəti 2A-dir. Maqnit sahəsi tərəfindən bu naqilə təsir edən qüvvəni N ilə hesablayın ($\cos 53° = 0{,}6$; $\sin 53° = 0{,}8$).

87. Uyğunluğu müəyyən edin.

Müsbət nöqtəvi yük bircins elektrik sahəsində

1. AB trayektoriyası üzrə
2. BC trayektoriyası üzrə
3. CA trayektoriyası üzrə

hərəkət etdirildikdə:

a. elektrik sahəsi mənfi iş görür
b. elektrik sahəsi müsbət iş görür
c. elektrik sahənin gördüyü iş sıfıra bərabərdir
d. yükün potensial enerjisi dəyişmir
e. yükün potensial enerjisi azalır

Sizə təqdim olunan situasiyanı diqqətlə oxuyun. Burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Manometrlə təchiz olunmuş qabda porşenin altındakı 30 °C temperaturlu 3 dm^3 doyan su buxarı var (şəkil 1). Porşeni tədricən yuxarı hərəkət etdirməklə əvvəlcə doyan su buxarı izotermik genişləndirilir. Porşenin altındakı buxarın həcmi 8 dm^3 olduqda qabdakı su tamamilə buxara çevrilir (şəkil 2).

Porşenin altındakı buxarın həcmi 12 dm^3 olduqda (şəkil 3) izotermik genişlənmə prosesi dayandırılır (30 °C temperaturda doyan su buxarının sıxlığı 30 q/m^3-dir).



şəkil 1



şəkil 2



şəkil 3

88. Prosesin başlanğıcında qabda olan suyun kütləsini mq ilə hesablayın.

89. Bütün bu prosesə uyğun (buxarın həcmi 3 dm^3-dən 12 dm^3-ə çatana qədər) su buxarının sıxlığının həcmdən asılılıq qrafikini çəkin (qrafikdə həcmin 3 dm^3, 8 dm^3 və 12 dm^3 qiymətlərinə uyğun su buxarının sıxlığının qiymət-lərini yazın).

90. Su buxarının həcmi 3 dm^3-dən 8 dm^3-ə çatana qədər manometrin göstəricisi sabit qalır. Daha sonra su buxarının həcmi 8 dm^3-dən 12 dm^3-ə çatana qədər manometrin göstəricisi azalır. Bütün prosesə uyğun manometrin göstəricisinin bu cür dəyişməsinin səbəbini yazın.

SINAQ 10

BİOLOGİYA

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

1. Sxemə əsasən doğru bəndi müəyyən edin.



A) 1 – yetkin fərdində rizoidlər olur
B) 2 – rütubətsevən bitkidir
C) 3 – toxumları ayaqcıq üzərində qutucuqda əmələ gəlir
D) 4 – ikievlidir
E) 5 – gövdəsi dik qalxır, budaqlanmır

2. Mətndə boşluqlara yazılmalıdır:
Ana bitkinin əlamətləri ..... üçün ..... çoxalma bağçılıqda geniş istifadə edilir. Bu üsulla ..... vaxt ərzində yeni bitkilər yetişdirmək mümkündür.

1. uzun	2. saxlanıldığı	3. vegetativ
4. toxumla	5. qısa	6. dəyişdiyi

A) 2, 4, 1 B) 2, 4, 5 C) 6, 4, 5
D) 6, 3, 1 E) 2, 3, 5

3. Kökümsovundan yaz və yay zoğları əmələ gələn ali sporlu bitkidir:
A) çöl qatırquyruğu B) erkək qıjı
C) ayrıqotu D) sfaqnum mamırı
E) sancaqşəkilli plaun

4. ***Yanlış*** fikri müəyyən edin.
Laminariya yosununun tallomu:
A) suyun dibinə rizoidlər vasitəsilə yapışır
B) sarımtıl-qonur rənglidir
C) xromatoforlara malikdir
D) bir cərgədə düzülmüş çoxlu yaşıl hüceyrələrdən ibarətdir
E) lentşəkillidir

5. Tozlanma forması verilmiş sxemə uyğun *olma.* *yan* bitkiləri seçin.

1. çəltik 2. lalə 3. astra 4. nozud
A) 1 və 3 B) 3 və 4 C) 1 və 4
D) 2 və 4 E) 1 və 2

6. Klasterdə sual işarəsinin yerinə yazıla bilər:



1. çoxçəyirdəkli meyvələr
2. birtoxumlu meyvələr
3. quru meyvələr
4. yalançı meyvələr
5. çoxtoxumlu meyvələr
A) 2, 5 B) 2, 3, 4 C) 1, 4, 5
D) 1, 3 E) 3, 5

7. Zəncirotu və dəvədabanı bitkilərinin toxumlarının yayılma forması müvafiq olaraq hansı bənddə doğru verilmişdir?
A) küləklə, su ilə
B) su ilə, heyvanlarla
C) öz-özünə, heyvanlarla
D) küləklə, heyvanlarla
E) küləklə, öz-özünə

8. Lobya toxumunun cücərməsi zamanı baş verən proseslərin düzgün ardıcıllığını müəyyən edin.
1. rüşeym kökcüyündən əsas kök inkişaf edir
2. toxum qabığı çatlayır
3. gövdəcik inkişaf edir
4. toxum suyu udaraq şişir
A) 2, 1, 4, 3 B) 4, 1, 3, 2 C) 2, 4, 1, 3
D) 4, 2, 1, 3 E) 3, 2, 4, 1

9. Sadə çiçək qrupu ***deyil***:



A) 1 və 3 B) 2 və 5 C) 2 və 3
D) 2 və 4 E) 1 və 4

10. Həm bitki, həm də heyvan mənşəli qidalarla qidalanan canlıların verildiyi sıranı müəyyən edin.
A) dovşan, sincab, maral
B) kirpi, meymun, qaban
C) keçi, qoyun, inək
D) kərkəs, siçan, kaftar
E) ceyran, birə, bəbir

11. Orqanizmin quruluş səviyyələrinin kiçikdən böyüyə doğru düzgün verildiyi bəndi müəyyən edin.
1. toxuma 2. orqanlar sistemi 3. orqan
4. orqanizm 5. hüceyrə
A) 5, 1, 3, 2, 4 B) 4, 2, 3, 1, 5
C) 2, 3, 4, 5, 1 D) 1, 5, 2, 3, 4
E) 5, 1, 3, 4, 2

12. Müəyyən bir ərazidəki yaşıl quşmamırı bitkilərində cəmi 136 qutucuq əmələ gəlmişdir. Bu bitkilərdə mayalanma prosesində bilavasitə neçə qamet iştirak etmişdir?
A) 68 B) 272 C) 544 D) 408 E) 34

13. Hansı rəqəmlərlə qeyd olunmuş sxemlər dolayı inkişafa aiddir?



A) 2, 4 B) 1, 3 C) 1, 4 D) 3, 4 E) 2, 3

14. Eyler-Venn diaqramında uyğun ifadələri qeyd edin.



1. Başlanğıc verəcəyi orqanda meyoz prosesi gedə bilər.
2. Yalnız yarpaq və tumurcuğa malik orqana başlanğıc verir.
3. Xaricdən tumurcuq pulcuqları ilə örtülmüşdür.
4. Başlanğıc verəcəyi orqanda mayalanma prosesi gedə bilər.

	I	*II*	*III*
A)	1	2, 3	4
B)	1, 4	2	3
C)	2	1, 4	3
D)	2, 4	3	1
E)	2	4	1, 3

15. Düzgün fikri müəyyən edin.
A) Küləklə yayılan bütün toxumlar xırda, yüngül və tükcüklü olur.
B) İtxiyarı bitkisinin yetişmiş meyvə və toxumları heyvanlarla yayılır.
C) Ağcaqayın və atpıtrağı bitkilərinin meyvələri heyvanlarla yayılır.
D) Qızılağacın meyvə və toxumları külək vasitəsilə yayılır.
E) Lalə, xaşxaş kimi qutucuqmeyvəli bitkilər toxumlarını özləri yayır.

16. Cədvələ əsasən $x + y = ?$

Qarğıdalı toxumlarının	
cücərməmiş kütləsi	x
udduğu suyun kütləsi	60 qram
cücərdikdən sonrakı kütləsi	y

A) 180 qram B) 300 qram C) 120 qram
D) 360 qram E) 540 qram

17. Uyğunluğu müəyyən edin.
Quru meyvələr:
1. toxumcameyvə
2. fındıqmeyvə
3. dənmeyvə
Xüsusiyyətləri:
a. sərt odunlaşmış meyvəyanlığına malikdir və toxumları sərbəst yerləşir
b. pərdəşəkilli meyvəyanlığı toxum qabığına bitişikdir və bir-birindən ayrılmır

c. meyvəyanlığının daxili qatı dəricik formasındadır və toxumla birləşmir

A) 1 – b, 2 – a, 3 – c B) 1 – c, 2 – b, 3 – a
C) 1 – c, 2 – a, 3 – b D) 1 – a, 2 – c, 3 – b
E) 1 – b, 2 – c, 3 – a

18. Verilmiş yosunlardan hansı digərlərinə nisbətən suyun daha dərin qatlarında yaşayır?

A) spirogira B) xlorella
C) xlamidomonada D) ulotriks
E) porfira

19. Zoğun 5 buğumunda 15 yarpaq varsa, onun hansı bitkiyə aid olduğunu (I) və bu bitkinin yarpaq düzülüşünü (II) müəyyən edin.

	I	*II*
A)	gicitkən	topalı
B)	tozağacı	növbəli
C)	qarğagözü	qarşı-qarşıya
D)	oleandr	topalı
E)	yasəmən	qarşı-qarşıya

20. Cədvəldə verilmiş fikirlərin düzgün ardıcıllığını (doğru - D, yanlış - Y) müəyyən edin.

Çiçəkdə yumurtacıqların sayı yumurtalıqların sayından çox ola bilər.	Erkək və dişi çiçəklər eyni bir bitki üzərində yerləşə bilər.
Sadə çiçəkyanlığına malik çiçəkdə çiçək yatağı olmur.	Çiçəkdə yumurtalıqdan meyvə, tozluqdan toxum əmələ gəlir.

A) | D | Y | / | D | Y | B) | Y | Y | / | D | Y | C) | D | D | / | Y | Y |

D) | Y | D | / | Y | Y | E) | D | D | / | D | Y |

21. Xlamidomonadanın 8 ziqotunun əmələ gəlməsində bilavasitə iştirak edən qametlərin sayı bu ziqotlardan əmələ gəlmiş zoosporların sayından neçə dəfə azdır?

A) 4 B) 2 C) 3 D) 6 E) 8

22. Çiçəkli bitkilərdə rüşeym kisəsində ***olmur***:

1. mərkəzi hüceyrə 2. yumurta hüceyrə
3. yumurtacıq 4. tozcuq

A) 3, 4 B) 2, 4 C) 1, 4 D) 1, 3 E) 2, 3

23. Nöqtələrin yerinə uyğun gələn sözlərin düzgün ardıcıllığını müəyyən edin.

Gavalı, albalı, ... kimi bitkilərin meyvələri adlanır. Bu bitkilərdə yetişmiş meyvələrin meyvəyanlığı ..... olur.

1. quru 2. giləmeyvə
3. üzüm 4. şirəli
5. çəyirdəkmeyvə 6. ərik

24. Hər biri 18 hüceyrədən təşkil olunmuş 2 ulotriks yosununda cəmi neçə hüceyrənin "*rəngdaşıyan*"a malik olduğunu hesablayın.

25. Düzgün ifadələri seçin.

Erkək qametləri spermatozoid adlanan ali bitkilərin ...

1. birhüceyrəli nümayəndələri vardır.
2. yarpaqlarında xloroplastlar olur.
3. rütubətli meşələrdə yaşayan nümayəndələri vardır.
4. gövdə və yarpaqları olmur.
5. çoxillik nümayəndələri olur.

26. Şəklə əsasən ***səhv*** mülahizələri seçin.



1. tozcuqların tutulmasında iştirak edir
2. dişicik və erkəkcikləri qoruyur
3. içərisində bir neçə yumurtacıq yerləşir
4. cücərməkdə olan tozcuq borusunu yumurtalığa yönləndirir
5. çiçək tacını əmələ gətirir

27. Uyğunluğu müəyyən edin.

Ulotriks yosununun:

1. dördqamçılı hüceyrələri
2. ikiqamçılı hüceyrələri
3. qamçısız sporları

a. əlverişsiz şəraitdə əmələ gəlir
b. qeyri-cinsi çoxalma zamanı əmələ gəlir
c. cüt-cüt birləşərək ziqotu əmələ gətirir
d. əlverişsiz şəraitdə bölünərək yeni yosuna başlanğıc verir
e. ziqotun bölünməsi nəticəsində əmələ gəlir

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Müəllim erkək qıjının çoxalmasını izah edərkən qeyri-cinsi nəslin cinsi nəsillə növbələşdiyini dedi və lövhədə belə bir sxem çəkdi.



28. Sxemdə X və Y-in yerinə nə yazılmalıdır?

29. Sxemdə 1 və 3 rəqəmləri ilə qeyd olunmuş proseslərin baş verdiyi yerləri yazın.

30. Sxemdə X-in cinsi nəsil olduğunu söyləmək olarmı? Cavabınızı əsaslandırın.

KİMYA

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

31. Uyğunluğu müəyyən edin.



1. p-ksilolun homoloqudur.
2. Kalium-permanqanat məhlulunu rəngsizləşdirir.
3. Bütün karbon atomlarının hibridləşmə vəziyyəti eynidir.
4. Ümumi formulu eynidir.
5. Molekuldakı σ_{C-H} (siqma)-rabitələrin sayı eynidir.

	I	II	III
A)	3	1, 4	2, 5
B)	1, 4	2, 5	3
C)	2, 4	3	1, 5
D)	1, 4	3	2, 5
E)	3, 5	1	2, 4

32.



I, II və III qabda olan anionların qatılığı uyğun olaraq 1,5 mol/*l*, 1 mol/*l*, 0,75 mol/*l* olarsa, qablarda olan kationların qatılığı (C_I, C_{II}, C_{III}) arasındakı münasibəti müəyyən edin. α=100%

A) $C_{III} < C_{II} < C_I$
B) $C_I = C_{II} = C_{III}$
C) $C_{III} < C_I < C_{II}$
D) $C_I = C_{II} < C_{III}$
E) $C_{II} < C_I < C_{III}$

33. Duzunun suda məhlulunda hidrolizinin I mərhələsinin qısa ion tənliyi $Me^{3+} + HOH \rightleftharpoons (MeOH)^{2+} + H^+$ kimi olarsa, uyğun duzu müəyyən edin.

A) $CrCl_2$
B) $Fe(OH)NO_3$
C) $CaCO_3$
D) $Ca(NO_3)_2$
E) $Fe(NO_3)_3$

34.

Maddələr	Molyar kütləsi, q/mol	1 molunda atomların ümumi sayı
Fe_nO_m	M_1	a
$Fe(OH)_n$	M_2	a

$M_1 - M_2 = 125$ q/mol olarsa, m-in qiymətini hesablayın. $A_r(Fe)=56$, $A_r(H)=1$, $A_r(O)=16$

A) 1 B) 2 C) 3 D) 4 E) 5

35.

Maddə	Molekulunda olan	
	rabitələr	sayı
3-xlorpropen		a
		b
		c

a, b və c-ni müəyyən edin.

	a	b	c
A)	5	3	1
B)	6	1	3
C)	5	2	1
D)	4	3	2
E)	6	2	3

36. Hansı reaksiyadan etilformiatın izomeri alınar?

A) $HCOOH + CH_3OH \xrightarrow{H^+}$

B) $CH_3COOH + C_2H_5OH \xrightarrow{H^+}$

C) $HCOOH + C_2H_5OH \xrightarrow{H^+}$

D) $CH_3COOH + C_3H_7OH \xrightarrow{H^+}$

E) $CH_3COOH + CH_3OH \xrightarrow{H^+}$

37. Hansı reaksiyadan karbohidrogen alınır?

A) $C_2H_5Cl + NaOH(su) \longrightarrow$

B) $CH{\equiv}CH + H_2O \xrightarrow{Hg^{2+},t}$

C) $CH_3-\overset{O}{\overset{\|}{C}}-H + Ag_2O \xrightarrow{t,NH_3\cdot H_2O}$

D) $C_2H_5Cl + NaOH(spirt) \xrightarrow{t}$

E) 

38. İzomer olan A və B alkanlarına aid *yanlış* ifadələri müəyyən edin.

1. Homoloqlardır
2. Nisbi molekul kütlələri bərabərdir
3. Karbon zəncirinin quruluşu eynidir
4. Qaynama temperaturları eynidir
5. Molekullarında karbon atomları arasındakı σ (siqma)-rabitələrin sayı bərabərdir

A) 1, 2, 5 B) 1, 3, 4 C) 1, 3, 5
D) 2, 3, 4 E) 2, 4, 5

39. a mol duz suda həll edildikdə dissosiasiya dərəcəsi 80% olarsa, duzun neçə molu ionlarına ayrılmışdır?

A) $0{,}8a$ B) $2a$ C) $0{,}2a$ D) $1{,}2a$ E) $0{,}4a$

40. $C_6H_{12}O_6 \xrightarrow{\text{qıcqırma}} 2X + 2CO_2$

X maddəsi üçün hansı ifadələr doğrudur?

I. Etil spirtidir
II. Yağ turşusudur
III. Molekulları arasında hidrogen rabitəsi var
IV. Lakmusun rəngini dəyişir

A) I, IV B) II, IV C) II, III
D) I, III E) III, IV

41.

Maddələr	Molyar kütləsi, q/mol	Molekulunda karbon atomlarının sayı
Doymuş alifatik aldehid	M	n
Doymuş alifatik monoamin	M+1	x

x-i müəyyən edin. $A_r(C)=12$, $A_r(H)=1$, $A_r(O)=16$, $A_r(N)=14$

A) n – 1 B) n + 1 C) n – 2
D) n + 2 E) n

42.

Reaksiya üçün götürülən maddələr		Reaksiyadan ayrılan istiliyin miqdarı, kC
C, q	H_2, q	
12	2	Q_1
18	8	Q_2
6	4	Q_3

Q_1, Q_2 və Q_3 arasındakı doğru münasibəti müəyyən edin. $A_r(C)=12$, $A_r(H)=1$

A) $Q_3>Q_1=Q_2$ B) $Q_1>Q_2>Q_3$ C) $Q_2>Q_1=Q_3$
D) $Q_1>Q_2=Q_3$ E) $Q_2>Q_1>Q_3$

43. $CH_3 - \underset{Cl}{CH} - \underset{Cl}{CH_2} + 2KOH_{(spirt)} \xrightarrow{t}$

reaksiyasında üzvi maddə molekulunda azalan nədir?

1. Hidrogen atomlarının sayı
2. Karbon atomlarının sayı
3. İkinci karbon atomunun oksidləşmə dərəcəsi
4. Karbon atomlarının sp^3-hibrid orbitallarının sayı
5. Birinci karbon atomunun oksidləşmə dərəcəsi
6. σ (siqma)-rabitələrin sayı

A) 1, 4, 6 B) 2, 3, 5 C) 2, 4, 6
D) 1, 5, 6 E) 1, 3, 5

44. Hansımaddəqələvilərləreaksiyayagirərəksudahəll ***olmayan*** əsas əmələ gətirir?

A) AgCl B) H_2SO_4 C) $CaCO_3$
D) $CuSO_4$ E) $Zn(OH)_2$

45. XY_3 birləşməsində elementlərin kütlə nisbəti 2:9 kimidir.Buna əsasən 6,6 q XY_3 birləşməsinin alınması üçün X və Y-dən ən azı neçə qram lazımdır?

	X	Y
A)	5,4	1,2
B)	2,4	4,2
C)	1,2	5,4
D)	2,5	4,1
E)	3,1	3,5

46. $6CH_2O \xrightarrow{Ca(OH)_2} X \xrightarrow{qıcqırma} Y \xrightarrow[-(H_2+H_2O)]{425°C,\ Al_2O_3,\ ZnO} Z$

Hansı ifadələr doğrudur?

1. X karbohidratdır
2. Y etilenqlikoldur
3. Z divinildir

A) yalnız 1 B) 1, 2 C) 1, 3
D) yalnız 3 E) 1, 2, 3

47. $FeSO_{4(məh.)} + Ca \longrightarrow$ reaksiyası zamanı kalsium metalı tam sərf olunarsa, hansı qrafiklər doğrudur?



A) I, III B) I, II C) yalnız III
D) yalnız II E) II, III

48.

Doymuş biratomlu spirtlərin tipi	CuO ilə oksidləşmə məhsulu
ikili	X
üçlü	Y
birli	Z

X, Y və Z-i müəyyən edin.

	X	Y	Z
A)	oksidləşmir	aldehid	keton
B)	keton	oksidləşmir	aldehid
C)	keton	aldehid	oksidləşmir
D)	aldehid	oksidləşmir	keton
E)	oksidləşmir	keton	aldehid

49. Sellüloza makromolekulunun tam yanmasından 15000 su molekulu alınır. Bu makromolekulun tam efirləşməsi üçün tələb olunan HNO_3 molekullarının minimal sayını hesablayın.

A) 7500 B) 5000 C) 10000
D) 3000 E) 9000

50. $4NH_2 - CH_2 - COOH \longrightarrow X + aH_2O$

X-in adını və a-nı müəyyən edin.

	X-in adı	a
A)	Tripeptid	3
B)	Dipeptid	3
C)	Tetrapeptid	3
D)	Tripeptid	2
E)	Tetrapeptid	2

51. 22 qram etilasetatın hidrolizindən əmələ gəlmiş spirtin artıq miqdarda natriumla qarşılıqlı təsirindən neçə litr (n.ş.) hidrogen alınar?

$M_r(CH_3COOC_2H_5)=88$

A) 2,8 B) 5,6 C) 11,2 D) 22,4 E) 33,6

52. Fruktoza üçün doğru ifadələri müəyyən edin.

1. Qlükozadan daha şirindir.
2. Molekulunda aldehid qrupu var.
3. Suda yaxşı həll olur.
4. Molekulunda 5 hidroksil qrupu var.
5. "Gümüş - güzgü" reaksiyasına daxil olur.

A) 1, 2, 5 B) 1, 3, 4 C) 1, 3, 5
D) 2, 3, 4 E) 2, 4, 5

53. $CH \equiv CH + 2Na \xrightarrow{NH_3}$ sxemi üzrə gedən reaksiya üçün hansı ifadələr doğrudur?

1. Bəsit maddə alınır.
2. Karbonun valentliyi dəyişir.
3. Reduksiyaedici və oksidləşmə məhsulunun əmsalları cəmi 4-dür.
4. Natrium-asetilenid alınır.

54. Valent bucağı 120° olan molekulları müəyyən edin.

1. $BeCl_2$ 2. $AlCl_3$ 3. CH_4
4. BCl_3 5. C_2H_2

55.

Məhlulda həll olan A-nın kütləsi, q	A maddəsinin həllolma əmsalı, q/*l*	Doymuş məhlulun sıxlığı, q/*ml*
60	1500	1,6

Məhlulun həcmini (ml) hesablayın.

56. Hansı reaksiyalardan alınan üzvi maddələrdə oksidləşmə dərəcəsi –1 olan karbon atomu var?

1. $CH_3-CH=CH_2 + HBr \longrightarrow$
2. $CH_2=CH_2 + H_2O \xrightarrow{t,p,H^+}$
3. $CH_3-CH=CH_2 + H_2 \xrightarrow{t,p,kat.}$
4. $CH_2=CH_2 + HBr \longrightarrow$
5. $CH_3-CH=CH_2 + KMnO_4 + H_2O \longrightarrow$

57. Uyğunluğu müəyyən edin.

Qeyri-üzvi birləşmələrin sinifləri	*Maddələr*
1. Oksid	a. Na_2O_2
2. Əsas	b. NH_4Cl
3. Duz	c. $Cu(OH)_2$
	d. OF_2
	e. CO_2

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Sınaq şüşəsində etanalın oksidləşməsindən alınan turşunun üzərinə tam reaksiya gedənə qədər NaOH əlavə edilir (I). Bir qədər sonra sınaq şüşəsində alınmış duz aşağı temperaturda quruducu sobada qurudulur və toz halına salınır. Sonra şəkildə göstərildiyi kimi natrium-hidroksidlə qarışdırılaraq tam reaksiyaya daxil olana qədər qızdırılır (II).

58. Etanalın oksidləşməsindən alınan turşunun formulunu (1) və adını (2) yazın.

59. Baş verən reaksiyaların tənliklərini yazın (I və II).

60. I reaksiyadan alınan duzun tərkibində 34,5 q Na varsa, sınaq şüşəsində olan doymuş birəsaslı karbon turşusunun kütləsini (q) (1) və sonda ən çox neçə litr (n.ş.) metan alına biləcəyini (2) hesablayın. $A_r(C)=12$, $A_r(H)=1$, $A_r(O)=16$, $A_r(Na)=23$

FİZİKA

Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

61. x oxu boyunca düzxətli bərabəryavaşıyan hərəkət edən cisim K nöqtəsini keçən andan 20 san sonra M nöqtəsinə çataraq dayanır. K nöqtəsini keçən anda cismin sürətinin modulunu hesablayın.



A) 3 m/san B) 5 m/san C) 10 m/san
D) 6 m/san E) 20 m/san

62. Çevrə üzrə bərabərsürətli hərəkət edən iki maddi nöqtənin xətti sürətləri $\vartheta_2 = 3\vartheta_1$ olarsa, onların bucaq sürətlərinin ω_2/ω_1 nisbətini hesablayın (bölgülər bərabərdir).



A) 2/9 B) 9/2 C) 9 D) 2 E) 3

63. Yer səthindən şaquli yuxarı atılmış cismin maksimal qalxma hündürlüyünün başlanğıc sürətin qiymətindən asılılıq qrafiki hansıdır (havanın müqaviməti nəzərə alınmır)?

A) 

B) 

C) 

D) 

E) 

64. Sabit F=12N dartı qüvvəsinin təsiri ilə üfüqi səth üzrə hərəkət edən 5 kq kütləli cismin sürətinin modulunun zamandan asılılığı $\vartheta = 1 + 0{,}4t$ (m/san) şəklindədir. Cismə təsir edən sürtünmə qüvvəsinin qiymətini hesablayın.



A) 2 N B) 5 N C) 7 N D) 10 N E) 14 N

65. Çəkisiz yaya bağlanmış cisim hamar mail müstəvi səth üzərində tarazlıqdadır. Cismin kütləsi 600 q olarsa, yayda yaranan elastiklik qüvvəsinin modulunu hesablayın ($\mu=0$; $\cos\alpha=0{,}8$; $\sin\alpha=0{,}6$; $g=10 m/san^2$).



A) 3,6 N B) 4,8 N C) 6 N D) 8 N E) 10 N

66. Çəkisiz ling tarazlıqdadır. T=600 N olarsa, F_1 qüvvəsinin qiymətini hesablayın (bölgülər bərabərdir).



A) 150 N B) 200 N
C) 450 N D) 400 N
E) 600 N

67. FİƏ-si 40% olan mühərrikin tam gücü 8 kVt-dır. Bu mühərrikin 10 san ərzində gördüyü faydalı işi hesablayın.

A) 50 kC B) 32 kC C) 25 kC
D) 20 kC E) 16 kC

68. Əvəzləyici qüvvənin gördüyü işin cismin kinetik enerjisindən asılılıq qrafiki hansıdır ($\vartheta_0 = 0$)?

A) 

B) 

C) 

D) 

E) 

GÜVƏN

69. Başlanğıc halda daxili enerjisi 10 kC olan ideal qaz üzərində xarici qüvvələr 2 kC iş görür. Prosesin sonunda ideal qazın daxili enerjisini hesablayın (Q=0).
A) 2 kC B) 5 kC C) 6 kC D) 8 kC E) 12 kC

70. Silindrik qabda porşen altında qalan su buxarının izotermik sıxılması zamanı halının dəyişməsi (ρ, V) koordinatlarında təsvir edilmişdir. 1–2 və 2–3 hissələrinə uyğun su buxarının kütləsi necə dəyişir (ρ – buxarın sıxlığı, V – həcmdir)?



	1-2 hissəsində	*2-3 hissəsində*
A)	artır	azalır
B)	dəyişmir	azalır
C)	dəyişmir	artır
D)	azalır	dəyişmir
E)	artır	dəyişmir

71. Müəyyən temperaturda nisbi rütubəti 40% olan havadakı su buxarının sıxlığı 12 q/m³ olarsa, həmin temperatura uyğun doyan su buxarının sıxlığını hesablayın.
A) 12 q/m³ B) 20 q/m³ C) 30 q/m³
D) 18 q/m³ E) 48 q/m³

72. Qızılın ərimə istiliyinin onun kütləsindən asılılıq qrafiki hansıdır?



73. Nüvəsində 5 proton, 6 neytron və elektron təbəqə-lərində 2 elektron olan bor ionunun yükünü hesablayın ($e = 1{,}6 \cdot 10^{-19}$ Kl).
A) $1{,}6 \cdot 10^{-19}$ Kl B) $4{,}8 \cdot 10^{-19}$ Kl
C) $6{,}4 \cdot 10^{-19}$ Kl D) $3{,}2 \cdot 10^{-19}$ Kl
E) $8 \cdot 10^{-19}$ Kl

74. Tutumu 6 mkF olan kondensatorun lövhələri arasındakı gərginliyi hesablayın.



A) 8 V B) 12 V
C) 16 V D) 18 V
E) 24 V

75. Verilmiş müstəvi kondensatorun tutumunun onun enerjisindən asılılıq qrafiki hansıdır?



76. Naqilin en kəsiyindən keçən elektrik yükünün zamandan asılılıq qrafikinə əsasən cərəyan şiddətini hesablayın.



A) 0,5 A B) 2 A
C) 12 A D) 16 A
E) 32 A

77. Verilmiş mis naqilin uzunluğunu 2 dəfə azaltdıqda, onun müqaviməti (R) və xüsusi müqaviməti (ρ) necə dəyişər?

	R	***ρ***
A)	dəyişməz	2 dəfə azalar
B)	2 dəfə azalar	2 dəfə artar
C)	2 dəfə artar	dəyişməz
D)	dəyişməz	dəyişməz
E)	2 dəfə azalar	dəyişməz

78. Bircins maqnit sahəsinə göstərilmiş istiqamətlərdə daxil olan protonlara təsir edən Lorens qüvvəsinin qiymətləri arasındakı doğru münasibət hansıdır ($\vartheta_1 = \vartheta_2 = \vartheta_3$)?



A) $F_3 > F_2 > F_1$ B) $F_1 = F_2 = F_3$
C) $F_1 > F_2$; $F_3 = 0$ D) $F_1 < F_2$; $F_3 = 0$
E) $F_1 = F_2$; $F_3 = 0$

79. Vb/A ifadəsi hansı fiziki kəmiyyətin vahidinə uyğundur?
A) elektrik sahəsinin intensivliyinin
B) maqnit sahəsinin induksiyasının
C) induksiya EHQ-nin
D) enerji sıxlığının
E) induktivliyin

80. Verilmiş sarğacdan keçən elektrik yükünün miqdarı $q = 5t$ (mKl) qanunu ilə dəyişir. Sarğacın maqnit sahəsinin enerjisi 40 mC olarsa, maqnit selini hesablayın.

A) 3,2 Vb B) 4 Vb C) 8 Vb
D) 16 Vb E) 20 Vb

81. Rəqs konturunda sərbəst rəqslərin tezliyi ν, sarğacda cərəyan şiddətinin amplitud qiyməti I_m olarsa, kondensatorda yükün amplitud qiyməti hansı ifadə ilə təyin olunur?

A) $\frac{I_m \nu}{2\pi}$ B) $\frac{I_m 2\pi}{\nu}$ C) $2\pi\nu I_m$
D) $\frac{2\pi\nu}{I_m}$ E) $\frac{I_m}{2\pi\nu}$

82. Şərti işarələrlə verilmiş cihazlar üçün Eyler-Venn diaqramında uyğun ifadələri müəyyən edin.



1. vakuum diodudur
2. yarımkeçirici dioddur
3. iş prinsipi p-n keçidinə əsaslanır
4. dövrədən biristiqamətli cərəyan keçməsini təmin edir

	I	*II*	*III*
A)	1, 3	2	4
B)	1	2	3, 4
C)	2, 3	1	4
D)	4	1, 3	2
E)	2, 4	1	3

83. Açar sözlərdən uyğun ardıcıllıqla istifadə edərək, mətni tamamlayın.

Açar sözlər: *1 – izotermik proses, 2 – izoxorik proses, 3 – düz, 4 – tərs.*

Sabit həcmdə ideal qazın halının dəyişmə prosesi _____ adlanır. Sabit temperaturda ideal qazın halının dəyişmə prosesi _____ adlanır. İzoxorik prosesdə verilmiş kütləli ideal qazın təzyiqi onun temperaturu ilə _____ mütənasibdir. İzotermik prosesdə verilmiş kütləli ideal qazın təzyiqi onun həcmi ilə _____ mütənasibdir.

84. Cisma tətbiq edilmiş dörd qüvvənin əvəzləyicisinin modulunu N ilə hesablayın ($F_1 = 12$ N, $F_2 = 9$ N, $F_3 = 4$ N, $F_4 = 3$ N).



85. O tarazlıq nöqtəsi ətrafında rəqs edən yaylı rəqqasın bir tam rəqs ərzində getdiyi yolu sm ilə hesablayın (K və L kənar nöqtələridir).



86. Bircins elektrik sahəsi tərəfindən müsbət nöqtəvi yüklərə təsir edən qüvvələrin qiymətləri (F) və yüklərin yerləşdiyi nöqtələrə uyğun sahə intensivliklərinin modulları (E) arasındakı hansı münasibətlər doğrudur ($q_2 > q_1$)?



1. $F_2 > F_1$ 2. $F_2 = F_1$ 3. $F_2 < F_1$
4. $E_2 > E_1$ 5. $E_2 = E_1$ 6. $E_2 < E_1$

87. Uyğunluğu müəyyən edin.

Sabit gərginlik mənbəyinə rezistor və termistor qoşulmuşdur. Eyni vaxtda həm termistoru, həm də rezistoru qızdırdıqda:



U=const

1. artar
2. azalar
3. dəyişməz

a. voltmetrin göstərişi
b. rezistorun müqaviməti
c. termistorun müqaviməti
d. A_1 ampermetrinin göstərişi
e. A_2 ampermetrinin göstərişi

Sizə təqdim olunan situasiyanı diqqətlə oxuyun. Burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Çəkisiz ipdən asılmış düzbucaqlı paralelepiped şəklindəki bircins cisim tarazlıqdadır. Bu halda ipdə yaranan gərilmə qüvvəsi $T_1 = 20$ N olur (şəkil 1). Kran açılmaqla qab CD səviyyəsinə qədər su ilə doldurulur (şəkil 2). Bu halda isə ipdə yaranan gərilmə qüvvəsi $T_2 = 12$ N olur ($g = 10$ N/ kq, $\rho_{su} = 1000$ kq/m³, qaba hər bir saniyədə tökülən suyun miqdarı eynidir).

şəkil 1



şəkil 2

88. Kran açıldıqdan sonra qabdakı su AB səviyyəsindən CD səviyyəsinə çatana qədər cismə təsir edən Arximed qüvvəsinin zamandan asılılıq qrafikini çəkin (cavabınızı əsaslandırın).

89. Qab su ilə doldurulduqdan sonra su daxilində tarazlıqda olan cismə təsir edən əvəzləyici qüvvəni və Arximed qüvvəsini N ilə hesablayın (şəkil 2).

90. Cismin sıxlığını kq/m³ ilə hesablayın.

SINAQ 11

BİOLOGİYA

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

1. Boşluğa uyğun gələn ifadəni müəyyən edin.
Verilmiş şəkil ..... canlıya aiddir.

A) kirəc çanağa malik birhüceyrəli
B) avtotrof yolla qidalanan çoxhüceyrəli
C) bədən səthi çoxlu sayda kirpiklərlə örtülmüş birhüceyrəli
D) koloniya halında yaşayan çoxhüceyrəli
E) bir-biri ilə sitoplazma çıxıntıları ilə birləşərək koloniya əmələ gətirən birhüceyrəli

2. Sxem və cədvələ əsasən $a + b + c$ ifadəsinin qiymətini tapın.

ilkin bakteriya



bölünən bakteriya sayı	a
əmələ gələn nəsil sayı	b
sonda əmələ gələn bakteriya sayı	c

A) 25 B) 18 C) 19 D) 17 E) 26

3. Mətndə nöqtələrin yerinə uyğun gələn sözlərin düzgün ardıcıllığını müəyyən edin.
Çılpaqtoxumlu bitkilər fotosintez prosesində ..... qazını udur və oksigeni buraxır. Onlar həm də havanı ..... qazı ilə zənginləşdirir və havadakı bakteriyaları məhv edən xüsusi maddə – ..... ifraz edir.

1. ozon 2. aqar-aqar 3. karbon
4. fitonsid 5. azot

A) 3, 1, 4 B) 1, 3, 4 C) 3, 5, 2
D) 1, 5, 4 E) 3, 1, 2

4. Öküz soliterinin sormacları bədənin hansı hissəsində yerləşir?
A) başcıqda
B) sonuncu buğumda
C) boyuncuqda
D) orta buğumlarda
E) boyuncuğa birləşən ilk buğumda

5. Eyler-Venn diaqramında sual işarəsinin yerinə yazıla bilər:



A) əsas kök B) zoğ C) tozcuq
D) sünbülcük E) toxum

6. Sxemdə X və Y-in yerinə nə yazılmalıdır?



A) X – qametlər, Y – qamçısız sporlar
B) X – zoosporlar, Y – qametlər
C) X – yumurta hüceyrə, Y – spermatozoid
D) X – qamçısız sporlar, Y – qametlər
E) X – qametlər, Y – protonema

7. Adi şamın dişi qozasında 64 pulcuq var. Əgər pulcuqların hamısında yumurtacıq olduğunu nəzərə alsaq, onda bu qozada maksimum neçə toxum əmələ gələr?
A) 64 B) 32 C) 128 D) 16 E) 254

8. Cədvəldə verilmiş fikirlərin düzgün ardıcıllığını (doğru - D, yanlış - Y) müəyyən edin.

İnfuzor-tərlik sabit bədən formasına malikdir.	Adi amöb əlverişsiz şəraitdə spor əmələ gətirir.
Yaşıl evqlendə bütün həyati proseslər bir hüceyrə daxilində gedir.	Malyariya paraziti çoxhüceyrəli canlıdır.

A) | Y | Y |
   | D | Y |

B) | Y | D |
   | D | Y |

C) | D | Y |
   | Y | D |

D) | D | D |
   | D | Y |

E) | D | Y |
   | D | Y |

9. Adi şamda tozcuqları əmələ gətirən qozalar hansı rəngdə olur?
A) qırmızımtıl B) yaşıl C) qonur
D) sarımtıl-yaşıl E) göy

10. Sxemdə X və Y-in yerinə yazıla *bilməz*:



X	*Y*
A) plaunlar	örtülütoxumlular
B) mamırlar	çılpaqtoxumlular
C) qatırğuyruğular	örtülütoxumlular
D) yosunlar	plaunlar
E) plaunlar	çılpaqtoxumlular

11. Nöqtələrin yerinə uyğun gələn sözlərin düzgün ardıcıllığını müəyyən edin.
..... – qabıq, rüşeym və endospermdən ibarətdir. ..... xüsusi hüceyrələr qrupu olub, özündə ehtiyat qida maddələri toplayır. ..... gələcək bitkinin ilk mərhələsidir.
1. Endosperm 2. Rüşeym
3. Meyvə 4. Toxum
A) 4, 2, 1 B) 4, 1, 2 C) 3, 2, 1
D) 3, 1, 2 E) 4, 3, 1

12. Albalının 12 çiçəyində cəmi neçə meyvə əmələ gəlir və bu meyvələrdə cəmi neçə toxum olur?

	Meyvə sayı	*Toxum sayı*
A)	36	36
B)	12	36
C)	24	12
D)	12	12
E)	12	1

13. Exinokokkun sürfələri yumurtadan çıxır:
A) gölməçədə
B) əsas sahibin ağciyərində
C) aralıq sahibin həzm sistemində
D) torpaqda
E) əsas sahibin əzələsində

14. Sxemdə sual işarəsinin yerinə yazılmalıdır:



A) şirin su hidrası B) qaraciyər sorucusu
C) öküz soliteri D) insan askaridi
E) ağ planari

15. Çiçəyində erkəkciklərin sayı ləçəklərin sayından çox olan bitkiləri seçin.
1. yerfındığı 2. quşəppəyi 3. quşüzümü
4. xanımotu 5. yonca
A) 1, 2, 4 B) 3, 4, 5 C) 1, 2, 5
D) 2, 3, 5 E) 1, 3, 4

16. ***Yanlış*** fikri müəyyən edin.
Papaqlı göbələklərin:
A) papaq və kötükcüyü mitselilərdən təşkil olunmuşdur
B) mitseliləri hiflərdən təşkil olunmuşdur
C) mitseliləri arasında yaşıl yosunlar və ya sianobakteriyalar yerləşir
D) mitseliləri ağac köklərinin sorucu zonasına daxil ola bilir
E) sporları əlverişli şəraitə düşdükdə cücərərək yeni mitseli əmələ gətirir

17. Uyğunluğu müəyyən edin.
1. Yeməli göbələklər
2. Zəhərli göbələklər
a. tozağacı göbələyi b. solğun əzvay
c. milçəkqıran d. qırmızıbaş göbələk
A) 1 – a, c; 2 – b, d B) 1 – a, b; 2 – c, d
C) 1 – a, d; 2 – b, c D) 1 – b, d; 2 – a, c
E) 1 – b, c; 2 – a, d

18. ***Səhv*** mülahizəni müəyyən edin.
A) Qıcqırma bakteriyaları saprofit bakteriyalara aiddir.
B) Anaerob bakteriyalar oksigensiz mühitdə yaşayır.
C) Vibrionlar vergülşəkilli bakteriyalardır.
D) Fototrof bakteriyalar enerji mənbəyi kimi Günəş enerjisindən istifadə edir.
E) Parazit bakteriyalar bitki və heyvan qalıqlarını çürüdərək minerallaşdırır.

19. Uşaq bizquyruğu insanın hansı orqanında parazitlik edir?
A) ağciyərində B) traxeyasında
C) qaraciyərində D) bağırsağında
E) ürəyində

20. Müəyyən sayda lobya çiçəklərində 36 bitişik erkəkcik varsa, bu çiçəklərdə cəmi neçə kasa yarpağı və ləçək olar?
A) 20 B) 40 C) 72 D) 32 E) 48

21. Nöqtələrin yerinə uyğun gəlir:
Divar ksantoriyası kimi ..... da xüsusi toxuma və orqanlara malik deyil. Onun tallomu simbioz şəklində yaşayan iki orqanizmdən ibarətdir.
A) sfaqnum B) sancaqşəkilli plaun
C) çöl qatırquyruğu D) maral mamırı
E) yaşıl quşmamırı

22. Noxud toxumu cücərərkən ləpələrdəki ehtiyat qida maddələrin miqdarının (m) dəyişməsini düzgün göstərən qrafik hansıdır?

A)


B)


C)


D)


E)


23. Verilmiş bitkilərdən hansılarının çiçək düsturu $Ç_{(2)+2}E_3D_1$-dir?
1. buğda 2. inciçiçəyi
3. arpa 4. qarğıdalı

24. Cədvələ əsasən a + b + c + d cəmini hesablayın.

Canlılar	Qamçı sayı	Qırmızı gözcük sayı
yaşıl evqlen	a	b
xlamidomonada	c	d

25. Verilmiş proseslərin adi şam bitkisində baş vermə ardıcıllığını müəyyən edin.
1. çarpaz tozlanma
2. dişi qozanın pulcuqlarının qapanması
3. erkək qozanın tozcuq kisələrində tozcuqların yetişməsi
4. mayalanma
5. qanadcığa malik toxumların külək vasitəsilə yayılması
6. yetişmiş dişi qozanın pulcuqlarının aralanması

26. Verilən fəsilələrin hansılarının nümayəndələrində meyvələr yalnız quru və birtoxumlu olur?
1. paxlalılar
2. mürəkkəbçiçəklilər
3. taxıllar
4. zanbaqlar
5. badımcançiçəklilər
6. gülçiçəklilər

27. Uyğunluğu müəyyən edin.



a. Spordan inkişaf edir.
b. Üzərində qametlər və ziqot əmələ gəlir.
c. Birhüceyrəlidir.
d. Kökü olmayan ali sporlu bitkilərin ilk cücərtisidir.
e. Yaşıl rənglidir.

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Aysu herbari hazırlamaq məqsədilə qopardığı yabanı bitkinin çiçəyinə lupa ilə baxaraq bəzi qeydlər etdi.

Ləçək sayı: 4
Kasa yarpağı sayı: 4
Erkəkcik sayı: 6
Dişicik sayı: 1

28. Bu bitkinin aid olduğu fəsilə və sinfin adlarını yazın.

29. Bu bitkinin 3 çiçəyində çiçəkyanlığını əmələ gətirən strukturların ümumi sayı həmin çiçəklərdəki tozcuqların yetişdiyi strukturların ümumi sayından neçə ədəd çoxdur? (həllini yazın)

30. Bu bitkinin meyvə tipini (1) və bu meyvə tipinə aid iki xüsusiyyət (2) yazın.

KİMYA

Məsələlər üçün | Video həllər üçün | Cavablar üçün

31.

Maddə	Mol sayı	Parçalanma temperaturu, °C	Parçalanma reaksiyasının çıxımı, %	Alınan H_2-nin mol sayı
CH_4	a	550–600	75	x
CH_4	a	1500	50	y

x və y arasındakı münasibəti müəyyən edin.
A) 1,5x=y B) 2x=y C) x=2y
D) x=y E) x=1,5y

32. Hansı maddələrin dissosiasiyasının I mərhələsində eyni yüklü anionlar alınır?
1. NaH_2PO_4 2. K_2HPO_4
3. K_3PO_4 4. H_3PO_4
A) 3, 4 B) 1, 3 C) 1, 2 D) 2, 3 E) 1, 4

33. $S^0 \longrightarrow S^{-2}$ sxeminə uyğun reaksiyada 4,5 mol kükürd atomu oksidləşdirici kimi iştirak edir. Reaksiyada reduksiyaedici alüminium olarsa, onun mol sayını müəyyən edin.
A) 1,5 B) 6 C) 3 D) 9 E) 2

34.

Radikal	Radikalların birləşməsindən əmələ gələn maddə
Üçlü butil	A
İzopropil	

A maddəsi üçün hansı ifadələr doğrudur?
1. 2-metilheksanın izomeridir
2. Molekulunda asimmetrik karbon atomu var
3. Əsas zəncirində ikinci karbon atomunun oksidləşmə dərəcəsi –1-dir
A) yalnız 1 B) yalnız 2 C) yalnız 3
D) 1, 2 E) 1, 3

35. Suda məhlulda K_2SO_4 duzunun dissosiasiya qrafikinə əsasən duzun dissosiasiya dərəcəsini (%-lə) hesablayın.



A) 40 B) 80
C) 60 D) 90
E) 70

36.

Tam reaksiyaya daxil olan maddələrin mol sayı		Alınan duz
NaOH	H_3PO_4	
2	1	a
2	2	b
3	1	c

Turş duzu müəyyən edin.
A) yalnız b B) b, c C) a, b
D) yalnız c E) yalnız a

37. Həcmi 1 litrlik qabda *a* mol NO və *b* mol O_2 qazları qarışdırılır. Qarışıqda $NO + O_2 \rightleftharpoons NO_2$ reaksiyası gedir. Tarazlıq halında qabda olan bütün maddələrin qatılığı bir-birinə bərabər olur. *a*:*b* nisbətini müəyyən edin.
A) 4:3 B) 2:1 C) 3:2 D) 1:1 E) 3:4

38.

Temperatur (°C)	Həllolma əmsalı (q/l)
20	250
50	600

Maddənin həllolma əmsalının temperaturdan asılı olaraq dəyişməsi cədvəldə verilmişdir. 50°C-də hazırlanmış 800 q doymuş məhlul 20°C-dək soyudulduqda sıxlığı 1,25 q/sm³ olan məhlul alınır. Alınan məhlulun həcmini (ml) hesablayın.
A) 625 B) 400 C) 450 D) 500 E) 550

39. $CaCl_2$ duzunun suda məhlulunda ionların ümumi sayının dissosiasiya etməmiş $CaCl_2$-nin sayına nisbəti 2 olarsa, duzun dissosiasiya dərəcəsini (%) hesablayın.
A) 75 B) 60 C) 80 D) 50 E) 40

40. I. Azot qazının mayeləşdirilməsi
II. Üzüm şirəsindən sirkə alınması
III. Şəkərin suda olan məhlulundan kristallaşdırma üsulu ilə ayrılması
Yuxarıda göstərilən hadisələrdən hansında kimyəvi hadisə baş verir?
A) yalnız I B) yalnız II C) yalnız III
D) yalnız II, III E) I, II, III

41. $S + HNO_{3(qat)} \longrightarrow H_2SO_4 + NO_2 + H_2O$
Reaksiya zamanı 8 qram kükürd sərf olunur. Bu prosesə uyğun olan qrafikləri müəyyən edin.
$A_r(S)=32$



A) yalnız I B) II, III C) I, III
D) yalnız III E) I, II

42. Xloretan və 2-xlorpropan natriumun iştirakı ilə birləşərək Vürs reaksiyası nəticəsində alkan əmələ gətirir. Alkanın molekulu şaxəli quruluşludur və tərkibində ikili karbon atomu varsa, onu Beynəlxalq nomenklatura ilə adlandırın.
A) 2-metilbutan B) 2,3-dimetilbutan
C) butan D) 2-metilpentan
E) pentan

43. 

Eyler-Venn diaqramına uyğun olan ifadələri müəyyən edin.
1. Kationa görə hidroliz edir
2. Suda məhlulunda neytral mühit olur
3. Məhlulda $n(H^+)>n(OH^-)$ olur
4. 1 molu tam dissosiasiya etdikdə 2 mol ion əmələ gəlir

	I	*II*	*III*
A)	4	2, 3	1
B)	1, 3	4	2
C)	2	1, 4	3
D)	1, 3	2	4
E)	4	1	2, 3

44. $C_2H_6 + nCl_2 \longrightarrow X + 4HCl$
Reaksiyaya əsasən X maddəsini müəyyənləşdirin.
A) $C_2H_3Cl_3$ B) C_2HCl_5 C) $C_2H_4Cl_2$
D) $C_2H_2Cl_4$ E) C_2H_5Cl

45.

Elementlər	Elektron formulları	Əmələ gətirdikləri birləşmənin formulu
X	$...3s^23p^1$	Z
Y	$...2s^22p^4$	

Z-i müəyyən edin.
A) X_3Y_2 B) XY_2 C) XY
D) X_3Y E) X_2Y_3

46. Alkenlərin homoloji sırasının üçüncü nümayəndəsi üçün doğrudur:
1. Tsiklopropan ilə izomerdir
2. Həndəsi izomerlik əmələ gətirən izomeri mövcuddur
3. Optiki izomerlik əmələ gətirən izomeri mövcuddur
A) yalnız 1 B) yalnız 2 C) yalnız 3
D) 1, 3 E) 1, 2

47. Qüvvətli elektrolitləri müəyyən edin.
I. $CuSO_4$ II. $CaCO_3$
III. KNO_3 IV. H_2O
A) I, IV B) II, III C) I, III
D) III, IV E) II, IV

48. $X_{2(q)} + 3Y_{2(q)} \longrightarrow 2XY_{3(q)}$ 2 dəqiqədə 40 mol X_2 sərf olunursa, reaksiyanın Y_2 və XY_3 görə sürətlərini (mol/*l*·dəq) hesablayın. (Qabın həcmi 10 litrdir).

	$\upsilon(Y_2)$	$\upsilon(XY_3)$
A)	6	4
B)	3	2
C)	2	4
D)	6	8
E)	4	6

49. Kauçukun alınmasında monomer kimi istifadə olunan maddələri müəyyən edin.
1. $CH_2=CH_2$
2. $CH_2=C(CH_3)-CH=CH_2$
3. CH_3-CH_2Cl
4. $CH_2=CH-CH=CH_2$
5. $CH_2=C(Cl)-CH=CH_2$
6. $CH_3-CH(CH_3)-CH_3$
A) 1, 2, 5 B) 1, 3, 4 C) 1, 3, 6
D) 1, 4, 6 E) 2, 4, 5

50.

Maddə	Kütləsi (q)	Atomların sayı
$MgSiO_3$	*m*	N_A
$X(NO_3)_2$	*m*	N_A

$X(NO_3)_2$-ün nisbi molekul kütləsini hesablayın.
$A_r(O)=16$, $A_r(Mg)=24$, $A_r(Si)=28$
A) 164 B) 56 C) 120 D) 180 E) 100

51. 250 q 10%-li duz məhlulundan sabit temperaturda su buxarlandırıldıqda qatılığın (ω) buxarlandırılan suyun kütləsindən (m_{su}) asılılıq qrafiki verilmişdi. Məhluldan 175 q su buxarlandırdıqda çökən duzun kütləsini (q) hesablayın.



A) 7,5 B) 10 C) 12,5 D) 25 E) 5

52.



Maddəni Beynəlxalq üsulla adlandırın.

A) 3-izopropilpenten-2
B) 4-metilhepten-1
C) 3-izopropilpenten-4
D) 4-metil-3-etilpenten-1
E) 3-etil-3-izopropilpropen

53. 2 mol C_3H_4 və 8 mol H_2 arasında reaksiya axıra qədər gedərsə, qarışıqda σ(siqma)-rabitə sayı neçə dəfə artır?

54. Hansı reaksiya zamanı ikili karbon atomu üçlü karbon atomuna çevrilir?

1. Propenin HCl ilə reaksiyası
2. Propenin polimerləşməsi
3. 2-xlorpropanın Na ilə reaksiyası
4. Xloretanın Na ilə reaksiyası

55. 2 mol $KOH + x$ mol $CO_2 \longrightarrow$ turş duz
2 mol $NaOH + y$ mol $CO_2 \longrightarrow$ normal duz + su
2 mol $MgCO_3 + z$ mol $CO_2 + c$ mol $H_2O \longrightarrow$ turş duz

Reaksiyalarda ümumilikdə neçə litr (n.ş.-də) karbon-dioksid reaksiyaya daxil olmuşdur? (Reaksiyalar tam gedir, heçbir maddə artıq qalmır).

56.

Element	Nisbi atom kütləsi	proton sayı	neytron sayı
X	55	n	n+5
Y	52	n–1	m

X və Y atomları üçün eyni olan nədir?

1. Tək elektronların sayı
2. Neytronların sayı
3. d-elektronların sayı
4. p-elektronların sayı
5. s-elektronların sayı

57. Hidroliz reaksiyalarının I mərhələsinin qısa ion tənliklərinə uyğun duzları müəyyən edin.

1. $A^{2+} + H_2O \leftrightarrow AOH^+ + H^+$
2. $B^{2-} + H_2O \leftrightarrow HB^- + OH^-$

a. $NaNO_3$
b. $AgNO_3$
c. K_2S
d. $Ba(NO_3)_2$
e. $FeCl_2$

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Laboratoriyada *a* qram kristalhidrat *m* qram su ilə qarışdırılaraq 400 qram mis(II) sulfat məhlulu hazırlanır. Məhluldakı duz tam elektroliz edildikdə katodda 32 qram maddə ayrılır. $M_r(CuSO_4)=160$, $A_r(Cu)=64$



$CuSO_4$ məhlulu

58. Duzun elektroliz reaksiyasının tənliyini (1) yazın və əmsallaşdırın (2).

59. Elektroliz zamanı anodda ayrılan maddənin formulunu (1) yazın və ilkin məhlulda mis(II)sulfatın kütlə payını (%) (2) hesablayın.

60. Başlanğıc məhlulu hazırlamaq üçün lazım olan suyun kütləsini (*m*, q) və $CuSO_4 \cdot 5H_2O$ kristalhidratının kütləsini (*a*, q) hesablayın.
$M_r(CuSO_4 \cdot 5H_2O)=250$

FİZİKA

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

61. Düzxətli hərəkət edən cismin sürətinin modulunun zamandan asılılıq qrafiki verilmişdir. Beşinci saniyənin sonunda bu cismin sürətinin modulunu hesablayın.



A) 8 m/san B) 9 m/san C) 10 m/san
D) 15 m/san E) 18 m/san

62. Hansı ifadələr doğrudur?
Düzxətli bərabəryavaşıyan hərəkət edən maddi nöqtənin:
1. hərəkət trayektoriyası düz xətdir
2. hərəkət trayektoriyası əyri xətdir
3. sürətinin qiyməti zaman keçdikcə dəyişir
4. sürətinin qiyməti zaman keçdikcə dəyişmir
5. təcilinin qiyməti zaman keçdikcə dəyişir
6. təcilinin qiyməti zaman keçdikcə dəyişmir
A) 1, 3 və 5 B) 1, 3 və 6 C) 1, 4 və 5
D) 2, 3 və 5 E) 2, 4 və 6

63. Xətti sürəti 5 m/san olan maddi nöqtə verilmiş radiuslu çevrə üzrə bərabərsürətli hərəkət edir. Dövretmə periodu 2 san olan bu maddi nöqtənin 4 tam dövr ərzində getdiyi yolu hesablayın.
A) 0 B) 5 m C) 10 m D) 20 m E) 40 m

64. Çevrə üzrə bərabərsürətli hərəkətlərdə dövretmə tezliyinin çevrənin radiusundan asılılıq diaqramı verilmişdir. Hansı nöqtə xətti sürətin ən böyük qiymətinə uyğundur?



A) 1 B) 2 C) 3 D) 4 E) 5

65. Maddi nöqtəyə bir düz xətt boyunca əks istiqamətlərdə yönəlmiş F_1 və F_2 qüvvələri tətbiq olunmuşdur. Bu qüvvələrin əvəzləyicisi 5 N və $F_1 = 3$ N olarsa, F_2 qüvvəsinin modulunu hesablayın.
A) 2 N B) 3 N C) 4 N D) 8 N E) 15 N

66. İçərisində su olan menzurkaya kütləsi 60 q olan bərk cisim salınmışdır. Menzurkanın göstəricisinə əsasən cismin sıxlığını hesablayın.



A) 1,2 q/sm³
B) 3 q/sm³ C) 1,5 q/sm³
D) 6 q/sm³ E) 1 q/sm³

67. Yer səthindən h hündürlüyündə Yerin gravitasiya sahəsinin intensivliyi hansı ifadə ilə təyin olunur (M – Yerin kütləsi, R – Yerin radiusu, G – qravitasiya sabitidir)?
A) $G\frac{M}{R}$ B) $G\frac{M}{R^2}$ C) $G\frac{M}{R+h}$
D) $G\frac{M}{(R+h)^2}$ E) $G\frac{M}{h^2}$

68. Yer səthindən şaquli yuxarı atılmış cismin yerdəyişməsinin modulunun zamandan asılılıq qrafiki hansıdır (havanın müqaviməti nəzərə alınmır)?



69. Yayın sərtliyinin vahidinin BS-də əsas vahidlərlə ifadəsi hansıdır?
A) $\frac{kq \cdot m}{san}$ B) $\frac{kq}{m \cdot san^2}$ C) $\frac{kq \cdot m}{san^2}$
D) $\frac{kq}{san^2}$ E) $\frac{m}{san^2}$

70. Masa üzərində sürüşən m_1 cismi ilə səth arasındakı sürtünmə əmsalı 0,5 olarsa, bu cismin təcilinin modulunu hesablayın (ipin çəkisi və blokun oxundakı sürtünmə nəzərə alınmır, $m_1 = 2$ kq, $m_2 = 3$ kq, $g = 10$ N/kq).



A) 2 m/san² B) 4 m/san² C) 5 m/san²
D) 8 m/san² E) 10 m/san²

71. Kütləsi m = 60 kq olan yükü bloklar sistemi vasitəsilə tarazlıqda saxlayan F qüvvəsinin modulunu hesablayın (blokların və ipin çəkisi, blokların oxundakı sürtünmə nəzərə alınmır, g = 10 N/kq).



A) 120 N B) 150 N
C) 200 N D) 300 N
E) 600 N

72. Yer səthindən müəyyən hündürlükdən sərbəst düşən 2 kq kütləli cismin 2-ci saniyənin sonunda kinetik enerjisi potensial enerjisindən 4 dəfə çoxdur. Bu cismin tam mexaniki enerjisini hesablayın (g = 10 N/kq).

A) 100 C B) 300 C C) 400 C
D) 500 C E) 1600 C

73. F = 20 N dartı qüvvəsinin təsiri ilə düzxətli bərabərsürətli hərəkət edən cisim üzərində sürtünmə qüvvəsinin 5 m yolda gördüyü işin modulunu hesablayın (sinα = 0,6; cosα = 0,8).



A) 0 B) 60 C C) 70 C D) 80 C E) 100 C

74. Hansı cihaz vasitəsilə riyazi rəqqasın rəqs periodunu təyin etmək olar?

A) xətkeş B) dinamometr C) manometr
D) tərəzi E) spidometr

75. Harmonik rəqs edən cismin koordinatının zamandan asılılıq qrafiki verilmişdir. Rəqs periodu (T) və rəqs amplitudunu (A) müəyyən edin.



	T	A
A)	3 san	8 m
B)	4 san	3 m
C)	8 san	3 m
D)	6 san	8 m
E)	12 san	6 m

76. Gəmidən dərinliyi 6 km olan dənizin dibinə suda yayılma sürəti 1500 m/san olan ultrasəs siqnalı göndərilir. Bu səs siqnalının göndərilmə və qəbulolunma anları arasındakı vaxtı hesablayın.

A) 8 san B) 6 san C) 5 san D) 4 san E) 2,5 san

77. Harmonik rəqs edən cismin impulsunun proyeksiyasının zamandan asılılıq qrafiki verilmişdir. Bu cismin kinetik enerjisinin zamandan asılılıq qrafiki hansıdır?

A)


B)


C)


D)


E)


78. Suda üzən cisimlərin sıxlıqlarının ρ_1/ρ_2 nisbətini hesablayın.



A) 1/2 B) 2/3 C) 3/2
D) 1 E) 2

79. Hidravlik maşında sahəsi 50 sm² olan kiçik porşenə təsir edən qüvvə 80 N-dur. Tarazlıq halında sahəsi 200 sm² olan böyük porşenə təsir edən qüvvənin qiymətini hesablayın.

A) 320 N B) 200 N C) 160 N
D) 80 N E) 20 N

80. 27° C temperaturda 4 l həcmli balondakı 0,02 mol ideal qazın təzyiqini hesablayın (R = 8 C/(mol·K)).

A) 30 kPa B) 27 kPa C) 8 kPa
D) 18 kPa E) 12 kPa

81. Sabit temperaturda ideal qazın daxili enerjisinin onun kütləsindən asılılıq qrafiki hansıdır (M=const)?



82. Verilmiş kütləli ideal qazın izobar genişlənmə və izoxor qızma prosesləri üçün Eyler-Venn diaqramında uyğun ifadələri müəyyən edin.



1. qazın sıxlığı azalır
2. qazın sıxlığı dəyişmir
3. qazın temperatur artır
4. qazın təzyiqi dəyişmir

	I	II	III
A)	2	1	3, 4
B)	3, 4	2	1
C)	2	1, 4	3
D)	1	2, 3	4
E)	1, 4	2	3

83. Açar sözlərdən müəyyən ardıcıllıqla istifadə edərək, mətni tamamlayın.

Açar sözlər: *1 – bərabər olan, 2 – ağırlıq qüvvəsinə, 3 – böyük olan, 4 – arximed qüvvəsi, 5 – kiçik olan.*

Sıxlığı mayenin sıxlığından _____ cismin müəyyən hissəsi mayeyə batmaqla, onun səthində üzür. Sıxlığı mayenin sıxlığına _____ cisim həmin mayenin daxilində ixtiyari dərinlikdə üzə bilir. Mayedə üzən cismə təsir edən arximed qüvvəsi _____ bərabər olur. Sıxlığı mayenin sıxlığından _____ cisim mayedə batır. Mayedə batmış cismin çəkisi onun vakuumdakı çəkisindən _____ qədər az olur.

84. Suda batmış 5 kq kütləli cismin sudakı çəkisi 20 N-dur. Bu cismin sıxışdırıb çıxardığı suyun çəkisini N ilə hesablayın ($g = 10$ N/kq).

85. Təzyiqi 40 kPa, həcmi 4 dm³ olan ideal qaz izobar genişlənir. Prosesin sonunda qazın həcmi 10 dm³ olarsa, bu proses zamanı qazın gördüyü işi C ilə hesablayın.

86. Hansı qrafiklər verilmiş kütləli ideal qaz üzərində gedən izotermik prosesə uyğundur (p – təzyiq, V – həcm, T – mütləq temperaturdur)?



87. Uyğunluğu müəyyən edin. Verilmiş kütləli ideal qazın təzyiqinin qaz molekullarının konsentrasiyasından asılılıq diaqramının



1. KL hissəsində
2. LM hissəsində
3. MK hissəsində

a. daxili enerji artır
b. daxili enerji azalır
c. daxili enerji dəyişmir
d. qazın gördüyü iş müsbətdir
e. qazın gördüyü iş sıfıra bərabərdir

Sizə təqdim olunan situasiyanı diqqətlə oxuyun. Burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Kütləsi 1 kq olan tircik mail müstəvinin təpə nöqtəsindən sərbəst buraxılır (şəkil 1). Cisim KML trayektoriyası üzrə hərəkət edərək (sürtünmə nəzərə alınmır) yolun sonuna qoyulmuş yayla toqquşur. Toqquşma nəticəsində yay elastiki deformasiya edərək sıxılır (şəkil 2) ($g = 10\,m/san^2$).



şəkil 1



şəkil 2

88. Mail müstəvinin təpə nöqtəsindən sərbəst buraxılmış bu cismin potensial enerjisinin yay maksimal sıxılan ana qədər hansı növ enerjiyə çevrildiyini yazın. Uyğun düsturları yazmaqla cavabınızı əsaslandırın (enerji itkisi nəzərə alınmır).

89. Elastiki deformasiya olunmuş yayın maksimal sıxılmasını hesablayın ($k = 500\,N/m$).

90. $0\text{-}t_1$ zaman müddətində cismin KM trayektoriyası üzrə, $t_1\text{-}t_2$ zaman müddətində isə ML trayektoriyası üzrə hərəkət etdiyini qəbul edərək, K nöqtəsindən sərbəst buraxılmış bu cismin yayla toqquşma anına qədər kinetik enerjisinin zamandan asılılıq qrafikini çəkin (KM trayektoriyasını düzxətli qəbul edin, cavabınızı əsaslandırın).

SINAQ 12

BİOLOGİYA

Mövzular üçün | Video həllər üçün | Cavablar üçün

1. Nöqtələrin yerinə uyğun gələn sözlərin düzgün ardıcıllığını müəyyən edin.
Pəncərə qarşısına qoyulmuş dibçəkdəki bitkidə gövdə və yarpaqların işığa doğru çevrilməsi ..... adlanır. Bunun səbəbi onların işıq düşən hissəsində yerləşən hüceyrələrinin ..... , əksinə, kölgəli tərəfində yerləşənlərin isə ..... bölünməsidir.
1. zəif 2. tropizm 3. sürətli 4. taksis
A) 4, 3, 1 B) 2, 3, 1 C) 4, 1, 3
D) 2, 1, 3 E) 2, 4, 3

2. ***Səhv*** mülahizəni müəyyən edin.
Tədqiqatçı X canlısının tallomundakı hüceyrələrdə *"rəngdaşıyan"* olduğunu müəyyən etdi. Bu canlı:
A) qonur yosun ola bilər
B) şibyə ola bilər
C) sianobakteriya ola bilməz
D) sfaqnum ola bilər
E) çoxhüceyrəli yaşıl yosun ola bilər

3. Quşların ürək boşluğundan arterial qan hansı damarla çıxır?
A) sağ aorta qövsü ilə B) ağciyər arteriyası ilə
C) sol aorta qövsü ilə D) qarın aortası ilə
E) ağciyər venası ilə

4. n sayda buğumarası olan və yarpaqları qarşı-qarşıya düzülmüş zoğda cəmi neçə yarpaq vardır?
A) 2n + 1 B) 4n + 1 C) 2n + 2
D) 4n E) 2n

5. Ağac gövdəsində özək yerləşir:
A) qabıqla kambi arasında
B) oduncağın floemaya söykənən hissəsində
C) mantarla floema arasında
D) gövdənin mərkəzində
E) kambi ilə oduncaq arasında

6. Mikoriza əmələ gətirən hər iki orqanizmin produsent olduğunu söyləmək olarmı?
A) olmaz, çünki onu əmələ gətirən orqanizmlərdən biri parazitdir
B) olar, çünki onu əmələ gətirən hər iki orqanizm avtotrofdur
C) olmaz, çünki onu əmələ gətirən orqanizmlərdən biri prokariotdur
D) olar, çünki onu əmələ gətirən hər iki orqanizm heterotrofdur
E) olmaz, çünki onu əmələ gətirən orqanizmlərdən yalnız biri avtotrofdur

7. Şəklə əsasən düzgün bəndi müəyyən edin.



A) Z erkək cinsiyyət vəzisidir.
B) Y-in bir ucu kor qurtarır.
C) X-də qida xitin dişciklərin köməyi ilə üyüdülür.
D) Y həzm sisteminə aiddir.
E) Z vasitəsilə hava traxeyalara daxil olur.

8. Sakit halda tənəffüs zamanı insanın ağciyər kapillyarlarına keçən oksigenin miqdarı 500 sm^3 olarsa, bu müddət ərzində xaric edilən karbon qazının miqdarını hesablayın.
A) 500 sm^3 B) 300 sm^3 C) 800 sm^3
D) 250 sm^3 E) 400 sm^3

9. Verilmiş fikirlərdən hansı doğrudur?
A) Sidik kanalı sidiyi böyrəkdən sidik kisəsinə daşıyır.
B) Sidik axarının divarında orta qat eninəzolaqlı əzələlərdən təşkil olunmuşdur.
C) İlk sidik qədəhəbənzər kapsulda əmələ gəlir.
D) Böyrək arteriyası qanı aşağı boş venadan alır.
E) Sidik axarları ilk sidiyi böyrək ləyəninə daşıyır.

10. Uyğunluğu müəyyən edin.
İnsanın həzm sistemində ...
1. iki bədən boşluğunda yerləşən
2. qarışıq sekresiya vəzisinin axarının açıldığı
3. mədəaltı vəzi fermentlərinin işini fəallaşdıran maddə hazırlayan
4. qalça bağırsaqla çəmbər bağırsaq arasında yerləşən

orqan:
a. qaraciyər
b. kor bağırsaq
c. qida borusu
d. onikibarmaq bağırsaq
A) 1-a; 2-d; 3-c; 4-b
B) 1-c; 2-d; 3-a; 4-b
C) 1-c; 2-b; 3-a; 4-d
D) 1-b; 2-c; 3-d; 4-a
E) 1-b; 2-a; 3-c; 4-d

11. Uyğunluğu müəyyən edin.

Göbələklər	Yeməli	Zəhərli	Lövhəcikli
1	+	–	+
2	+	–	–
3	–	+	+

a. solğun əzvay
b. şampinyon
c. yağlı göbələk
d. ağ göbələk
A) 1-b; 2-c, d; 3-a
B) 1-b, d; 2-c; 3-a
C) 1-b, c; 2-a; 3-d
D) 1-a; 2-c, d; 3-b
E) 1-c, d; 2-b; 3-a

12. Genetik cəhətdən ana bitkidən fərqlənir:
A) bığcıqla çoxaldılma nəticəsində əmələ gəlmiş çiyələk bitkisi
B) gövdə yumrusu ilə çoxaldılma nəticəsində əmələ gəlmiş kartof bitkisi
C) toxumla çoxaldılma nəticəsində əmələ gəlmiş çovdar bitkisi
D) yarpaqla çoxaldılma nəticəsində əmələ gəlmiş beqoniya bitkisi
E) gövdə çiliyi ilə çoxaldılma nəticəsində əmələ gəlmiş qarağat bitkisi

13. Ortayaşlı sağlam qadın orqanizmində aybaşı tsikli 28 gün davam edirsə, onda bu qadının yumurtalıqlarında normal halda 3 ildə minimum neçə ovulyasiya prosesi baş verər (hamiləlik ***olmayıb***)?
A) 26 B) 39 C) 52 D) 14 E) 32

14. Sxemdə X-lə qeyd olunmuş bitki aiddir:



A) örtülütoxumlulara B) mamırlara
C) plaunkimilərə D) çılpaqtoxumlulara
E) yosunlara

15. Hansı bənddə verilmiş strukturlar çoxhüceyrəli heyvan hüceyrəsində ola bilər?
A) yalançı ayaq, miofibril
B) qamçı, leykoplast
C) iri vakuol, hüceyrə divarı
D) xromoplast, kirpik
E) hüceyrə divarı, hamar endoplazmatik şəbəkə

16. Şərtsiz reflekslərə aid etmək *olmaz*:
A) müdafiə reflekslərini
B) səmt reflekslərini
C) vərdişləri
D) cinsiyyət reflekslərini
E) qida reflekslərini

17. *1. CcAa 2. CCAA 3. CCAa 4. CcAA*
Siyahıda boz dişi adadovşanlarının genotipləri verilmişdir. *CCaa* genotipli erkək qara adadovşanı bu dovşanlardan hansıları ilə çarpazlaşdıqda doğulacaq balalar yalnız boz rəngli olar?
A) 2, 4 B) 1, 3, 4 C) yalnız 2
D) yalnız 3 E) 1, 2

18. Paleozoy erasında biosfer hansı geosfer qatlarını əhatə etmişdir?
A) yalnız hidrosferi
B) hidrosfer, litosfer və atmosferi
C) yalnız litosferi
D) yalnız atmosfer və hidrosferi
E) yalnız litosferi və hidrosferi

19. Əgər insanda görmə sinirləri sinir impulslarını həm də göz almaası əzələlərinə ötürsəydi, onda bu sinir:
A) yalnız hərəki sinir olardı
B) hissi neyronların uzun çıxıntılarına malik olmazdı
C) qarışıq sinir olardı
D) yalnız hissi sinir olardı
E) impulsları mərkəzi sinir sisteminə ötürməzdi

20. Verilənlərə əsasən düzgün bəndi müəyyən edin.

Bitki	bir çiçəyində
A	dişicik sayı = yumurtacıq sayı
B	dişicik sayı = yumurtalıq sayı
C	dişicik sayı < yumurtacıq sayı

1. A bitkisi – buğda 2. C bitkisi – vələmir
3. B bitkisi – günəbaxan 4. A bitkisi – noxud
5. C bitkisi – albalı 6. B bitkisi – kartof
A) 1, 3, 4 B) 2, 4, 6 C) 1, 3, 6
D) 1, 5, 6 E) 2, 3, 5

21. Bütün məməlilərdə olur:
1. bud sümüyü 2. dördkameralı ürək
3. plasenta 4. caynaq
5. süd vəziləri 6. tük örtüyü
A) 2, 5 B) 1, 5, 6 C) 1, 3, 5
D) 2, 3, 4 E) 4, 6

22. Təyinedici açardan istifadə edərək bitkiləri müəyyən edin.



a. albalı b. pomidor c. turp
d. quşüzümü e. akasiya
A) I – b; II – a, d; III – c; IV – e
B) I – a, d; II – e; III – b; IV – c
C) I – a; II – b, d; III – c; IV – e
D) I – b, e; II – a; III – d; IV – c
E) I – b, d; II – a; III – c; IV – e

23. Çiçəkli bitkinin makrosporunun xromosom sayı 24-dürsə, bu bitkinin bölünən kambi hüceyrəsində anafazanın sonunda neçə xromatid olduğunu hesablayın.

24. Boşluqlara uyğun gələn sözlərin düzgün ardıcıllığını müəyyən edin.
Çöl göyərçinində ..... sümükləri aşağı hissədən birləşərək çəngəl şəklini almış, quyruq fəqərələrinin bir neçəsi birləşmiş və ..... sümüyü əmələ gətirmişdir. Göyərçində onurğanın ..... şöbəsi hərəkətlidir.

1. boyun
2. körpücük
3. pəncə
4. kürək
5. oma
6. büzdüm

25. Şəkildəki bitkilər üçün ümumi cəhətləri seçin.

1. cinsi nəslində kök olmur
2. çoxalması nəsil növbələşməsi ilə gedir
3. ikievli bitkidir
4. yetkin bitki cinsi nəsildir
5. cinsi nəsli avtotrofdur

26. ***Yanlış*** fikirləri seçin.
Zəncirotu bitkisinin çiçək qrupundakı bütün çiçəklər:
1. ikiağızcıqlı dişiciyə malikdir
2. saplaqlıdır
3. tozcuq əmələ gətirmir
4. meyvə əmələ gətirə bilər
5. boruşəkillidir
6. ikicinslidir

27. Uyğunluğu müəyyən edin.



a. balina
b. pinqvin
c. ördəkburun
d. göyərçin
e. suiti

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Ürək qanın hərəkətini tənzimləyən yorulmaz bir "mühərrik"-dir. O öz işini tsiklik olaraq təkrar edir. İnsanda ürəyin fəaliyyəti ürək tsiklinin üç fazasının bir-birini ardıcıl surətdə əvəz etməsindən ibarətdir.



28. Şəkildəki rəqəmlərin ürək tsiklinin müvafiq olaraq hansı fazasına uyğun gəldiyini yazın.

29. X-lə ürəkdəki hansı qapaq qeyd olunmuşdur (1)? Bu qapaq ürəyin bilavasitə hansı strukturları arasında yerləşir (2)?

30. Y-lə ürəkdəki hansı qapaq göstərilmişdir və ürəyin 0,8 saniyəlik tsikli şəraitində 200 nəbz vurğusunun baş verdiyi müddətdə bu qapaq neçə saniyə açıq vəziyyətdə olmuşdur? (həllini yazın)

KİMYA

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

31. Hansı maddə həm natriumun ammonyakda məhlulu ilə reaksiyaya daxil olur, həm də vəziyyət izomerliyi əmələ gətirir?
A) $CH \equiv CH$
B) $CH_2 = CH - CH_2 - CH_3$
C) $CH_3 - C \equiv C - CH_3$
D) $CH_3 - CH = CH - CH_3$
E) $CH \equiv C - CH_2 - CH_3$

32. I. Benzolun homoloqudur
II. Həlledici kimi istifadə olunur
III. Oksidləşdikdə benzoy turşusu əmələ gəlir
Verilmiş xassələrə uyğun gələn maddəni müəyyən edin.
A) o-ksilol B) stirol C) toluol
D) benzol E) fenol

33. Doymuş biratomlu ikili spirtləri müəyyən edin.

1. $CH_3 - \underset{\underset{CH_3}{|}}{CH} - \underset{\underset{OH}{|}}{CH} - CH_3$ 2. 

3. $CH_3 - \underset{\underset{OH}{|}}{CH} - \underset{\underset{OH}{|}}{CH} - CH_3$ 4. $CH_2 - \underset{\underset{CH_3}{|}}{CH} - \underset{\underset{OH}{|}}{CH} - CH_3$

A) 1, 2 B) 1, 4 C) 1, 3 D) 2, 4 E) 2, 3

34.

Maddələr	Nisbi molekul kütləsi	Molekulunda hidrogen atomlarının sayı
Doymuş aldehid	*a*	x
Alkan	*a*	y

Alkanın yüksək temperaturda krekinqindən etan və etilen alınırsa, x+y cəmini hesablayın. A_r(H)=1, A_r(O)=16, A_r(C)=12
A) 16 B) 18 C) 10 D) 14 E) 20

35.

Reaksiyaya daxil olan maddələr	Molyar kütləsi (q/mol)	Efirləşmə reaksiyasından alınan mürəkkəb efirin kütləsi (q)	Ayrılan suyun kütləsi (q)
$C_mH_{2m+1}OH$	*a*	26,4	5,4
$C_nH_{2n+1}COOH$	*b*		

a+*b* cəmini hesablayın. A_r(H)=1, A_r(O)=16
A) 120 B) 92 C) 78 D) 88 E) 106

36. 

Verilmiş maddədə karbonun kütlə payını (%) hesablayın. A_r(H)=1, A_r(O)=16, A_r(C)=12
A) 8 B) 40 C) 60 D) 48 E) 58

37.

Aminlər	Adları
X	dietilamin
Y	fenilamin
Z	izopropilamin
K	dimetilamin

Hansı aminlərdə hidrogen atomlarının sayı bərabərdir?
A) X, Y B) Y, Z C) Z, K D) X, Z E) Y, K

38. 

İfadələri maddələrə uyğun olaraq Eyler-Venn diaqramında qeyd edin.
1. Atom kristal qəfəsinə malikdir
2. Sarımsaq iyi verir
3. Suda həll olmur
4. Kibrit istehsalında istifadə olunur
5. CS_2-də həll olur

	I	*II*	*III*
A)	2, 5	3, 4	1
B)	1, 4	3	2, 5
C)	5	1,2	3, 4
D)	2, 5	3	1, 4
E)	2, 4	3	1, 5

39.

	Reagentlər		Reaksiya məhsulu
	X	Y	Z
1	$KHCO_3$	KOH	Duz
2	$CaCO_3$	$CO_2 + H_2O$	
3	Na_2CO_3	$CO_2 + H_2O$	
4	Na_2O	CO_2	

$X \xrightarrow{+Y} Z \xrightarrow{t} X + Y$

Verilmiş sxemə uyğun gələn reaksiyaları müəyyən edin.

A) 3, 4 B) 1, 2 C) 1, 4 D) 2, 4 E) 2, 3

40.

X		Y				T	
				Z			

Dövri sistem cədvəlinin verilmiş kiçik dövr elementləri üçün hansı ifadə doğru ***deyil***?

A) X-in nüvəsinin yükü ən kiçikdir
B) Y üçüncü qrup elementidir
C) T ən qüvvətli reduksiyaedicidir
D) Z-in radiusu daha böyükdür
E) X ilə T elementləri ion rabitəli birləşmə əmələ gətirir

41. Hansı reaksiya gübrənin sənayedə alınma üsulu ***deyil***?

A) $Na_2CO_3 + NO_2 \longrightarrow$
B) $Ca_3(PO_4)_2 + 4H_3PO_4 \longrightarrow$
C) $KOH + HCl \longrightarrow$
D) $CO_2 + NH_3 \xrightarrow{t,P}$
E) $Ca_3(PO_4)_2 + 2H_2SO_4 \longrightarrow$

42.



Hər iki qabda olan maddələr artıq miqdarda olarsa, X, Y maddələrini və $a+b$ cəmini hesablayın.

	X	Y	$a+b$
A)	O_2	H_2	2,5
B)	H_2	H_2	1,5
C)	O_2	O_2	2,5
D)	H_2	O_2	4
E)	O_2	H_2	3

43.



1. HCl məhlulu ilə reaksiyaya daxil olur
2. Əlavə yarımqrup elementidir
3. Dəyişkən valentlidir
4. Qızdırıldıqda hidroksidləri parçalanır

A) 3, 4 B) 1, 3 C) 1, 2 D) 2, 4 E) 1, 4

44.

Maddə	Molekulunda olan sp^2-hibrid orbitalların sayı	Molekulunda olan sp^3-hibrid orbitalların sayı
	a	*b*

a və *b*-ni müəyyən edin.

	a	*b*
A)	12	16
B)	18	12
C)	8	14
D)	12	18
E)	18	8

45.

Şüşənin tərkibi	Şüşənin adı
$K_2O \cdot PbO \cdot 6SiO_2$	A
$Na_2O \cdot CaO \cdot 6SiO_2$	B

A və B-yə uyğun olanları müəyyən edin.

	A	B
A)	Büllur şüşə	Çətinəriyən şüşə
B)	Kimyəvi şüşə	Büllur şüşə
C)	Büllur şüşə	Adi şüşə
D)	Kimyəvi şüşə	Adi şüşə
E)	Adi şüşə	Kimyəvi şüşə

46. Hansı reaksiyadan yalnız oksidlər alınır?

A) $AgNO_3 \xrightarrow{t}$
B) $KClO_3 + P \xrightarrow{t}$
C) $Hg(NO_3)_2 \xrightarrow{t}$
D) $NH_4NO_3 \xrightarrow{t}$
E) $NH_3 + O_2 \xrightarrow{t}$

47. Kütlə, q



$CaCO_3$-ün parçalanması zamanı bərk qalığın kütləsinin zamandan asılılıq qrafiki verilmişdir. Məhsulun çıxımı 80 % olarsa, bərk qalığın kütləsini (a, q) hesablayın. $A_r(Ca) = 40$, $A_r(C) = 12$, $A_r(O) = 16$

A) 140 B) 162 C) 216 D) 128 E) 200

48.

Metallar	Mol miqdarı	Reaksiyaya sərf olunan oksigenin mol miqdarı
Li	n	a
Na	n	b
K	n	c

a, b və c-ni müqayisə edin.

A) $c > b > a$ B) $c > a > b$ C) $a > b > c$
D) $b > c > a$ E) $a > c > b$

49.

Maddələr	1 mol $Zn(OH)_2$ ilə reaksiya məhsulu
1 mol HCl	X
2 mol NaOH	Y
1 mol H_2SO_4	Z

Hansı maddələr normal duz ola bilər?

A) X, Y B) yalnız X C) yalnız Y
D) Y, Z E) yalnız Z

50.

Kristalhidrat	1 mol kristalhidratda olan suyun mol sayı
X	2

X-i müəyyən edin.

A) Mis kuporosu B) Kristallik soda
C) Təbii gips D) Qlauber duzu
E) Alebastr

51. C_2H_4 və C_3H_4-dən ibarət 150 qram qaz qarışığının tam yanmasından 9 mol su alınarsa, qarışığın tərkibindəki atomların ümumi mol miqdarını hesablayın. $A_r(H)=1$, $A_r(C)=12$

A) 29 B) 32 C) 26 D) 27 E) 25

52. $2CH_3 - \underset{\underset{C_2H_5}{|}}{CH} - \underset{\underset{Cl}{|}}{CH_2} + 2Na \longrightarrow X + 2NaCl$

X-i Beynəlxalq üsulla adlandırın.

A) 2,5-dimetiloktan
B) 3,4-dimetilnonan
C) 3,6-dimetiloktan
D) 2,3,5-trimetilheptan
E) 2,3,4,5-tetrametilheksan

53. Qarışqa turşusu üçün doğrudur:

1. Həm polimerləşmə, həm də polikondensləşmə reaksiyasına daxil olur
2. Spirtlərlə reaksiyaya daxil olur
3. Adi şəraitdə bərk haldadır
4. Tərkibindəki karbon atomunun oksidləşmə dərəcəsi 0-a bərabərdir
5. $Cu(OH)_2$ ilə qızdırıldıqda oksidləşərək qırmızı çöküntü əmələ gətirir

54. Üzvi şüşə makromolekulunun nisbi molekul kütləsi 25000-dir. Bu makromolekulda karbonun hibrid orbitallarının sayını hesablayın. M_r(üzvi şüşə)=100

55. Oksigen üçün hansı ifadələr doğru ***deyil***?

1. Təbiətdə yalnız birləşmələr şəklində yayılmışdır
2. Allotropik şəkildəyişməsi mövcuddur
3. Bütün oksidlərin tərkibinə daxildir
4. Sənayedə havadan alınır
5. Bəsit maddələrin hamısı ilə reaksiyaya daxil olur
6. Dəm qazı ilə reaksiyaya daxil olur

56.

Cod suyun nümunəsində kalsium-hidrokarbonatın miqdarı, mmol/l	Belə suyun 500 litrinin yumşaldılması üçün lazım olan kalsium-hidroksidin kütləsi, q
4	a

a-nı müəyyən edin. $M_r(Ca(OH)_2)=74$

57. Uyğunluğu müəyyən edin.

Molekulunda n–1 sayda karbon atomu olan alkenin:	
1. σ(siqma)-rabitələrin sayı 2. qeyri-polyar kovalent rabitələrin sayı 3. C – H rabitələrin sayı	a. n+1 b. 2n–2 c. 3n–4 d. n–1 e. 3n–1

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Müəllim sorucu şkafda, içərisində dəmir yonqarı, qatı nitrat turşusu və mis qırıntısı olan üç ayrı sınaq şüşəsini şagirdlərə göstərdi. Sonra sınaq şüşəsindəki qatı nitrat turşusunun yarısını digər iki sınaq şüşələrinə əlavə etdi. Şagirdlərin müşahidəsi zamanı məlum oldu ki, sınaq şüşələrindən yalnız birində qatı nitrat turşusu ilə adi şəraitdə reaksiya baş verdi. Müəllim, nitrat turşusu ilə reaksiyaya daxil olmayan maddənin, sınaq şüşəsi qızdırıldıqda baş verəcəyini şagirdlərə bildirdi.

58. Qatı nitrat turşusu ilə adi şəraitdə reaksiyaya girməyən, ancaq qızdırıldıqda sınaq şüşəsində baş verən reaksiya tənliyini yazın (1) və əmsallaşdırın (2).

59. İçərisində turşu olan sınaq şüşəsi qızdırıldıqda alınan qazların formullarını yazın.

60. Adi şəraitdə sınaq şüşəsində reaksiyaya 12,6 q qatı nitrat turşusu sərf olunarsa, alınan reduksiya məhsulunun kütləsini (q) hesablayın. $A_r(H) = 1$, $A_r(O) = 16$, $A_r(N) = 14$

FİZİKA

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

61. Bir düz xətt boyunca eyni istiqamətdə hərəkət edən iki cismin sürətinin modulunun zamandan asılılıq qrafiki verilmişdir. Başlanğıc zaman anında cisimlər arasındakı məsafə 40 m olarsa, 5-ci saniyənin sonunda onlar arasındakı məsafəni hesablayın.





A) 20 m B) 30 m C) 40 m D) 60 m E) 70 m

62. Maddi nöqtəyə *bir düz xətt boyunca yönəlmiş* ədədi qiymətləri $F_1 = 3$ N, $F_2 = 4$ N və $F_3 = 5$ N olan üç qüvvə tətbiq olunmuşdur. Bu qüvvələrin əvəzləyicisinin ən böyük F_{max} və ən kiçik F_{min} qiymətlərini hesablayın.

	F_{max}	F_{min}
A)	12 N	0
B)	12 N	2 N
C)	12 N	3 N
D)	9 N	3 N
E)	7 N	5 N

63. Lift sükunətdə olduqda liftdəki sərnişinin çəkisi 600 N olarsa, lift şaquli aşağı istiqamətdə 2 m/san² təcillə hərəkət etdikdə, bu sərnişinin çəkisi necə dəyişər (g=10 N/kq)?

A) 120 N azalar B) 120 N artar C) dəyişməz
D) 480 N azalar E) 480 N artar

64. Dayaq üzərində tarazlıqda olan çəkisiz ling qüvvədə neçə dəfə qazanc verir (bölgülər bərabərdir)?



A) 2 dəfə B) 3 dəfə C) 4 dəfə
D) 7/3 dəfə E) 7/4 dəfə

65. Harmonik rəqs edən cismin koordinatının zamandan asılılıq tənliyi hansıdır (x_m – rəqsin amplitudu, ν – tezlik, t – zamandır)?

A) $x=x_m\frac{2\pi}{\nu}\sin t$ B) $x=x_m\sin\frac{2\pi}{\nu}t$

C) $x=x_m\sin\frac{\nu}{2\pi}t$ D) $x=x_m\,2\pi\nu\sin t$

E) $x=x_m\sin 2\pi\nu t$

66. Hansı fiziki kəmiyyətin BS-də vahidi əsas vahiddir?

A) molyar kütlənin B) həcmin
C) sürətin D) maddə miqdarının
E) təzyiqin

67. Sabit temperaturda doyan su buxarının kütləsinin həcmindən asılılıq qrafiki hansıdır?



68. Uzunluğu l_0 və en kəsik sahəsi S olan çubuğun sərtliyi hansı ifadə ilə təyin olunur (E–Yunq moduludur)?

A) $\frac{l_0}{SE}$ B) $\frac{S}{El_0}$ C) $\frac{El_0}{S}$ D) $\frac{Sl_0}{E}$ E) $\frac{SE}{l_0}$

69. Nöqtəvi q_1 yükünün K nöqtəsində yaratdığı sahə intensivliyinin modulu 20 mN/Kl-dur. Nöqtəvi q_1 və q_2 yüklərinin K nöqtəsində yaratdığı yekun sahənin intensivliyinin mo-dulunu hesablayın ($q_1=2q$, $q_2=q$, bölgülər bərabərdir).



A) 0 B) 20 mN/Kl C) 70 mN/Kl
D) 90 mN/Kl E) 110 mN/Kl

70. Sabit gərginlik mənbəyinə qoşulmuş müstəvi hava kondensatorunun yükünün lövhələri arasındakı məsafədən asılılıq qrafiki hansıdır (S=const)?





71. Sxemdə göstərilən qaydada sabit gərginlik mənbəyinə qoşulmuş naqillərin uclarındakı gərginliklər arasındakı hansı münasibət doğrudur ($R_1=R$, $R_2=R_3=2R$)?



A) $U_2=U_3=4U_1$
B) $U_2=U_3=U_1/4$
C) $U_2=U_3=2U_1$
D) $U_2=U_3=U_1/2$
E) $U_1=U_2=U_3$

72. Bircins maqnit sahəsində hərəkət edən elektrona A nöqtəsində təsir edən Lorens qüvvəsinin istiqamətini müəyyən edin.



A) ↖ B) ↗ C) ↘
D) ↓ E) $F_L=0$

73. Qapalı keçirici konturla hüdudlanmış səthdən keçən maqnit selinin zamandan asılılıq qrafiki verilmişdir. Konturda yaranan induksiya EHQ-ni hesablayın.



A) 20 mV B) 16 mV C) 8 mV
D) 6 mV E) 4 mV

74. Verilmiş sarğacdan keçən elektrik yükünün miqdarı q=4t (Kl) qanunu ilə dəyişir. Sarğacın maqnit sahəsinin enerjisi 8 C olarsa, onun induktivliyini hesablayın.

A) 0,5 Hn B) 1 Hn C) 2 Hn
D) 12 Hn E) 32 Hn

75. İşıq şüasının sınma bucağını hesablayın.



A) 20° B) 30° C) 40° D) 50° E) 60°

GÜVƏN NƏŞRLƏRİ

76. Vakuumda yayılan işığın rəqs tezliyinin dalğa uzunluğundan asılılıq qrafiki hansıdır?

A) 

B) 

C) 

D) 

E) 

77. Açıq rəqs konturunda kondensatorun tutumunu 4 dəfə artırdıqda şüalanan dalğanın dalğa uzunluğu necə dəyişər (L=const)?
A) 2 dəfə azalar B) 2 dəfə artar C) dəyişməz
D) 4 dəfə azalar E) 4 dəfə artar

78. Fotoeffekt zamanı saxlayıcı gərginliyin verilmiş metalın səthinə düşən fotonun enerjisindən asılılıq qrafiki hansıdır?

A) 

B) 

C) 

D) 

E) 

79. Verilmiş metal katod üzərinə enerjisi 9 eV olan işıq şüası düşür. Anoda çatan fotoelektronların maksimal kinetik enerjisi 4 eV olarsa, katod maddəsinin çıxış işini hesablayın.



A) 2 eV B) 3 eV
C) 4 eV D) 5 eV E) 6 eV

80. Bir-biri ilə qarşılıqlı təsirdə olan 3 ədəd yüklü metal sfera dielektrik səth üzərində sükunətdədir. 2 sferası 1 sferasını 40 mN qüvvə ilə itələyir, 3 sferasını isə 60 mN qüvvə ilə cəzb edir. 2 sferasına təsir edən sükunət sürtünmə qüvvəsinin qiymətini hesablayın.

A) 20 mN B) 40 mN C) 50 mN
D) 60 mN E) 100 mN

81. Hansı ifadələr doğrudur?
Ampermetr:
1. gərginliyi ölçür
2. cərəyan şiddətini ölçür
3. işlədiciyə ardıcıl qoşulur
4. işlədiciyə paralel qoşulur
A) 1 və 3 B) 1 və 4 C) 2 və 3
D) 2 və 4 E) 1 və 2

82. Çökük sferik və qabarıq sferik güzgülər üçün Eyler-Venn diaqramında uyğun ifadələri yazın.

1. baş fokusu həqiqidir
2. baş fokusu mövhumidir
3. fokus məsafəsi sferik güzgünün əyrilik radiusunun yarısına bərabərdir (F=R/2)
4. güzgünün əyrilik mərkəzində olan cismin xəyalı həqiqi, tərsinə çevrilmiş və özü boyda alınır

	I	II	III
A)	1	2, 4	3
B)	2, 4	3	1
C)	1, 4	2	3
D)	2	4	1, 3
E)	1, 3	2	4

83. Açar sözlərdən uyğun ardıcıllıqla istifadə edərək, mətni tamamlayın.
Açar sözlər: *1* – bənövşəyi , *2* – qırmızı, *3* – Dispersiya spek-tri, *4* – İşığın dispersiyası
_____ – mühitin sındırma əmsalının düşən işığın tez-liyindən (dalğa uzunluğundan) asılı olmasıdır. _____ – ağ işığın üçüzlü şəffaf şüşə prizmadan keçdikdə ayrıldığı görünən 7 rəngli tərkib hissədir. Monoxromatik (birrəngli) şüa adlandırılan rəngli şüalardan ən çox sınan _____, ən az sınan isə _____ şüadır.

84. Suda tarazlıqda olan eyni-həcmli 1 və 2 cisimlərinə təsir edən Arximed qüvvələri (F_A) və suyun göstərdiyi orta təzyiqlər (p) arasındakı hansı münasibətlər doğrudur (bölgülər bərabərdir)?

1. $F_{1A}=F_{2A}$ 2. $F_{1A}=2F_{2A}$ 3. $F_{1A}=3F_{2A}$
4. $p_1=p_2$ 5. $p_1=2p_2$ 6. $p_1=3p_2$

85. 5 mol biratomlu ideal qaz izobar qızdırıldıqda 4kC iş görür. Bu proses zamanı qazın temperaturu neçə K artır (R=8 C/(mol·K))?

86. Vakuum diodunun katodundan 4 san ərzində $5 \cdot 10^{19}$ sayda elektron çıxır. Doyma cərəyan şiddətini A ilə hesablayın ($e=1{,}6 \cdot 10^{-19}$ Kl).

87. Uyğunluğu müəyyən edin.
Cismə təsir edən əvəzləyici qüvvə ilə cismin sürəti arasındakı bucaq:
1. 60° olduqda
2. 90° olduqda
3. 120° olduqda
a. əvəzləyici qüvvə mənfi iş görür
b. əvəzləyici qüvvə müsbət iş görür
c. əvəzləyici qüvvənin gördüyü iş sıfıra bərabərdir
d. cismin kinetik enerjisi dəyişmir
e. cismin kinetik enerjisi azalır

Sizə təqdim olunan situasiyanı diqqətlə oxuyun. Burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Samir uzunluğu 1 m olan ipin ucuna bağladığı kürəciyi şaquli müstəvidə bərabər sürətlə fırladır. Kütləsi 200 q olan kürəcik 10 san ərzində 5 dövr edir. Kürəciyin sürəti şaquli aşağı yönələn anda ip qırılır (havanın müqaviməti nəzərə alınmır, $g=10\,m/san^2, \pi=3$).



88. İp qırılan anda kürəciyin sürətinin modulunu m/san ilə hesablayın.

89. İp qırılan andan etibarən kürəciyin Yer səthinə çatana qədər kinetik enerjisinin zamandan asılılıq qrafikini çəkin (cavabınızı əsaslandırın).

90. İp qırıldıqdan sonra 2-ci saniyənin sonunda kürəciyin Yer səthindən hündürlüyünü m ilə hesablayın.

SINAQ 13

BİOLOGİYA

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

1. Qrafikdə X-in yerinə yazıla bilər:



A) bitki yağı B) sellüloza C) süd yağı
D) nişasta E) zülal

2. Verilmiş proseslərin hansında hüceyrələr mitoz bölünmə ilə ***yaranmır***?
A) zoğun eninə böyüməsi
B) rüşeym kisəsində yumurta hüceyrənin əmələ gəlməsi
C) toxumun cücərməsi zamanı rüşeym gövdəciyinin inkişafı
D) tozluqda mikrosporların əmələ gəlməsi
E) kökün uzununa böyüməsi

3. Verilmiş xüsusiyyətlərdən hansına görə bir heyvanın onurğasızlara və ya onurğalılara aid olduğunu bilmək ***olmaz***?
A) sinir sistemi yoxdur
B) qeyri-cinsi yolla çoxalır
C) qığırdaq və sümük toxumalarına malikdir
D) döş boşluğu qarın boşluğundan diafraqma ilə ayrılır
E) qapalı qan dövranı var

4. DNT molekulunda sitozin azot əsası (S), ortofosfat turşusu qalığı (F) və dezoksiriboza (D) sayları arasında hansı münasibət doğrudur?
A) S > F > D B) S < F = D C) S = F > D
D) S = F = D E) S > F = D

5. İnsanın böyrək arteriyasına nisbətən böyrək venasında qatılığı çoxdur:
A) karbon qazının B) sidik cövhərinin
C) aminturşuların D) oksigenin
E) qlükozanın

6. Verilmiş fikirlərdən hansı ***səhvdir***?
A) bütün şibyələrdə göbələk hifi olur
B) şampinyon çoxhüceyrəlidir
C) bütün göbələkləri adi gözlə görmək mümkündür
D) göbələklər isti və rütubətli şəraitdə yaxşı inkişaf edir
E) göbələklərdə xlorofil olmur

7. Şəklə əsasən uyğunluğu müəyyən edin.



1. reseptor 2. hissi neyron
3. hərəki neyron 4. ara neyron
A) 1-c, 2-d, 3-b, 4-a B) 1-a, 2-b, 3-d, 4-c
C) 1-a, 2-d, 3-b, 4-c D) 1-a, 2-d, 3-c, 4-b
E) 1-c, 2-b, 3-a, 4-d

8. Hepatit C virusunda hansı nukleotidə rast ***gəlinməz***?
A) urasil B) sitozin C) adenin
D) quanin E) timin

9. Valideyn fərdlərin genotipini müəyyən edin.



Ağ xoruz × Qara toyuq

Mavi cücələr

	erkək fərd	*dişi fərd*
A)	aa	Aa
B)	AA	AA
C)	aa	AA
D)	Aa	Aa
E)	Aa	AA

10. Əgər hüceyrədə xloroplast və hüceyrə divarı mövcuddursa, bu hüceyrə aid ola bilər:
A) fototrof bakteriyaya B) çoxhüceyrəli heyvana
C) saprofit göbələyə D) çiçəkli bitkiyə
E) xemotrof bakteriyaya

11. Çiçəkdə ikiqat mayalanmada bilavasitə iştirak edən erkək qametlərin ümumi sayı 16 olmuşdursa, bu çiçəyin aid olduğu bitki verilənlərdən hansı ola bilər?
A) qarğıdalı B) kələm C) günəbaxan
D) buğda E) zəncirotu

12. Verilmiş bitkilərdən hansılarının çiçəkyanlığı bir növ strukturlardan təşkil olunub?
1. dağlaləsi 2. çınqılotu 3. inciçiçəyi
4. xanımotu 5. soya
A) 1, 3 B) 2, 3, 4 C) 2, 3, 5
D) 1, 4, 5 E) 1, 2

13. Sxemə əsasən düzgün bəndi tapın.

A) X – haploid xromosom yığımlı olur.
B) Y – qamçılara malik hüceyrədir.
C) Y – diploid xromosom yığımlı olur.
D) X – yetkin bitkinin üzərində inkişaf edir.
E) Y – meyoz bölünmə nəticəsində yaranır.

14. Dölsüzlüyü poliploidiya üsulu ilə aradan qaldırılmış tetraploid hibridin yarpaq hüceyrəsinin nüvəsi 44 xromosomludur. Bu hibridin əmələ gəlməsində iştirak edən bitkilərdən birinin kökünün böyümə zonası hüceyrəsinin nüvəsində 20 xromosom varsa, digər bitkinin erkək qametinin neçə xromosomlu olduğunu tapın.
A) 12 B) 20 C) 10 D) 14 E) 24

15. İşıq şüaları insan gözündə torlu qişaya çatana qədər verilənlərdən hansından ***keçmir***?
A) büllurdan B) kor ləkədən
C) şüşəyəbənzər cisimdən D) buynuz qişadan
E) bəbəkdən

16. Xlorofilə malik ***olmayan*** avtotrof canlılar hansı erada yaranmışdır?
A) Kaynozoy B) Mezozoy C) Paleozoy
D) Proterozoy E) Arxey

17. Əgər şimpanzenin gövdə skeletində 62 sümük vardırsa, bu sümüklərin təqribən neçə faizi cüt sümükdür?
A) 40 B) 42 C) 39 D) 36 E) 24

18. İfadələrdən hansını şəkildəki heyvanların hamısına aid etmək olar?

A) qanı tənəffüs orqanlarında oksigenlə zənginləşir
B) qanı bədən boşluğundakı maye ilə qarışır
C) ürək boşluğunda yalnız arterial qan olur
D) qanı qidalı maddələrin daşınmasında iştirak edir
E) vena damarları ilə ürəyinə arterial qan qayıdır

19. Verilmiş mülahizələrdən hansılarını bütün məməlilərə aid etmək olar?
A) çoxlu sayda bala verir
B) yumurta hüceyrələrində bölünmə tam və bərabər gedir
C) plasentası olur
D) mayalanma daxilidir
E) boğazlıq dövrü uzun olur

20. A.Veysman siçanlardan bir neçə nəsil almış və hər nəsildə balaların quyruğunu kəsmişdir. Lakin buna baxmayaraq quyruğu kəsilmiş siçanlardan doğulan balalar quyruqlu olmuşlar. Bununla o, hansı alimin əlamətlərin nəslə keçməsi haqqında fikirlərini təkzib etmişdir?
A) J.B.Lamark B) L.Paster C) K.Linney
D) T.Morqan E) Q.Mendel

21. Protozooz *deyil*:
A) lyamblioz B) malyariya C) enterobioz
D) leyşmanioz E) tripanosomoz

22. Yaranmasında böyük yarımkürələr qabığının alın payı iştirak edir:
1. şifahi nitqin 2. emosiyaların
3. yuxunun 4. yazılı nitqin
A) 1, 2 B) 1, 4 C) 2, 3 D) 2, 4 E) 1, 3

23. Cədvələ əsasən $x + y + z = ?$

Zolaqlı kərtənkələnin	
qan dövranı sayı	x
ürəyində kamera sayı	y
ürək boşluğundakı qan növü sayı	z

24. Kişi orqanizmində əsas bədən boşluqlarında (kəllə, döş, qarın, çanaq) yerləşən və axacağı olan vəziləri seçin.
1. qaraciyər 2. ağız suyu vəziləri
3. böyrəküstü vəzilər 4. toxumluqlar
5. mədəaltı vəzi 6. çəngələbənzər vəzi

25. Cift haqqında ***səhv*** mülahizələri seçin.
1. cinsiyyət hormonları hazırlayır
2. hamiləlik başlayan kimi rüşeymlə ana arasında əlaqəni təmin edir
3. göbək ciyəsi ilə dölə birləşir
4. ana ilə dölün qanını qarışdıraraq mübadilə proseslərini həyata keçirir
5. oksigenin ananın qanından dölə ötürülməsini təmin edir

26. İnsan mitoxondriləri anadan yumurta hüceyrə vasitəsilə, hüceyrə mərkəzini isə atadan spermatozoid vasitəsilə alır. Buna əsasən düzgün bəndi müəyyən edin.
Ziqotun yaranmasında iştirak edən ...
1. Y cinsiyyət xromosomlu hüceyrədə sentriollar olmur.
2. X cinsiyyət xromosomlu hüceyrədə hərəkət orqanoidi ola bilməz.
3. X cinsiyyət xromosomlu hüceyrədə sentriollar ola bilər.
4. Y cinsiyyət xromosomlu hüceyrədə hərəkət orqanoidi olur.
5. X cinsiyyət xromosomlu hüceyrədə mitoxondrilər ola bilməz.

27. Uyğunluğu müəyyən edin.



a. qarğıdalı b. kələm c. dağlaləsi
d. turp e. inciçiçəyi

28. 1 rəqəmi ilə qeyd olunmuş qrafikdə qan dövranı ürəyin hansı kamerasında başlayır və hansı kamerasında bitir?

29. 2 rəqəmi ilə qeyd olunmuş qrafikdə X, Y və Z-lə müvafiq olaraq hansı damarlar qeyd olunmuşdur?

30. X-lə işarə olunmuş damarla ürəyin mədəciyi arasında yerləşən qapağın adını yazın. Əgər müəyyən zaman ərzində bu qapaq 90 saniyə açıq vəziyyətdə qalmışdırsa, bu zaman ürəyin ümumi diastolasına neçə dəqiqə vaxt sərf olunduğunu həllini yazmaqla hesablayın. (0,8 saniyəlik ürək tsikli şəraitində)

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

İnsanda böyük və kiçik qan dövranı zamanı karbon qazının qandakı maddə miqdarının (mol) dəyişməsi qrafiklərdə verilmişdir:

1.



2.



KİMYA

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

31. Hansı sıradakı bütün maddələr gübrə kimi istifadə olunur?
A) $Ba(NO_3)_2$, NaCl, $FeSO_4$
B) KCl, $NaNO_3$, NaCl
C) $NaNO_3$, Ag_3PO_4, NH_4NO_3
D) NH_4NO_3, NH_4Cl, $AgNO_3$
E) $CO(NH_2)_2$, $CaHPO_4 \cdot 2H_2O$, $(NH_4)_2SO_4$

32.

Qlükoza	Mol miqdarı	Yağ turşusuna qıcqırmasından alınan ***qaz qarışığının*** orta molyar kütləsi, q/mol
$C_6H_{12}O_6$	*a*	*b*

b-ni hesablayın. $A_r(H)=1$, $A_r(C)=12$, $A_r(O)=16$,
A) 23 B) 16 C) 22 D) 32 E) 15

33.

Duzlar	1	2	3	4
	$FeSO_4$	$NaNO_3$	$CuCl_2$	K_2S
Hidrolizi zamanı yaranan mühit	turş	əsasi	neytral	əsasi

Doğru verilmiş halları müəyyən edin.
A) 1, 2 B) 1, 3 C) 3, 4 D) 2, 3 E) 1, 4

34. Aşağıda formulu verilmiş maddələrdən hansının sənayedə istifadə olunan adı ***yanlış*** verilmişdir?

	Maddə		Adı
A)	$NaNO_3$	→	Çili şorası
B)	$CaCO_3$	→	Əhəng daşı
C)	KNO_3	→	Norvec şorası
D)	NaCl	→	Xörək duzu
E)	KCl	→	Silvin

35. X atomu 3 elektron aldıqdan sonra modeli şəkildəki kimi olmuşdursa, hansı ifadələr doğrudur?

1. X atomu normal halda V valentli olur.
2. X 2-ci dövr VA qrupunda yerləşir.
3. İonun elektron formulu $...2s^2 2p^6$-dır.
4. X hidrogenlə XH_3 tipli uçucu olmayan birləşmə əmələ gətirir.

A) 2, 3 B) 1, 4 C) 1, 3 D) 3, 4 E) 2, 4

36. $CO + CH_3OH \xrightarrow{t,\ p,\ kat}$ reaksiyası üçün nə doğrudur?
1. Asetat turşusu alınır.
2. Birləşmə reaksiyasıdır.
3. Etanol alınır.
A) yalnız 1 B) yalnız 2 C) 2, 3
D) 1, 2 E) 1, 3

37. Formulu $C_5H_{10}O_4$ olan monosaxarid üçün hansı ifadə doğrudur?
A) "gümüş güzgü" reaksiyasına daxil olmur
B) H_2 ilə reaksiyasından beşatomlu spirt əmələ gəlir
C) hidroliz etmir
D) dördatomlu aldehid-spirtdir
E) disaxariddir

38.

Maddə	Reaksiyaya daxil olduğu maddə	Reaksiyadan alınan maddələr
X	Ag_2O (NH_3)	$CO_2 + Ag + H_2O$

X maddəsini müəyyən edin.
A) CH_3COOH B) CH_3OH C) HCHO
D) HCOOH E) CH_3CHO

39. Qabda olan duz məhlulunun qatılığını 2 dəfə artırmaq üçün məhlulda hansı prosesləri ayrı-ayrılıqda aparmaq lazımdır?



1. Suyun yarısını buxarlandırmaq
2. 40 q həll olmuş duzdan əlavə etmək
3. Məhlulun kütləsi 100 q olana qədər suyu buxarlandırmaq
A) yalnız 1 B) yalnız 2 C) yalnız 3
D) 1, 2 E) 2, 3

40. 

$KHCO_3$-ün parçalanması zamanı $KHCO_3$-ün kütləsinin (m, q) zamandan (t) asılılıq qrafiki verilmişdir. Reaksiyanın praktiki çıxım 60% olarsa, *a*-nı hesablayın. $M_r(KHCO_3)=100$

A) 300 B) 200 C) 250 D) 407 E) 350

41. $4X_{(b)} + 5O_{2\,(q)} = 2X_2O_{5\,(b)} + Q$ kC

X_2O_5-in əmələgəlmə istiliyi (a, kC/mol), $X_{(b)}$ yanma istiliyi (b, kC/mol) və reaksiyanın istilik effekti (c, kC) olarsa, a+b+c cəmini hesablayın.

A) Q B) $\frac{7Q}{4}$ C) 4Q

D) $\frac{5Q}{2}$ E) $\frac{5Q}{4}$

42. Hansı qaz suda həll olduqda turşu əmələ gətirir?

A) H_2 B) N_2 C) NH_3 D) Cl_2 E) CH_4

43. Molekulunda 3 metil qrupu olan C_5H_{10} formullu alken üçün doğru olan ifadəni seçin.

A) Şaxəsiz quruluşa malikdir
B) Molekulunda asimmetrik karbon atomu var
C) Molekulunda sp^2 - s orbitallarının örtülməsindən əmələ gələn 2 rabitə var
D) Sis-trans izomerləri var
E) HCl ilə Markovnikov qaydası üzrə reaksiyaya daxil olur

44. Fosfor üçün hansı ifadələr doğrudur?

I. Kükürdlə reaksiyada reduksiya olunur
II. Xlorla reaksiyaya daxil olmur
III. Kalium-xloratla reaksiyaya daxil olur

A) II, III B) yalnız III C) I, II
D) yalnız I E) I, II, III

45.

Metallar	Mol miqdarı	Reaksiya üçün götürülən turşu	Alınan qazın həcmi (n.ş., *l*)
Ca	*n*	$H_2SO_{4\,(duru)}$	*a*
Al	*n*	$H_2SO_{4\,(duru)}$	*b*
Fe	*n*	$H_2SO_{4\,(duru)}$	*c*

Metallar turşusu ilə tam reaksiyaya daxil olursa, *a*, *b* və *c* üçün doğru münasibəti göstərin.

A) $a>b>c$ B) $b>a>c$ C) $a=c<b$
D) $a=b=c$ E) $a>c>b$

46. Hansı maddənin 1 molunun dissosiasiyasından daha çox ion əmələ gəlir (α=100%)?

A) NaOH B) H_2SO_4 C) $Ba(OH)_2$
D) K_3PO_4 E) KCl

47.

Alifatik doymuş monoamin	Molekulundakı karbon atomlarının sayı	Molekulundakı alkil radikallarının sayı
A	4	*x*
B	4	*y*
C	4	*z*

Aminlərin əsasi xassəsinin artma sırası A<B<C olarsa, *x*, *y* və *z*-i müəyyən edin.

	x	*y*	*z*
A)	2	1	3
B)	1	2	3
C)	3	2	1
D)	2	3	1
E)	1	3	2

48.

Metallar	Mol miqdarı	Reaksiyaya sərf olunan oksigenin kütləsi, q
K	*a*	m_1
Na	*a*	m_2
Li	*a*	m_3

m_1, m_2 və m_3-ü müqayisə edin.

A) $m_1 > m_2 > m_3$ B) $m_1 > m_3 > m_2$
C) $m_3 > m_2 > m_1$ D) $m_1 = m_2 > m_3$
E) $m_1 > m_2 = m_3$

49.

İonlar	Təyinedici reaktivlər		
	H^+	S^{2-}	OH^-
X	–	+	+
Y	+	–	–
Z	–	–	+

İonları hansı reaktivlərlə təyin etmək olar?

	X	Y	Z
A)	Ca^{2+}	CO_3^{2-}	Zn^{2+}
B)	CO_3^{2-}	NH_4^+	Cu^{2+}
C)	Zn^{2+}	CO_3^{2-}	NH_4^+
D)	Ca^{2+}	CO_3^{2-}	Fe^{3+}
E)	Cu^{2+}	lakmus	Na^+

50. Ümumi formulu C_nH_{2n-2} olan maddə molekulunda olan hidrogen atomlarının sayı benzol sırası karbohidrogenlərin ikinci nümayəndəsinin molekulundakı karbon atomlarının sayından iki dəfə çoxdur. Ümumi formulu verilən maddə molekulundakı karbon atomlarının sayını hesablayın.
A) 8 B) 14 C) 7 D) 6 E) 12

51.

Maddə	2-ci karbonun	
2 xlor butadien-1,3	oksidləşmə dərəcəsi	hibridləşmə tipi
	x	y

x və y-i müəyyən edin.

	x	y
A)	+1	sp^3
B)	–1	sp
C)	–2	sp^2
D)	–1	sp^2
E)	+1	sp^2

52.

$2A_{(qaz)} + B_{(qaz)} \rightleftharpoons 2C_{(qaz)}$			
Tarazlıq qatılığı, mol/l	A	B	C
	0,2	0,4	0,2

Tarazlıq sabitini hesablayın.
A) 2 B) 3,5 C) 2,5 D) 1 E) 0,5

53. Yalnız polyar kovalent rabitəli maddələr verilmiş sıraları müəyyən edin?
1. C_2H_2, CO, H_2
2. PH_3, H_2S, CO_2
3. Cl_2, N_2, I_2
4. H_2S, NH_3, HBr
5. O_2, NO_2, HF
6. HI, H_2O, F_2

54. Hansı monomer təbii polimer əmələ gətirmir:
1. β-qlükoza 2. α-qlükoza 3. qilisin
4. divinil 5. α-alanin 6. etilen

55. $FeS_2 + O_2 \xrightarrow{t}$ reaksiyası üçün nə doğrudur?
1. Kükürdün oksidləşmə dərəcəsi $S^{-2} \longrightarrow S^{+4}$ olur.
2. Reaksiya məhsullarından biri Fe_2O_3-dur.
3. Oksigenin əmsalı 11-ə bərabər olur.
4. Birləşmə reaksiyasıdır.

56. $CuSO_4$-un suda məhlulunun elektrolizindən alınmış misin hamısı 126 q qatı nitrat turşusu ilə reaksiyaya daxil olur. Elektroliz zamanı neçə qram turşu alınmışdır?
$M_r(HNO_3)=63$, $M_r(H_2SO_4)=98$

57. Uyğunluğu müəyyən edin.

Oksidləşmə-reduksiya reaksiyalarının tipləri	Reaksiyalar
1. Molekuldaxili	a. $NO + O_2 \longrightarrow$
2. Molekullararası	b. $NO_2 + H_2O \xrightarrow{t}$
3. Öz-özünə	c. $AgNO_3 \xrightarrow{t}$
	d. $CO_2 + C \xrightarrow{t}$
	e. $Cl_2 + NaOH \longrightarrow$

Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları cavab kağızında yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

Müəllim sınaq şüşəsində mis qırıntılarını qatı sulfat turşusunda tam həll edir (I), bu zaman kəskin iyli, boğucu, rəngsiz qaz ayrılır. Alınan məhlul üzərinə müəyyən miqdar KOH məhlulu əlavə etdikdə isə göy rəngli çöküntü əmələ gəlir (II). Baş verən reaksiyaları müşahidə edən şagirdlərə, aşağıdakı sualları ürvanlayır.

58. Ayrılan qazın (1) və çöküntünün (2) formullarını yazın.

59. I və II reaksiyanın tənliklərini yazın və əmsallaşdırın.

60. Mis qırıntılarından ən sonda göy rəngli çöküntünün alınması prosesini əks etdirən qrafikə əsasən *a* və *b*-nin qiymətlərini hesablayın. $A_r(Cu)=64$, $A_r(O)=16$, $A_r(H)=1$



FİZİKA

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

61. Hərəkət tənliyi $x = 20t - 2t^2 - 10$ (m) şəklində olan cismin 2-ci saniyənin sonunda sürətinin ϑ_x proyeksiyasını hesablayın.
A) 16 m/san B) 22 m/san C) 32 m/san
D) 12 m/san E) 20 m/san

62. Xətti sürəti 8 m/san olan maddi nöqtə verilmiş radiuslu çevrə üzrə bərabərsürətli hərəkət edir. Dövretmə tezliyi 0,25 san^{-1} olan bu maddi nöqtənin 2 tam dövr ərzində getdiyi yolu hesablayın.
A) 2 m B) 4 m C) 16 m D) 32 m E) 64 m

63. Kütlələri $m_1 = 200$ q və $m_2 = 600$ q olan iki cismin qarşılıqlı təsiri zamanı birinci cismin aldığı təcil ikinci cismin aldığı təcildən 1,8 m/san^2 çox olarsa, ikinci cismin təcilinin qiymətini hesablayın.
A) 0,6 m/san^2 B) 0,9 m/san^2 C) 2,4 m/san^2
D) 3,6 m/san^2 E) 5,4 m/san^2

64. Mail müstəvi üzərində sükunətdə olan cismə təsir edən ağırlıq qüvvəsi ($\vec{F}_{ağ}$) və dayağın reaksiya qüvvəsi ($\vec{N}$) hansı istiqamətdə yönəlir?



	$\vec{F}_{ağ}$	$\vec{N}$
A)	1	3
B)	3	5
C)	4	2
D)	4	5
E)	3	2

65. Üfüqi səth üzərində sükunətdə olan verilmiş kütləli cismə səthə paralel istiqamətdə F qüvvəsi təsir edir. Cismin təcilinin F qüvvəsinin qiymətindən asılılıq qrafikinə əsasən, cisim ilə səth arasındakı sürtünmə əmsalını hesablayın ($g = 10\ m/san^2$).





A) 0,2 B) 0,24 C) 0,3 D) 0,4 E) 0,6

66. Uzanmayan çəkisiz ipdən asılmış yüklər sisteminin təcili 2 m/san^2 olarsa, birinci cismin kütləsini hesablayın (sürtünmə nəzərə alınmır, $g = 10\ m/san^2$, $m_2 = 12$ kq).
A) 5 kq B) 6 kq
C) 7 kq D) 8 kq
E) 10 kq



67. Verilmiş kütləli cismin kinetik enerjisinin onun impulsunun modulundan asılılıq qrafiki hansıdır?



68. Yer səthindən müəyyən hündürlükdə cismin potensial enerjisi 90 C-dir. Cismi şaquli hərəkət etdirdikdə ağırlıq qüvvəsi –50 C iş görərsə, onun son potensial enerjisini hesablayın.
A) 40 C B) 50 C C) 70 C D) 90 C E) 140 C

69. Eninə dalğanın üçüncü və beşinci qabarları arasındakı məsafə 30 dm olarsa, dalğa uzunluğunu hesablayın.
A) 6 dm B) 7,5 dm C) 10 dm
D) 15 dm E) 30 dm

70. Suya batırılan cismə təsir edən arximed qüvvəsinin sıxışdırıb çıxardığı suyun çəkisindən asılılıq qrafiki hansıdır?



71. Sabit temperaturda verilmiş kütləli ideal qazın təzyiqini 4 dəfə azaltdıqda qaz molekullarının orta kvadratik sürəti neçə dəyişər?
A) 2 dəfə azalar B) 2 dəfə artar
C) dəyişməz D) 4 dəfə azalar
E) 4 dəfə artar

72. Təmasda olan müxtəlif temperaturlu eyni kütləli mis cisimlər yalnız öz aralarında istilik mübadiləsindədir. Cisimlər



arasındakı oxlarla göstərilmiş istilikvermənin istiqamətlərinə əsasən başlanğıc halda onların daxili enerjiləri arasındakı doğru münasibəti müəyyən edin.
A) $U_A > U_C > U_B$ B) $U_C > U_B > U_A$
C) $U_C = U_B = U_A$ D) $U_B > U_A > U_C$
E) $U_B > U_C > U_A$

73. Sərtliyi k, en kəsik sahəsi S, mütləq uzanması Δl olan rezin çubuqda yaranan mexaniki gərginlik hansı ifadə ilə təyin edilir?
A) $\frac{k\Delta l}{S}$ B) $\frac{\Delta l}{kS}$ C) $\frac{kS}{\Delta l}$ D) $\frac{S\Delta l}{k}$ E) $kS\Delta l$

74. Kondensator bateryasının ümumi tutumunu hesablayın.



A) 2 mkF B) 4 mkF C) 14 mkF
D) 16 mkF E) 20 mkF

75. Elektroliz prosesində məhluldan keçən cərəyan şiddətinin zamandan asılılıq qrafiki verilmişdir. İlk 6 san ərzində katodda ayrılan maddənin kütləsini hesablayın (k=0,3 mq/Kl).



A) 0,6 mq B) 0,3 mq C) 0,15 mq
D) 5,4 mq E) 2,7 mq

76. Bircins maqnit sahəsinə perpendikulyar istiqamətdə daxil olan protona təsir edən Lorens qüvvəsinin modulunun onun kinetik enerjisindən asılılıq qrafiki hansıdır?



77. Rəqs konturunda maqnit sahəsinin enerjisinin elektrik sahəsinin enerjisindən asılılıq qrafiki verilmişdir. K nöqtəsinə uyğun zaman anında kondensatorun elektrik sahəsinin enerjisinin sarğacın maqnit sahəsinin enerjisinə olan nisbətini hesablayın.



A) 8/9 B) 1/9 C) 1/8 D) 1/4 E) 8

78. Elektromaqnit şüalanma selinin sıxlığının vahidi hansıdır?
A) $\frac{Vt}{m^2}$ B) $\frac{V}{m}$ C) $\frac{N}{m}$ D) Vt E) C

79. İşıq şüasının II müstəvi güzgüdən qayıtma bucağını hesablayın.



A) 10° B) 25°
C) 40° D) 50°
E) 80°

80. Periodu 0,004 mm olan difraksiya qəfəsinin üzərinə dalğa uzunluğu 0,6 mkm olan işıq şüası düşür. Alınan spektrdə ikinci tərtib maksimuma uyğun meyl bucağının sinusunu hesablayın.
A) 0,15 B) 0,75 C) 0,3 D) 0,4 E) 0,6

GÜVƏN NƏŞRİYYATI

81. Qapalı keçirici konturdan keçən maqnit seli $\Phi = 5t^2$ (Vb) qanunu ilə dəyişir. Konturda yaranan induksiya cərəyanının modulunun zamandan asılılıq qrafiki hansıdır (R=const)?

A) 

B) 

C) 

D) 

E) 

82. Fotoelektronların maksimal kinetik enerjisi ($E_{k.max}$) və metaldan çıxış işi ($A_ç$) üçün Eyler-Venn diaqramında uyğun ifadələri müəyyən edin.



1. vahidi elektron-voltdur
2. düşən işığın tezliyindən asılı deyil
3. düşən işığın tezliyindən xətti asılıdır
4. düşən işığın intensivliyindən asılı deyil

	I	*II*	*III*
A)	3	2	1, 4
B)	1, 3	2	4
C)	3	2, 4	1
D)	2	3	1, 4
E)	2	1, 3	4

83. Açar sözlərdən müəyyən ardıcıllıqla istifadə edərək, mətni tamamlayın.
Açar sözlər: *1 – elektrik lampasıdır, 2 – elektrik zəngidir, 3 – işıq enerjisinə, 4 – səs enerjisinə.*

simvolu ilə işarələnmiş element _____. O, elektrik enerjisini _____ çevirir.  simvolu ilə işarələnmiş element _____. O, elektrik enerjisini _____ çevirir.

84. Tarazlıqda olan çəkisiz ling qüvvədə 3 dəfə qazanc verir. Dayağın N reaksiya qüvvəsini N ilə hesablayın.



85. Bircins elektrik sahəsinin b və c nöqtələrindəki potensialın qiymətlərinə əsasən, a nöqtəsindəki sahənin potensialını V ilə hesablayın (bölgülər eynidir).



86. Hansı ifadələr doğrudur?
Psixrometrlərin quru və yaş termometrinin göstəriciləri (t) və nisbi rütubətləri (φ) arasındakı doğru münasibəti müəyyən edin:



1. $t_1 > t_2$
2. $t_1 = t_2$
3. $t_1 < t_2$
4. $\varphi_1 > \varphi_2$
5. $\varphi_1 = \varphi_2$
6. $\varphi_1 < \varphi_2$

87. Uyğunluğu müəyyən edin.
1. β-şüalanma
2. γ-şüalanma
3. α-şüalanma
a. helium nüvələri selindən ibarətdir
b. elektron, yaxud pozitron selindən ibarətdir
c. foton selindən ibarət elektromaqnit şüalanmasıdır
d. bu şüalanmada nüvənin kütlə və yük ədədləri dəyişməz qalır
e. bu şüalanmaya (çevrilməyə) məruz qalan nüvənin yük ədədi 2 vahid, kütlə ədədi isə 4 vahid azalır

Sizə təqdim olunan situasiyanı diqqətlə oxuyun. Burada verilmiş məlumatlardan istifadə edərək, aşağıdakı tapşırıqları Cavab vərəqində yerinə yetirin. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.

İçərisində qızdırıcı spiral olan sınaq şüşəsinə 500 q su əlavə edilmişdir. K açarını qapayaraq başlanğıc temperaturu 20°C olan su spiral vasitəsilə qızdırılır. Müəyyəm müddətdən sonra su qaynamağa başlayır. Qaynama prosesində suyun 200 q-ı buxara çevrilir (c_{su}=4000 C/(kq·°C)).



88. K açarı qapandıqdan sonra hansı enerji çevrilmələrinin baş verdiyini yazın. Cavabınızı əsaslandırın.

89. Bütün prosesə uyğun suyun temperaturunun aldığı istilik miqdarından asılılıq qrafikini çəkin. Uyğun düsturları yazmaqla cavabınızı əsaslandırın.

90. Spiral vasitəsilə qızdırılan suyun ilk 4 dəq ərzində temperatur dəyişməsini °C ilə hesablayın (qızdırıcı spiralın verdiyi enerjinin hamısının suyun qızmasına sərf edildiyi qəbul olunur).

SINAQ 14

BİOLOGİYA

Mövzular üçün *Video həllər üçün* *Cavablar üçün*

1. İnsanın sol böyrəyindən qan kapilyarlarına keçmiş karbon qazı alveol kapilyarlarına gələnə qədər ***keçmir***:
A) ürəyin sağ mədəciyindən
B) aşağı boş venadan
C) ağciyər kötüyündən
D) ağciyər venasından
E) ürəyin sağ qulaqcığından

2. Sxemdə bir hüceyrənin meyoz bölünməsinin fazaları verilmişdir. Bu fazalardan II mərhələyə aid olanları seçin.



A) 1, 2, 4, 8 B) 1, 5, 6, 7 C) 2, 3, 5, 8
D) 2, 3, 5, 7 E) 3, 4, 6, 7

3. Atın filogenetik sırasında I canlının barmaqlarının ümumi sayı V canlının rudiment barmaqlarının sayının cəmindən neçə ədəd çoxdur?



A) 2 B) 8 C) 4 D) 16 E) 12

4. Sürfəsi balıqlara zərər vurur:
A) göl ilbizinin B) göl qurbağasının
C) parabüzənin D) anadontanın
E) öküz soliterinin

5. Düzgün mülahizələri seçin.
Məməlilərin əksər növlərində:
1. dölün inkişafı ana bətnində gedir
2. onurğa S-vari əyriliyə malikdir
3. kəllənin beyin şöbəsi üz şöbəsindən kiçik olur
4. üçüncü göz qapağı olur
A) 1, 3 B) 3, 4 C) 2, 3 D) 1, 4 E) 2, 4

6. İnsan orqanizmində verilənlərdən hansında daha çox reseptor müxtəlifliyi olur?
A) əlin dərisində
B) gözün torlu qişasındakı sarı ləkədə
C) dilin üzərində
D) daxili qulaqdakı ilbizdə
E) daxili qulaqdakı oval və dairəvi kisəciklərdə

7. Sağlam insanda sidik cövhərinin qatılığı ən çox olur:
A) böyrək arteriyasında B) nefron venasında
C) böyrək venasında D) sidik axarında
E) ağciyər venasında

8. Xaçlı hörümçəyin tor ziyilciklərinin sayını n, pedipalplarının sayını a ilə işarə etsək, onda onun xeliserlərinin sayını necə hesablaya bilərik?
A) $\frac{n+a}{3}$ B) $\frac{n+a}{4}$ C) $\frac{n-a}{4}$
D) $2n-a$ E) $n+a$

9. Nöqtələrin yerinə yazıla bilər:
Erkək qıjının fərdi inkişafı zamanı ..... həm haploid, həm də diploid xromosom yığımına malik hüceyrələrə rast gəlmək olar.
1. kökümsov gövdədə 2. yarpaqda
3. protalda 4. qutucuqda
A) 1, 2 B) 2, 3 C) 3, 4 D) 2, 4 E) 1, 3

10. Sual işarəsinin yerinə yazıla bilər:
Öküz soliteri *Qaraciyər sorucusu*



A) sormac B) başcıq C) ağız
D) bağırsaq E) boyuncuq

11. Verilmiş sxemin aid olduğu bitkiləri seçin.

1. söyüd
2. qarğıdalı
3. çətənə
4. xiyar
5. zəncirotu
A) 1, 2 B) 2, 4 C) 3, 5
D) 4, 5 E) 1, 3

12. Düzgün fikri müəyyən edin.
İki qan dövranına malik heyvanların yetkin fərdlərində:
A) qan tənəffüs orqanlarından arteriya damarlarına keçir
B) ürək ikikameralıdır
C) qan ürək boşluğuna vena damarları ilə qayıdır
D) ürək boşluğunda yalnız arterial və venoz qan olur
E) qan qazlar mübadiləsində iştirak etmir

13. İşıqsevən ot bitkisinin hər hansı bir ağacın kölgəsində bit-məsi onun zərərinədir. Lakin bunun ağaca elə bir təsiri yoxdur. Bu canlılar arasında hansı qarşılıqlı təsirə aiddir?
A) kommensalizm B) parazitizm
C) rəqabət D) mutualizm
E) amensalizm

14. Kökün hansı zonasında və ya zonalarında tam formalaşmış ötürücü borular olur?
A) yalnız ötürücü B) sorucu və ötürücü
C) yalnız sorucu D) böyümə və sorucu
E) böyümə və ötürücü

15. Əgər bakteriyalar 15 dəqiqədən bir bölünərsə, əlverişli şəraitdə 2 ilkin bakteriyadan 1 saatda neçə nəsil əmələ gələr?
A) 4 B) 3 C) 8 D) 2 E) 32

16. İnsanın hansı orqanı həm hormon, həm də həzm fermentləri hazırlayır?
A) qaraciyər B) ağız suyu vəzisi
